RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 6 (9173) 12 YANVAR 2023-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




**Heydər Əliyev İli**

## Heydər Əliyev dövlətçilik idealları və müasir dövr

AMEA və "Azərbaycan" qəzetinin birgə təşkilatçılığı ilə keçirilən elmi konfrans



**2023-cü ilin respublikamızda "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin Böyük zalında AMEA və "Azərbaycan" qəzetinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev dövlətçilik idealları və müasir dövr" mövzusunda elmi konfrans keçirilib.**

**Konfrans iştirakçıları əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin AMEA-dakı büstü önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad ediblər. Daha sonra tədbir iştirakçıları Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən kitab sərgisi ilə tanış olublar.**

4-5

## Böyük quruculuqdan möhtəşəm yüksəlişə



## İlham Əliyev 2023-cü ilin əsas prioritetlərini və hədəflərini müəyyənləşdirdi

**Qlobal iqtisadiyyatın üzləşdiyi ağır sınaq illərinin ardından digər böyük dövlətlər kimi yeni inkişaf strategiyalarını postböhran dövrünün çağırışlarına uyğun müəyyənləşdirən Azərbaycan daha bir ili uğurla geridə qoydu.**

Hələ ötən il ekspertlər 2022-ci ili dünya iqtisadiyyatının tənəzzüldən çıxaraq bərpa dövrünə keçid ili kimi səciyyələndirirdilər. Amma dünyanın bir parçası olan və İkinci Qarabağ müharibəsindən şanlı Zəfərlə çıxan Azərbaycan iqtisadiyyatının dayanıqlığı və hətta ÜDM-in artımı onu deməyə əsas verir ki, qarşıya qoyulan bütün hədəflər düzgün müəyyənləşdirilmişdir.

Prezident İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi fikirlər də bunu deməyə bir daha əsas verir. Prezident proqram xarakterli fikirləri ilə həm ötən ilin uğurlarını dəyərləndirdi, həm də qarşıdakı prioritetləri göstərdi.

### Artan sosial-iqtisadi göstəricilər

Hazırda Azərbaycan regionun ən sürətlə inkişaf edən qüdrətli dövlətidir. Ötən illər ərzində respublikamızın bölgələrinin inkişafı istiqamətində həyata keçirilən layihələrin uğurlu göstəriciləri, yaranan mənzərə hər bir ölkə üçün nümunə ola bilər. Ölkənin maliyyə imkanlarının artması isə onu deməyə əsas verir ki, qarşıdakı dövrdə də regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları uğurla icra olunacaq.

İlham Əliyevin sosial-iqtisadi islahatları, qəbul etdiyi mütərəqqi qərarları sayəsində ölkə iqtisadiyyatındakı artım tempi rəqəmlərdə də öz əksini tapır və bu da görülən işlərin təsdiqi hesab olunur. Bunu uğurlu sosial-iqtisadi göstəricilərə nəzər yetirdikdə aydın şəkildə görə bilərik:

- İqtisadiyyat 5 faiz, qeyri-neft sektoru 9 faizdən çox artıb;
- ümumi daxili məhsul 134 milyard manata çatıb;
- xarici ticarət artaraq 50 milyard dolları ötüb;
- xarici ticarətin müsbət saldosu 25 milyard dollar təşkil edir;
- dövlətin xarici borcu 7 milyard dollardan aşağıdır;
- minimum əməkhaqqı 15 faiz artaraq 345 manata çatıb;
- minimum pensiya 16,7 faiz artaraq 280 manata yüksəlib;
- 60 minə yaxın ailə ayda dövlətdən 460 manat ünvanlı sosial yardım alıb;
- şəhid ailələri və müharibə əlillərindən 1500 ailəyə yeni mənzil verilib;
- 60 min ailə 2 özünüməşğulluq proqramına cəlb edilib;

3

## Prezident siyasi partiyalar haqqında qanunu təsdiqlədi



6-8

## Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın müdafiə nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 11-də İtaliya Respublikasının müdafiə naziri Quido Krosettonu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-İtaliya ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini bildirərək, bu baxımdan yüksəksəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı, özünün İtaliyaya son səfərini məmnunluqla qeyd etdi.



2

## *Xankəndidəki ermənilər ümid edirlər:*
## "İlham Əliyevin sayəsində xoş gün görə bilərik"

9

## Laçın-Xankəndi yolu tarixi günlərə şahidlik edir

Şaxtalı və qarlı havaya baxmayaraq, azərbaycanlı fəallar sərvətlərimizin keşiyini çəkirlər

Bu aksiya Azərbaycan ictimaiyyətinin haqlı narazılığının göstəricisi, milli birliyimizin bariz nümunəsidir. Fəallar nəticə əldə olunana qədər aksiyanı davam etdirəcəklərini bəyan edir, sərvətlərimizin keşiyində dayanmağı özlərinə borc bilirlər. Havanın qarlı-şaxtalı olmasına baxmayaraq, iştirakçıların etirazları davam etdirmələri xalqımızın sarsılmaz əzmkarlığından xəbər verir.

Prezident müsahibəsində bu məsələyə də nöqtə qoyaraq bir daha bəyan etdi ki, "bizim məqsədimiz blokada deyil". Həqiqətən də, humanitar məqsədli yüklər gün ərzində Laçın yolundan sərbəst şəkildə buraxılır və aidiyyəti strukturlarımız, eləcə də sülhməramlılar tərəfindən bununla bağlı gündəlik yazılı və vizual qeydiyyat rəsmiləşdirilir. Bütün bunların fonunda blokadadan danışanlar, deməli, Xankəndiyə silah-sursat daşınmasının qarşısının alınmasından, iranlı diversantların və sabitlik üçün digər təhlükəli ünsürlərin bölgəyə gəlişinə son qoyulmasından narahatdırlar.

9

## Milli etirazın təntənəsi



**Vətəndaş cəmiyyəti fəallarının və gənclərimizin Laçın-Xankəndi yolunda keçirdikləri aksiyanın başlanmasının bir ayı tamam oldu**

" ...O gənclərə "Eşq olsun!" demək istəyirəm, onlar bizim fəxrimizdir. Qeyd etdiyiniz kimi, gecə-gündüz şaxtalı-qarlı havada oradadırlar, öz haqlarını tələb edirlər və bir daha Azərbaycan gəncinin nə qədər yüksək keyfiyyətlərə malik olmasını bütün dünyaya göstərirlər".

Prezident İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına verdiyi müsahibədə qürurla vurğuladığı kimi, Azərbaycan gəncləri Vətən müharibəsində misilsiz şücaət göstərərək torpaqlarımızı işğaldan azad etdiyi kimi, indi də milli maraqlarımızın təmin olunması naminə Laçın-Xankəndi yolunda əzmlə mübarizə aparırlar. Artıq Laçın-Xankəndi yolundakı etiraz aksiyasının başlanmasının bir ayı tamam oldu.

9

## İƏT Azərbaycan ərazisində təbii sərvətlərin qanunsuz istismarını pisləyib

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Azərbaycanın Qarabağ bölgəsində Ermənistan tərəfindən təbii sərvətlərin qanunsuz istismarını pisləyib. AZƏRTAC xəbər verir ki, bu barədə İƏT Baş Katibliyinin bəyanatında qeyd olunub.

Bildirilib ki, bu, 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanmış üçtərəfli Bəyanatın pozulmasıdır.

"Beynəlxalq hüquqa və Azərbaycan Respublikasının milli qanunvericiliyinə əsasən, faydalı qazıntı yataqlarının ekoloji amillər nəzərə alınmadan istismarı nəinki qanunsuzdur, həm də ciddi və qanuni narahatlıq doğurur", - deyə bəyanatda qeyd olunub.

Katiblik bütün tərəfləri fikir ayrılıqlarını dialoq yolu ilə həll etməyə çağırıb və Azərbaycanın bu istiqamətdə səylərini yüksək qiymətləndirib.

2022-ci il martın 22-23-də Pakistan İslam Respublikasının İslamabad şəhərində keçirilmiş İƏT Xarici İşlər Nazirləri Şurasının 48-ci Sessiyası tərəfindən qəbul edilmiş qətnaməni xatırladaraq, Baş Katiblik Azərbaycan ilə Ermənistan arasında münasibətlərin bir-birinin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin qarşılıqlı tanınması və hörmət prinsipləri əsasında normallaşdırılmasına çağırış edib.

## M.M.Məmmədovun Azərbaycan Respublikasının İsrail Dövlətində fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Muxtar Məmməd oğlu Məmmədov Azərbaycan Respublikasının İsrail Dövlətində fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 yanvar 2023-cü il*

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; 2021, № 3, maddə 211, № 6 (I kitab), maddələr 541, 551, 555, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 10, maddələr 1090, 1092, № 12, maddələr 1305, 1337; 2022, № 1, maddələr 6, 7, 17, № 6, maddə 587, № 7, maddə 716, № 8, maddə 832) aşağıdakı dəyişikliklər edilsin:

1. 30.6.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"30.6.5. "Sosial sığorta haqqında", "İşsizlikdən sığorta haqqında", "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarından irəli gələn vəzifələrin icrası üçün zəruri olan hədlərdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma);".

2. 30.6.14-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 30.6.15-ci maddə əlavə edilsin:

"30.6.15. "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinin 1-ci hissəsinin tətbiq edilməsi məqsədləri üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma).".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2022-ci il*

## "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 644-VIQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 644-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 30.6.5-ci və 30.6.15-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 30.6.5-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 30.6.15-ci maddəsində "orqan (qurum)" dedikdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 644-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 yanvar 2023-cü il*

# Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın müdafiə nazirini qəbul edib

*Əvvəli 1-ci səh.*

Dövlətimizin başçısı İtaliya Respublikası Nazirlər Şurasının yeni Sədri Ciorcia Meloniyə təbrik məktubu göndərdiyini xatırladaraq, yeni hökumətin formalaşmasından qısa müddət keçməsinə baxmayaraq, müdafiə naziri səviyyəsində ölkəmizə səfərin həyata keçirilməsinin əlaqələrimizin yaxşı göstəricisi olduğunu qeyd etdi və əminliyini bildirdi ki, yeni hökumətlə Azərbaycan arasında əməkdaşlıq uğurlu olacaq.

Romanın tarixi rayonunda Azərbaycan səfirliyinin yeni binasının açılışında ilk tədbirin ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasiminə həsr olunduğunu xatırladan Prezident İlham Əliyev İtaliya-Azərbaycan Universitetinin Azərbaycandakı binasının inşasının yekunlaşmaq üzrə olduğunu dedi.

Dövlətimizin başçısı Azərbaycan-NATO və Azərbaycan-Avropa İttifaqı əlaqələrinin genişlənməsində İtaliyanın verdiyi töhfəni yüksək qiymətləndirərək qeyd etdi ki, ölkələrimiz



arasında müxtəlif sahələrdə, o cümlədən energetika sahəsində uğurlu əməkdaşlıq aparılır. Prezident İlham Əliyev bu baxımdan "Cənub qaz dəhlizi"nin səmərəli fəaliyyətini vurğuladı. Prezident İlham Əliyev Quido Krosettonun Azərbaycana səfərinin həm ölkələrimizin aidiyyəti qurumları arasında, həm də daha geniş mənada əməkdaşlığın möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi, ikitərəfli münasibətlərimizin bundan sonra da möhkəmlənəcəyinə ümidvarlığını ifadə etdi.

Prezident İlham Əliyev ilə görüşdən şərəf duyduğunu bildirən Quido Krosetto ilk növbədə İtaliya Prezidenti Sercio Mattarellanın salamlarını dövlətimizin başçısına çatdırdı və qeyd etdi ki, səfərdən öncə İtaliya Prezidenti ilə görüşü zamanı Sercio Mattarella özünün Azərbaycana, dövlətimizin başçısının isə İtaliyaya səfərini məmnunluqla xatırladıb və Azərbaycan Prezidenti ilə dostluq əlaqələrinin mövcudluğunu bir daha vurğulayıb. Dövlətimizin başçısı salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını İtaliya Prezidentinə çatdırmağı xahiş etdi. Quido Krosetto səfərdən əvvəl eyni zamanda İtaliya Respublikası Nazirlər Şurasının Sədri Ciorcia Meloni ilə də görüşdüyünü bildirərək qeyd etdi ki, Ciorcia Meloni vurğulayıb ki, İtaliya müdafiə nazirinin ölkəmizə səfəri İtaliya hökumətinin Azərbaycanla əməkdaşlığı daha da genişləndirmək əzmində olduğunu göstərir.

Nazir Quido Krosetto qeyd etdi ki, Azərbaycan Prezidentinin İtaliyaya səfərləri bu ölkədə hər zaman böyük məmnunluqla qarşılanır.

Qonaq Prezident İlham Əliyevin Azərbaycan-NATO və Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafında İtaliyanın oynadığı rola verdiyi qiymətə görə minnətdarlığını ifadə etdi.

Quido Krosetto Bakıda gedən inkişaf proseslərinin onlarda dərin təəssürat hissi yaratdığını dedi.

Söhbət zamanı energetika, inşaat, turizm, kənd təsərrüfatı, müdafiə sənayesi və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi.

# Azərbaycanla Səudiyyə Ərəbistanı Krallığı arasında əlaqələrin daha da genişləndirilməsi üçün böyük imkanlar var

Yanvarın 11-də Milli Məclisin Sədri Sahibə Qafarova Səudiyyə Ərəbistanı Krallığı Şura Məclisinin Səudiyyə Ərəbistanı-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Fayez bin Abdullah Əl-Şəhrinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan Milli Məclisin Sədri ölkəmizin Səudiyyə Ərəbistanı Krallığı ilə əlaqələrin inkişafına və müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verdiyini qeyd edib. Bildirib ki, bu gün ölkələrimiz arasındakı əlaqələr yüksək səviyyədədir, amma bunun daha da genişləndirilməsi üçün böyük imkanlar mövcuddur. Sözsüz ki, ikitərəfli əlaqələrin inkişafında ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin müstəsna rolu var.

Parlamentin sədri vurğulayıb ki, iki ölkə arasında münasibətlərin inkişafı Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1994-cü ildə Səudiyyə Ərəbistanına səfəri ilə başlayıb və bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq etdiyini vurğulayan spiker Səudiyyə Ərəbistanının beynəlxalq təşkilatlar, xüsusilə BMT və İƏT çərçivəsində ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına verdiyi dəstəyi və tutduğu ədalətli mövqeyini yüksək qiymətləndirib. Bildirilib ki, Səudiyyə Ərəbistanı nadir ölkələrdəndir ki, Azərbaycan torpaqlarını işğal etdiyinə görə Ermənistanla diplomatik əlaqələr qurmayıb və bu, Azərbaycan xalqına, Azərbaycan dövlətinə göstərilmiş böyük mənəvi dəstək və qardaşlığın əlamətidir.



44 günlük Vətən müharibəsinin nəticələrindən danışan spiker bildirib ki, Azərbaycan Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərimizdən qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 27 il yerinə yetirilməmiş qalan dörd qətnaməsini, digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələrini öz gücü ilə həyat keçirərək torpaqlarını işğaldan azad edib. O, Ermənistanın 30 illik işğal dövründə Azərbaycan torpaqlarında İslam dininə aid abidələri dağıtmaq, məscidləri təhqir etmək siyasəti yürütdüyünü, bununla nəinki Azərbaycan xalqını, bütün müsəlman aləmini təhqir etdiyini xatırladıb.

Parlamentin sədri Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa işləri apardığını, artıq keçmiş məcburi köçkünlərimizin doğma yurdlarına qayıtmaları prosesinin başladığını bildirib. Qeyd olunub ki, ərazilərin Ermənistan tərəfindən minalanması bu prosesə maneçilik törədir.

Milli Məclisin Sədri Ermənistanda yaşayan azərbaycanlıların öz doğma torpaqlarından hətta münaqişə başlamazdan öncə qovulduğunu deyərək, müasir Ermənistanın tarixi Azərbaycan torpaqlarında yaradıldığını və azərbaycanlıların bu torpaqlarda əsrlər boyu yaşadıqlarını qonaqların diqqətinə çatdırıb. Parlamentin rəhbəri qərbi azərbaycanlıların da öz doğma torpaqlarına geri qayıdacaqlarına inamını ifadə edib.

Spiker bildirib ki, Azərbaycan regionda uzunmüddətli sülhün və sabitliyin təmin edilməsi üçün səy göstərir. Lakin Ermənistan müxtəlif bəhanələrlə bu məsələdən yayınır.

Sonra Azərbaycan və Səudiyyə Ərəbistanı parlamentləri arasında əlaqələrin inkişafından söz açan spiker qeyd edib ki, hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyəti, komitələr arasında əməkdaşlıq parlamentlərarası əlaqələrin inkişafı baxımından önəmlidir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi barədə danışan spiker Sahibə Qafarova beynəlxalq parlament platformalarında əməkdaşlığın önəminə toxunub. Milli Məclisin Sədri Səudiyyə Ərəbistanı parlamentinin nümayəndə heyətinin bu səfərinin qardaş xalqlarımız arasında münasibətlərin, parlamentlərarası əlaqələrin daha da dərinləşməsi işinə xidmət edəcəyinə inamını ifadə edib. Səmimi qonaqpərvərliyə görə minnətdarlığını bildirən Səudiyyə Ərəbistanı Krallığı Şura Məclisinin Səudiyyə Ərəbistanı-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Fayez bin Abdullah Əl-Şəhri ölkəsinin Azərbaycanla əlaqələrin inkişafına və əməkdaşlığın dərinləşməsinə böyük önəm verdiyini bildirib.

Dostluq qrupunun rəhbəri deyib ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə baş verən yüksək inkişaf proseslərini çox yüksək qiymətləndirirlər. O, ölkəmizin dövlət başçısının Azərbaycanın inamlı tərəfdaş olması ilə bağlı fikirlərini xatırladaraq, vurğulayıb ki, bu fikirlər dövlətlərimiz arasında münasibətlərdə də öz əksini tapır. Qonaq səfər çərçivəsində Bakıda gördükləri ilə bağlı yüksək təəssüratlarını bölüşüb və ölkəmizdə rifahın, əmin-amanlığın şahidi olduqlarını qeyd edib.

O, iki ölkə arasında əlaqələrin yüksək səviyyədə olmasını qeyd edib, müxtəlif sahələrdə, o cümlədən qanunverici orqanlar arasında əməkdaşlığın hər iki ölkənin xalqlarının maraqlarına uyğun olduğunu vurğulayıb, bu istiqamətdə fikirlərini bölüşüb.

Söhbətdə ikitərəfli münasibətlərin, parlamentlərarası təmasların, dostluq və əməkdaşlıq əlaqələrinin inkişafı, iqtisadi münasibətlərin, ticarət əlaqələrimizin təşviqi, investisiya sahəsində yeni əməkdaşlıq imkanları və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin Səudiyyə Ərəbistanı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Fatma Yıldırım, parlament Aparatının rəhbəri Fərid Hacıyev, ölkəmizin Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayev və digər rəsmi şəxslər iştirak ediblər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Qarşılıqlı səfərlər və görüşlər əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir

Yanvarın 11-də Milli Məclisin Səudiyyə Ərəbistanı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun və Səudiyyə Ərəbistanı Krallığı Şura Məclisinin Azərbaycanla parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun üzvləri arasında görüş keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Səudiyyə Ərəbistanı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Fatma Yıldırım qonaqları salamlayaraq qarşılıqlı səfərlərin və görüşlərin əməkdaşlığın möhkəmləndirilməsinə xidmət etdiyini söyləyib. İki ölkə və xalqlarımız arasında ortaq mənəvi dəyərlərə söykənən dostluq, qardaşlıq münasibətlərinin olduğunu bildirib.

O, dövlətlərimiz arasında əlaqələrin inkişafında parlamentlərarası əməkdaşlığın xüsusi rolundan danışaraq hər iki ölkənin parlamentlərində fəaliyyət göstərən dostluq qrupları arasında sıx əlaqələrin olduğunu qeyd edib. Parlamentlərin müvafiq komitələri arasında da əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyindən bəhs edib. Deputatlarımızın beynəlxalq təşkilatlar çərçivəsində iştiraklarını təqdir edib.

Fatma Yıldırım Azərbaycanın 44 günlük Vətən müharibəsində öz torpaqlarını işğaldan azad etdiyini vurğulayıb. Hazırda bu ərazilərdə bərpa və yenidənqurma işlərinin uğurla həyata keçirildiyini diqqətə çatdırıb.

Səmimi görüş və qonaqpərvərlik üçün minnətdarlığını bildirən nümayəndə heyətinin başçısı, Səudiyyə Ərəbistanı Krallığı Şura Məclisinin Azərbaycanla parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Fayez bin Abdullah Əl-Şəhri xalqlarımız arasındakı dostluq münasibətlərini yüksək qiymətləndirib. O, parlament nümayəndə heyətləri arasında qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edib. Dostluq qrupunun rəhbəri və üzvləri çıxışlarında ölkəmizə səfərdən məmnunluqlarını ifadə ediblər, Azərbaycanda gördükləri inkişafla bağlı xoş təəssüratlarını bölüşüblər. Səudiyyə Ərəbistanının Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu bildiriblər. Qonaqlar turizm, energetika, neft-qaz, bərpaolunan enerji, investisiya istiqamətlərində əlaqələrin inkişaf etdirilməsinin vacibliyindən söhbət açıblar. Habelə təhsil, elm sahəsində əməkdaşlığın genişləndirilməsinin önəmli olduğunu söyləyiblər. Ölkələrində qadınların ictimai-siyasi həyatda fəal iştirak etdiklərini bildiriblər.

Parlamentlərarası əlaqələrlə bağlı fikirlərini bölüşən Səudiyyə Ərəbistanı nümayəndə heyətinin üzvləri dostluq qrupları çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyindən bəhs ediblər. Hər iki ölkə parlamentlərində mövcud olan müvafiq komitələr arasında əlaqələrin qanunvericilik sahəsində təcrübə və informasiya mübadiləsi baxımından əhəmiyyətindən danışıblar.

Milli Məclisin Səudiyyə Ərəbistanı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Əhliman Əmiraslanov, Anar İsgəndərov, Aydın Mirzəzadə, Anar Məmmədov, Ceyhun Məmmədov, Könül Nurullayeva görüşdə iştirak ediblər.

Deputatlarımız öz çıxışlarında parlamentlər arasında əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikirlərini açıqlayıblar. Səudiyyə Ərəbistanının Azərbaycanın mövqeyini müxtəlif platformalarda dəstəklədiyini qeyd ediblər. Səhiyyə, təhsil, gənclər və idman sahələrində əməkdaşlığın inkişaf etdiyini söyləyiblər.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***



# Böyük quruculuqdan möhtəşəm yüksəlişə

## İlham Əliyev 2023-cü ilin əsas prioritetlərini və hədəflərini müəyyənləşdirdi

*Əvvəli 1-ci səh.*

### Azərbaycandakı inflyasiya idxal edilmiş inflyasiyadır

Göründüyü kimi, bütün bu nailiyyətlərə çatmaq üçün ölkənin güclü dayanıqlı iqtisadi potensialı olmalıdır. Lakin iqtisadi müstəqilliyini çoxdan təmin edən Azərbaycan üçün istənilən sahədə islahatlar aparmaq çətin deyil. Bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, heç kimdən iqtisadi və siyasi cəhətdən asılı deyil. Bunu ötən ilin yuxarıda göstərilən iqtisadi göstəricilərinə nəzər salsaq görə bilərik.

Postpandemiya dövrü üçün nəticələr qənaətbəxşdir. İqtisadiyyat təxminən 5 faiz, qeyri-neft sektorunda isə 9 faizdən çox artıb.

Bu gün dünya iqtisadiyyatını narahat edən əsas məsələ, əlbəttə ki, inflyasiyadır. Prezident bu məsələyə də aydınlıq gətirərək dedi ki, inflyasiya bu gün bütün dünyada ciddi bir problemə çevrilib. Hətta inkişaf etmiş və inflyasiya, adətən, maksimum 1,5 faizdən yüksək olmayan Qərb ölkələrində bu rəqəm 10 faizi üstələyir. Prezident bildirdi ki, Azərbaycandakı inflyasiya idxal edilmiş inflyasiyadır. Çünki dünya iqtisadiyyatının bir parçası olduğumuz üçün bir çox malları idxal edirik və bu istiqamətdə də çalışırıq ki, idxalı əvəzləyən yerli istehsal daha geniş vüsət alsın: "Amma hələ təbii ki, idxaldan asılıyıq. Ona görə, əgər belə demək mümkündürsə, inflyasiya Azərbaycana idxal edilib. Keçən ilin nəticələrinə görə 13,9 faiz təşkil edib. Yəni bu idxal edilmiş inflyasiya ilə bizim mübarizə imkanlarımız kifayət qədər məhduddur. Halbuki keçən il aparılan islahatlar nəticəsində, o cümlədən biznes mühitinin yaxşılaşdırılması, sağlam rəqabətin təşviqi, inhisarçılığa qarşı mübarizə, həmçinin gömrük sistemində olan pozuntuların aradan qaldırılması, kadr islahatları, əlbəttə ki, burada da müsbət rol oynayacaq".

Azərbaycan sosial dövlətdir və əminliklə demək olar ki, iqtisadi müstəqilliyini təmin edən ölkəmizdə heç bir sosial layihə təxirə salınmayıb. Minimum pensiya və minimum əməkhaqlarının artırılması prosesi bu il də davam etdiriləcək. Yəni son illərin təcrübəsi onu göstərir ki, bu, bir dəfə atılan addım deyil, bu, müntəzəm olaraq atılan addımlardır və iqtisadi imkanlarımız artdıqca, əlbəttə ki, gələcəkdə də buna oxşar addımlar atılacaq. Prezident bu il Azərbaycanda orta aylıq əməkhaqqının 900 manatdan çox olacağının gözlənildiyini də bildirdi. Bütün bunlar İlham Əliyevin yürütdüyü siyasətin mərkəzində insan amilinin dayandığını bir daha isbatlayır.

### Bu il şəhid ailələrinə ən azı 1500 mənzil veriləcək

Ölkəmizdə bir istiqamət də şəhid ailələri və müharibə əlillərinə dəstək verməkdir. Keçən il bu sahədə də önəmli addımlar atılıb, bu kateqoriyadan olan 1500 ailəyə dövlət tərəfindən mənzil verilib. 2021-ci ildə isə 3 min mənzil təqdim edilib. Bu il də ən azı 1500 mənzil veriləcək. Beləliklə, hələ növbədə duran bu kateqoriyadan olan insanların hamısına dövlət tərəfindən mənzillər veriləcək.

Prezident yerli televiziya kanallarına müsahibəsində vurğuladı ki, bu günə qədər 13 min ailə bu imkanlardan faydalanıb. Bu da müharibə yaşamış ölkələr arasında, belə demək mümkündürsə, Azərbaycanın yeniliyidir. Çünki bir çox ölkələrdə belə praktika yoxdur: "Biz bunu nə üçün edirik? Çünki bu o ailələr qarşısında bizim mənəvi borcumuzdur və bu borcu imkan daxilində yerinə yetirməyə çalışırıq".

Dövlət başçısı İkinci Qarabağ müharibəsində əlil olmuş 379 hərbçinin ən müasir protezlərlə təmin edildiyini də söylədi. Dedi ki, cəmi iki il keçməsinə baxmayaraq, İkinci Qarabağ müharibəsinə aid olan bu proqram tam yerinə yetirilib. Bu proqramın icrası mətbuatda da işıqlandırılıb. Hər kəs görə bilir ki, bizim qazilərimiz hətta futbol oynaya bilirlər. Əl protezləri daha mürəkkəb texnologiyaya malikdir. Mənə verilən məlumata görə, ən müasir texnologiyadan olan əl protezlərinin əltutma funksiyası təqribən 40-a çatır. Yəni dövlət öz sağlamlığını itirmiş soydaşlarımıza maksimum dərəcədə kömək göstərməyə çalışır.

### Zəngəzur dəhlizinin iqtisadi səmərəsi heç kimdə şübhə doğurmamalıdır

Ötən il Azərbaycan nəqliyyat, tranzit və logistika potensialını yüksəltdi. Uzun illər bu sahəyə investisiya yatıran ölkə kimi Azərbaycan təbii ki, bu yeni reallıqlardan yararlanmalı idi. Prezident də bildirdi ki, Azərbaycan ərazisində həm Orta dəhlizlə bağlı, həm "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə bağlı bütün əsas işlər yekunlaşıb. Sadəcə olaraq, indi dəmir yolunun bir hissəsi modernləşdirilir, xüsusilə Bakı-Yalama xətti və ondan sonra Ələt-Astara xətti yenilənir. Çünki indiki vəziyyətdə dəmir yolunun imkanları gözlənilən yüklərin həcmi üçün məhduddur. Əgər bu yeniliklər reallaşsa, təkcə "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə Azərbaycan ərazisindən mərhələli qaydada 15 milyon tondan 30 milyon tona qədər yük daşına bilər: "Hazırda Azərbaycanın bütün tranzit imkanları bunun kiçik bir faizini təşkil edir. Ona görə "Şimal-Cənub" nəqliyyat dəhlizi Orta dəhlizlə rəqabət apara biləcək layihədir. Nəzərə alsaq ki, Rusiya-Ukrayna müharibəsinin başlanmasından sonra, siz də qeyd etdiyiniz kimi, bu, Rusiya üçün əsas prioritet məsələlərdən birinə çevrilib".

Orta dəhlizə gəldikdə isə, İlham Əliyev bu istiqamətdə də ardıcıl siyasət aparıldığını vurğuladı. Çünki Orta Asiyadan gedən yüklər üçün də yeni yollar olmalıdır. Xəzər üzərindən keçən yol vaxt baxımından çox cəlbedicidir. Eyni zamanda müştərək tarif siyasətinin həyata keçirilməsi ilə bu yol iqtisadi cəhətdən daha cəlbedici edilməlidir: "Hesab edirəm ki, burada da danışıqlar müsbət istiqamətdə gedir. Yəni təkcə Orta Asiya ölkələrinin yükgöndərmə potensialını və oraya Avropa istiqamətindən gedən yükləri nəzərə alsaq görərik ki, hətta biz bütün bu layihələri icra etsək və genişləndirsək, yenə də çatmayacaq. Ona görə Zəngəzur dəhlizinin iqtisadi səmərəsi heç kimdə şübhə doğurmamalıdır. Əlbəttə, bizim üçün bu layihə təkcə iqtisadi və nəqliyyat layihəsi deyil, bu bizim üçün strateji bir layihədir. Tam əminik ki, bu layihənin reallaşması bizim təbii hüququmuzdur. Ondan əlavə, bu layihənin reallaşması eyni zamanda 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatda da öz əksini tapıb. Düzdür, orada "Zəngəzur dəhlizi" sözü yoxdur. Çünki "Zəngəzur dəhlizi" terminini mən ondan sonra, necə deyərlər, geosiyasi leksikona daxil etdim. Ancaq orada açıq-aydın göstərilir ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısı olmalıdır və Ermənistan bunu təmin etməlidir".

İndi Ermənistan bundan boyun qaçırmaq istəyir. Faktiki olaraq üzərinə götürdüyü öhdəlikləri iki ildən çoxdur ki, yerinə yetirmir. Ancaq bu, Azərbaycanı dayandırmayacaq. Yəni Azərbaycan üçün bu layihə strateji layihədir.

### Bu il Şuşada, Ağdamda, Füzulidə məktəblər, xəstəxanalar hazır olacaq

Ötən ilin uğurlarını dəyərləndirdikdən sonra Prezident bir daha vurğuladı ki, 2023-cü il Azərbaycan üçün düşərli olacaq. Dövlət başçısı ümid edir ki, 2023-cü il İkinci Qarabağ müharibəsinin real sonu olacaq və bu il arzuolunmaz hadisələr baş verməyəcək: "Mən yenə də deyirəm, əgər görsək ki, bizə qarşı hər hansı bir təhlükə varsa və Ermənistan öz havadarları ilə bizə qarşı hansısa təxribat planlaşdırırsa, biz dərhal əlimizdə olan bütün imkanlarla bu təhlükəni aradan götürəcəyik və bəri başdan onları və onların arxasında dayananları da xəbərdar edirik".

İlham Əliyev bu il də dövlətin əsas diqqət mərkəzinin, yəni əsas xərclər istiqamətinin Qarabağ və Şərqi Zəngəzurun bərpa prosesi olacağını söylədi. Əsas məsələ yenə də işğaldan azad edilmiş yurd yerlərimizin bərpası və ordu potensialımızı gücləndirməkdir. Bu iki əsas prioritet dövlət üçün uzun illər prioritet kimi qalacaq: "2023-cü il artıq Böyük qayıdışın ilk addımlarından biri olacaq. Əlbəttə, Ağalı kəndi birinci addım idi. Amma biz bu il bunu, inşallah, daha kütləvi surətdə görəcəyik. Bununla paralel olaraq, Şuşada, Ağdamda, Füzulidə məktəblər, xəstəxanalar hazır olacaq".

Bir sözlə, Prezident qarşıda duran hədəfləri müəyyənləşdirməklə yeni inkişafın yol xəritəsini təqdim etdi. Bildirdi ki, çox genişmiqyaslı planlarımız var və necə deyərlər, Allah nəsib edərsə, onların hamısı uğurla icra ediləcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın və Türkiyənin xarici işlər nazirləri arasında telefon danışığı olub

Yanvarın 11-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər Azərbaycanla Türkiyə arasında ikitərəfli və regional əməkdaşlıq gündəliyinin aktual məsələlərini müzakirə ediblər. Həmçinin çoxtərəfli platformalarda əməkdaşlıq, habelə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ceyhun Bayramov ABŞ dövlət katibinin köməkçisi ilə Laçın-Xankəndi yolundakı vəziyyəti müzakirə edib

Yanvarın 10-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Amerika Birləşmiş Ştatları dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid ilə telefon danışığı baş tutub.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, danışıq zamanı tərəflər iki ölkə arasında əməkdaşlıq gündəliyini və bölgədə cari vəziyyəti müzakirə ediblər.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması ilə bağlı Azərbaycan tərəfinin bir sıra konstruktiv təşəbbüslərinə baxmayaraq, Ermənistan tərəfindən prosesə davamlı əsasda müxtəlif təxribatlarla maneçilik törədildiyini diqqətə çatdırıb. Bu xüsusda Ermənistan tərəfindən 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanat üzrə öhdəliklərin kobud şəkildə pozulmasına, Laçın yolundan hərbi təxribatlar, o cümlədən minaların qanunsuz daşınması və yerləşdirilməsi, qeyri-qanuni iqtisadi fəaliyyət və təbii sərvətlərin talanması, üçüncü ölkə vətəndaşlarının qanunsuz keçidi məqsədilə istifadə olunması kimi faktlara vurğu edilib.

Ərazilərimizin 30 ilə yaxın davam etmiş işğalı zamanı və son dövrlər intensivləşmiş qeyri-qanuni fəaliyyətlərə qarşı Azərbaycan vətəndaş cəmiyyətinin Laçın yolunda etiraz aksiyasının haqlı tələblərinin hələ də yerinə yetirilmədiyi qeyd olunub.

Nazir Ceyhun Bayramov, guya, Laçın yolunun Azərbaycan tərəfindən bağlanması nəticəsində erməni sakinlərin "blokada"ya alınması, bölgədə "humanitar fəlakət" yaranması barədə iddiaların tamamilə əsassız olduğunu bildirib. Gündəlik əsasda çox sayda Beynəlxalq Qızıl Xaç Komitəsi, Rusiya sülhməramlı kontingenti və digər humanitar məqsədli nəqliyyat vasitələrinin yoldan istifadə etdiyi barədə məlumat verilib.

Erməni sakinlərin yoldan istifadə etməklə sərbəst hərəkətinə heç bir maneə olmadığı, ehtiyac olacağı təqdirdə ermənilərə yardım göstərmək niyyətləri barədə Azərbaycan tərəfinin bəyanatlarına baxmayaraq, yerli ermənilərin rəhbərləri kimi özlərini təqdim edən şəxslərin əhalinin yoldan istifadəsinə qarşı olması faktları diqqətə çatdırılıb.

Azərbaycan tərəfinin dialoqa sadiqliyi və bölgədə sülhün bərqərar olması istiqamətində səyləri artırmağa daim hazır olduğu vurğulanıb.

Tərəflər habelə qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Səudiyyəli parlamentari Ermənistanın təcavüzkar siyasəti barədə məlumatlandırılıb

Yanvarın 11-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Səudiyyə Ərəbistanının Şura Məclisində Azərbaycanla parlamentlərarası dostluq qrupunun sədri Faiz Bin Abdulla Əl-Şəhri arasında görüş keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı nazir Ceyhun Bayramov ölkələrimiz arasında tarix, mədəniyyət, din baxımından çoxlu ortaq cəhətlərin olduğunu vurğulayıb. Diplomatik əlaqələrin qurulmasından keçən 30 il ərzində əlaqələrimizin müsbət dinamika ilə inkişaf etdiyi və bu gün ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olmasından məmnunluq ifadə olunub.

Bu illər ərzində həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə, o cümlədən BMT və onun ixtisaslaşmış qurumları, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı və digər beynəlxalq platformalarda göstərilən qarşılıqlı dəstək yüksək qiymətləndirilib. Həmçinin ötən ilin dekabrında Bakıda iki ölkə arasında İqtisadi Əməkdaşlıq Komissiyasının iclasının uğurla keçirildiyi qeyd olunub.

Görüşdə həmçinin iki ölkə arasında alternativ enerji resurslarının inkişafı, turizm və digər istiqamətlərdə əməkdaşlığın əhəmiyyəti vurğulanıb. Görüş zamanı nazir Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti, ölkəmizin ərazilərinin 30 ilə yaxın Ermənistan tərəfindən işğalı barədə qarşı tərəfə məlumat verib. Bu xüsusda Səudiyyə Ərəbistanının 30 il ərzində ölkəmizə dəstəyi məmnunluqla vurğulanıb. Həmçinin Azərbaycanın Ermənistanla sülh sazişinin imzalanması istiqamətində atdığı addımlar və təşəbbüslər, habelə işğaldan azad olunmuş ərazilərimizdə bərpa-quruculuq işləri və həyata keçirilən layihələr barədə qarşı tərəf məlumatlandırılıb.

Görüşdə Laçın yolunda azərbaycanlı fəalların etirazlarının səbəbləri qarşı tərəfin diqqətinə çatdırılıb. Bundan əlavə, son 2 ildə Ermənistanın çoxsaylı təxribatları, o cümlədən erməni silahlı qüvvələrinin ərazilərimizdən tam çıxarılmaması, Laçın yolundan qeyri-qanuni fəaliyyətlər və mina təhdidlərinin davam etməsi üçün istifadə edilməsi barədə məlumat təqdim edilib.

Faiz Bin Abdulla Əl-Şəhri ölkələrimiz arasında bir sıra istiqamətlərdə əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək, belə əməkdaşlığın gələcəkdə daha da genişlənməsinə ümidvar olduğunu bildirib.

Görüş zamanı digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının ötən ildəki xidməti-döyüş fəaliyyətinə yekun vurulub

Yanvarın 11-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının 2022-ci ildəki xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müşavirəni giriş sözü ilə açan general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilən inkişaf və tərəqqi strategiyası nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının, beynəlxalq mövqelərinin əhəmiyyətli dərəcədə möhkəmləndiyini bildirib. Dövlət başçısının ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatının, hərbi qulluqçuların iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

DİN-in Daxili Qoşunlarının ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində göstərdiyi şücaəti, respublikamızın hər yerində, o cümlədən işğaldan azad edilmiş şəhər və rayonlarda hərbi qulluqçuların polis əməkdaşları ilə birlikdə ictimai asayişin, təhlükəsizliyin qorunmasında göstərdiyi xidmətlərini Prezidentin yüksək qiymətləndirdiyini məmnunluqla qeyd edən nazir vurğulayıb ki, bu ali diqqət və qayğı hərbi qulluqçulardan və polis əməkdaşlarından xidməti vəzifələrini daha böyük məsuliyyətlə yerinə yetirməyi tələb edir.

Sonra daxili işlər nazirinin müavini - Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov xidməti döyüş fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış edib.

Müşavirəyə yekun vuran nazir V.Eyvazov qoşunların qarşısında duran vəzifələri qeyd edib, tapşırıq və tövsiyələrini verib. Eyni zamanda nazir əmin olduğunu bildirib ki, şəxsi heyət onlara göstərilən diqqət və qayğıya sabitliyin, əmin-amanlığın etibarlı qorunması, cinayətkarlıqla qətiyyətli mübarizə, eləcə də işğaldan azad edilmiş ərazilərdə nümunəvi xidmətləri ilə cavab verəcək, qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək.

# Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc hüquqşünaslar and içiblər

Yanvarın 11-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc hüquqşünasların andiçmə mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc əməkdaşlar öncə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül qoyublar. Bundan sonra, Şəhidlər xiyabanına gələn gənc hüquqşünaslar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad ediblər.

Tədbirdən əvvəl Baş Prokurorluğun rəhbərliyi Ulu Öndər Heydər Əliyevin qurumun inzibati binasındakı büstü önünə əklil və gül dəstələri qoyub, unudulmaz xatirəsini ehtiramla yad ediblər.

Mərasimdə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib, qazilərə şəfa arzulanıb. Tədbirdə çıxış edən baş prokuror Kamran Əliyev builki müsabiqənin nəticələrinə əsasən uğur qazanmış gənclərin andiçmə mərasiminin çox əlamətdar ildə - müasir Azərbaycanın xilaskarı və qurucusu, müstəqil dövlətimizin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinə təsadüf etməsini xüsusi qeyd edib.

Həmçinin hələ ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycanın böyük oğlu Heydər Əliyevin fədakar xidmətləri nəticəsində respublikamızda həyata keçirilmiş genişmiqyaslı proqramların müasir iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək müstəqilliyimizin təmin olunması üçün zəmin hazırlaması, SSRİ-nin süqutundan sonra müstəqilliyimizin ilk illərindəki hərc-mərclik və xalqımızın maraqlarına zidd siyasət, iqtisadiyyatın zəiflədilməsi və milli sərvətlərin talan edilməsi dərin siyasi və iqtisadi-sosial böhranla nəticələnməsi barədə məlumat verilib, ölkənin belə ağır dövründə xalqın təkidli tələbi ilə hakimiyyətə gələn görkəmli dövlət xadimi Heydər Əliyevin əsasını qoyduğu yeni siyasi kursun vətəndaş müharibəsi təhlükəsini aradan qaldırması və separatçılıq meyillərinə son qoymaqla, hərtərəfli dövlət quruculuğu prosesinin gerçəkləşməsinə gətirib çıxarması tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Diqqətə çatdırılıb ki, prokurorluq orqanlarına qulluğa qəbulla bağlı 2022-ci ildə keçirilmiş 24-cü müsabiqədə namizədlərin dünyagörüşünə, məntiqi düşünmə qabiliyyətinə, xarici dil biliklərinə, prokurorluqda işləmək üçün zəruri olan digər şəxsi keyfiyyətlərə malik olmaları, o cümlədən prokurorluqda qulluq keçmək arzuları və prokurorluq orqanlarında mövcud olan vakant ştat vahidləri nəzərə alınmaqla 57 gənc hüquqşünas qulluğa qəbul edilib.

Prokurorluqda qulluğa yeni qəbul olunmuş gənclərdən Xanım Əşrəfova, Pünhan Eyvazov və Vətən müharibəsi iştirakçısı Əliəkbər Babayev çıxış edərək gənc mütəxəssislərin dövlət idarəçiliyində, ictimai həyatın bütün sahələrində iştirakına verilən dəstəyə görə dövlət başçısına minnətdarlıqlarını bildirib və onlara göstərilən yüksək etimadı doğruldacaqlarına söz veriblər.



# Heydər Əliyev İli 2023

# Heydər Əliyev dövlətçilik

## AMEA və "Azərbaycan" qəzetinin birgə təşkilatçılığı ilə keçirilən elmi konfrans

**2023-cü ilin respublikamızda "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin Böyük zalında AMEA və "Azərbaycan" qəzetinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev dövlətçilik idealları və müasir dövr" mövzusunda elmi konfrans keçirilib.**

**Konfrans iştirakçıları əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin AMEA-dakı büstü önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad ediblər. Daha sonra tədbir iştirakçıları Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən kitab sərgisi ilə tanış olublar.**





*Elmi konfransda giriş nitqi ilə çıxış edən* ***Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik, Milli Məclisin deputatı İsa HƏBİBBƏYLİ*** *qeyd etdi ki, rəsmi dövlət qəzeti olan "Azərbaycan"la birgə keçirilən "Heydər Əliyev dövlətçilik idealları və müasir dövr" mövzusunda elmi konfransla Milli Elmlər Akademiyası "Heydər Əliyev İli"nə start verir:*

- Artıq ilk ongünlüyünü yaşadığımız 2023-cü il Azərbaycanın çoxəsrlik tarixinə "Heydər Əliyev İli" kimi daxil olur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli sərəncamı ilə 2023-cü ili "Heydər Əliyev İli" kimi elan etməsi ölkəmizin çoxəsrlik tarixinin bu qeyri-adi təqvim ilini də əbədiləşdirmişdir. Bundan əvvəlki illərdə Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə Azərbaycanda böyük uğurla keçirilmiş Nizami Gəncəvi və İmadəddin Nəsimi illəri müstəqil ölkəmizdə milli şüurun, ədəbi-elmi təfəkkürün, milli-mənəvi özünüdərk proseslərinin dərinləşməsinə və genişləndirilməsinə uğurla xidmət etmişdir. Prezident İlham Əliyevin sərəncamı əsasında 2023-cü ilin "Heydər Əliyev İli" kimi keçirilməsi respublikamızda müstəqil dövlətçilik düşüncəsinin, azərbaycançılıq ideallarının, vətənpərvərlik tərbiyəsinin daha da möhkəmləndirilməsinə özünün sanballı töhfələrini verəcəkdir.

Hamıya yaxşı məlumdur ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev dünyada görkəmli dövlət xadimlərindən biri kimi qəbul olunur. Dünyanın məşhur şəxsiyyətləri, böyük siyasətçiləri Ulu Öndər Heydər Əliyevin dövlətçilik sahəsindəki müstəsna istedadını və böyük siyasətdəki xüsusi məharətini yüksək qiymətləndirmişlər. Amerikanın keçmiş Prezidenti Bill Klintonun Heydər Əliyevə "dünyanı idarə etməyi bacaran görkəmli bir siyasi xadim" kimi yüksək qiymət verməsi, Türkiyə Cümhuriyyətinin keçmiş prezidenti Süleyman Dəmirəlin bu böyük dövlət xadiminin "bütün türk dünyasının yetişdirdiyi ən məşhur dövlət xadimlərindən biri" olduğunu bəyan etməsi bunun əyani sübutudur.

Heydər Əliyev yeni tarixi epoxada Azərbaycanın dövlət müstəqilliyinin banisi, qüdrətli xilaskarı və böyük qurucusu olan tarixi şəxsiyyətdir.

Heydər Əliyev - azərbaycançılıq idealının rəmzidir.

Heydər Əliyev - Azərbaycan xalqının Ümummilli Lideridir.

Heydər Əliyev dünya tarixinin gedişatına təsir göstərməyi və tarixi yenidən qurub-yaratmağı bacaran nadir dövlət xadimlərindən biridir.

Heydər Əliyevin uzaqgörən dövlətçilik idealları bu gün də müstəqil Azərbaycan Respublikasının inkişaf yoluna gur işıq salır, bələdçilik edir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və müstəqil Azərbaycan dövləti qarşısında müstəsna dərəcədə böyük xidmətləri vardır. Belə ki, görkəmli dövlət xadimi Heydər Əliyevin 1969-cu ildə siyasi hakimiyyətə gəlməsi ilə Azərbaycan geridə qalmış aqrar ölkədən hərtərəfli surətdə inkişaf etmiş bir respublikaya çevrilmişdir. Siyasi Büronun üzvü kimi çoxcəhətli fəaliyyəti onun keçmiş sosialist ölkələri düşərgəsində və müttəfiq respublikalarda, hətta Sovetlər İttifaqından kənardakı kapitalist dövlətlərində də əsl dövlət xadimi olaraq qəbul edilməsinə yol açmışdır. Ən yaxın tariximizdə, XX əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycanın dövlət müstəqilliyinin itirilməsi təhlükəsi də Heydər Əliyevin qətiyyəti, ən optimal çıxış yollarını tapmaq və düzgün müəyyən edilmiş strategiyanı böyük bacarıqla həyata keçirmək istedadı sayəsində aradan qaldırılmışdır. Ulu Öndər Azərbaycanda dövlət müstəqilliyinin möhkəm təməllərini yaratmaqla ölkəmizin və xalqımızın böyük gələcəyinin yollarını açmışdır.

Bütün bunlara görə 2023-cü ilin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Heydər Əliyev İli" elan olunması ilk növbədə bu böyük dövlət xadiminin dünya siyasətindəki, habelə Azərbaycan xalqının tarixində və taleyindəki xidmətlərinin dünyaya və xalqımıza çatdırılmasına geniş imkan yaradılmasına uğurla xidmət edir. Bu mənada "Heydər Əliyev İli" haqqında Azərbaycan Prezidentinin Sərəncamı tarixin axarını dəyişdirmiş bu dahi şəxsiyyətin dünya tarixindəki yerinə və mövqeyinə, Azərbaycan xalqı və müstəqil dövlətimiz qarşısındakı misilsiz xidmətlərinə dövlət səviyyəsində verilmiş yüksək qiymətin əməli ifadəsidir. "Heydər Əliyev İli" haqqında Prezident sərəncamındakı aşağıdakı fikirlər bu görkəmli dövlət xadiminin unudulmaz xidmətlərini obyektiv şəkildə ifadə edir: "Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin mənəvi dəyərlərinin tanıdılmasında və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli yer qazanmasında müstəsna rol oynamışdır… Dövlətçilik salnaməsində silinməz izlər qoymuş, azərbaycanlı olması ilə fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqındakı 29 sentyabr 2022-cü il tarixli sərəncamı "Heydər Əliyev İli"nin həm nəzəri-metodoloji mahiyyətini, həm də əməli-praktik istiqamətlərini aydın surətdə əks etdirir. Bu baxımdan 2023-cü ilin Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan edilməsi haqqında Prezident sərəncamı "Heydər Əliyev İli"nin gerçək və əhəmiyyətli bir proqramıdır. "Heydər Əliyev İli"nin əsas siyasi-ideoloji konturlarını tam şəkildə əhatə edən sərəncam qarşıdakı dövrdə həyata keçirilməsi zəruri olan tədbirlərin əsl mahiyyətini real şəkildə əks etdirir. Ona görə də mükəmməl şəkildə hazırlanmış dövlət sərəncamını "Heydər Əliyev İli"nin aydın yol xəritəsi də adlandırmaq olar.

"Heydər Əliyev İli" görkəmli dövlət xadiminin keşməkeşli və mənalı həyatı, çoxcəhətli dövlətçilik istedadı, mübarizəsi və idealları ilə əlaqədar məsələlərə yenidən və daha əsaslı şəkildə baxılması zərurətini meydana qoyur. Məlum olduğu kimi, Azərbaycan dövləti və xalqımız 1969-cu ildən başlayaraq, 54 ildir ki, Heydər Əliyev epoxasında qurub-yaradır və ölkəmiz Ulu Öndərin dövlətçilik ideallarının işığında ardıcıl olaraq hərtərəfli şəkildə inkişaf edir. Bu tarixi epoxanın ayrı-ayrı mərhələlərdəki parlaq hadisələri və nailiyyətləri Heydər Əliyevin ölməz adı, böyük ideyaları və mübarizəsi ilə üzvi surətdə əlaqədardır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi 20 il ərzində həm beynəlxalq miqyasda, həm də respublikamızda qazandığı tarixi zəfərlərlə, həyata keçirdiyi möhtəşəm proqramlarla Heydər Əliyev epoxasını daha da zənginləşdirməyə və Azərbaycan tarixinin yeni bir epoxasını yaratmağa nail olmuşdur.

Bundan başqa, görkəmli dövlət xadimi Heydər Əliyev dünya dövlətçilik tarixində Ümummilli Lider fəxri adı qazanmış nadir tarixi şəxsiyyətlərdəndir. "Heydər Əliyev İli"ndə Ümummilli Liderliyin siyasi-fəlsəfi miqyası və missiyasının mahiyyəti dərindən və hərtərəfli surətdə tədqiq edilərək araşdırılmalı, ümumiləşdirilmiş elmi-nəzəri qənaətlər meydana qoyulmalıdır. Ümummilli Liderlik fəlsəfəsinin konseptual əsaslarının müəyyən edilməsi və görkəmli dövlət xadimi Heydər Əliyevin nümunəsində konkret bir parlaq nümunənin meydana qoyulması Azərbaycan humanitar və ictimai elmlərinin şərəfli borcu və məsul vəzifəsidir.

Heydər Əliyevin adı ilə bağlı olan azərbaycançılıq təliminə də yenidən və daha əsaslı şəkildə elmi baxışa ehtiyac vardır. Məlum olduğu kimi, uzaqgörən dövlət xadimi Heydər Əliyev azərbaycançılıq təliminin təməllərini hələ sovet hakimiyyəti illərində respublikamıza rəhbərlik etdiyi dövrdə formalaşdırmışdır. Bu mənada yeni dövlət müstəqilliyi qazanmış digər respublikalarla müqayisədə dövlətçilik ideologiyasının yenidən müəyyən edilməsi baxımından Azərbaycan Respublikası bir addım qabaqda olmuşdur. Ona görə də azərbaycançılıq ideologiyasının formalaşdırılmasının Heydər Əliyev modeli kompleks şəkildə öyrənilməli, ümumiləşdirilmiş əsaslı nəticələr çıxarılmalıdır.

"Heydər Əliyev İli" müstəqil Azərbaycan dövlətinin nailiyyətlərinin təbliğ edilməsi baxımından geniş meydan açır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müstəqil dövlətimizə rəhbərlik etdiyi 20 il ərzində ölkəmiz bütün istiqamətlər üzrə hərtərəfli şəkildə inkişaf edərək böyük dövlətlərin cərgəsinə qoşulmuşdur. Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"u ilə 30 illik işğaldan sonra Qarabağın düşməndən azad edilməsi və ölkəmizdə Böyük qayıdış hərəkatının uğurla həyata keçirilməsi Azərbaycanın çoxəsrlik tarixinə nadir tarixi hadisə kimi daxil olmuşdur.

Möhtərəm Prezident İlham Əliyevin Qərbi Azərbaycana Qayıdış konsepsiyasının hazırlanmasına dair çağırışları XXI əsrdə Azərbaycan xalqının tarixi-coğrafi və milli-mənəvi bütövlüyə dönüşünün dərk olunmuş əhəmiyyətli bir paroludur. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında həmin mötəbər beynəlxalq qurumun şurasına sədrlik etdiyi vaxtda Fransanın təcavüzkar Ermənistanla əlaqədar məkrli planlarının həyata keçirilməsinə imkan verilməməsi Prezident İlham Əliyevin dünya liderlərindən biri olduğunu qəti şəkildə isbat edir. Hesab edirik ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə mümkün ola biləcək ən yaxın dövrdə Ermənistanla sülh sazişinin imzalanması və Zəngəzur-Laçın dəhlizlərinin açılması sahəsində həlledici addımların atılması da "Heydər Əliyev İli"nə möhtəşəm töhfələr olacaqdır.

"Heydər Əliyev İli" peşəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının Ulu Öndərin müqəddəs mənəvi varlığı və müstəqil dövlətçiliyimiz qarşısında hesabat ili olacaqdır. Azərbaycan Milli Elmlər Akademiyasında keçirilməsi nəzərdə tutulan beynəlxalq və respublika miqyaslı elmi konfranslar, hazırlanıb nəşr edilməsi nəzərdə tutulan çoxsaylı monoqrafik tədqiqatlar alimlərimizin "Heydər Əliyev İli"nə hesabatlarında əsas yer tutan əhəmiyyətli addımlardır.

Haqqında çox yazılmasına baxmayaraq, görkəmli dövlət xadimi Heydər Əliyevin dünya dövlətçilik tarixində və Azərbaycan xalqının milli intibahındakı yeri və rolunu real şəkildə əks etdirən fundamental və sistemli elmi əsərlərə, habelə müxtəlif janrlarda parlaq ədəbiyyat və incəsənət əsərlərinin yaradılmasına da ehtiyac vardır. Fikrimizcə, akademiya alimlərinin iştirakı ilə Heydər Əliyevin elmi bioqrafiyasını yaratmaq, "Heydər Əliyev ensiklopediyası"nı hazırlayıb nəşr etdirmək də qarşıda duran mühüm vəzifələrdəndir.

"Heydər Əliyev İli" - Ulu Öndərin xatirəsinin əbədiləşdirilməsi sahəsində yeni təşəbbüslər ili olacaqdır. Fikrimizcə, işğaldan azad edilmiş Şuşa şəhərində görkəmli dövlət xadimi Heydər Əliyevin heykəlinin ucaldılması xalqımızın üreyindən olardı.

Söz yox ki, Azərbaycan elmi-intellektual qüvvələri, yaradıcı ziyalılarımız və alimlərimiz "Heydər Əliyev İli"nin çağırışlarına özlərinin parlaq elmi və bədii əsərləri ilə cavab verəcəklər. Bu mənada "Heydər Əliyev İli" ədəbiyyat və incəsənətin, humanitar və ictimai elmlərin inkişafı sahəsində geniş üfüqlər açır. Azərbaycan Milli Elmlər Akademiyasında Ümummilli Liderimiz Heydər Əliyevin ömür və mübarizə yolunun ibrətamiz dərslərinin, müstəqil dövlətçilik və azərbaycançılıq ideallarının daha dərindən və əsaslı şəkildə tədqiq olunub öyrənilməsi, xalqımıza və dünyaya çatdırılması üçün bütün imkanlar səfərbər olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası "Azərbaycan" qəzeti ilə birlikdə "Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr" mövzusunda keçirdiyi elmi konfransla akademiyada "Heydər Əliyev İli"nə start verir.

"Heydər Əliyev İli" xalqımız, dövlətimiz, alimlərimiz, ziyalılarımız, mətbuatımız üçün uğurlu olsun!

*"Heydər Əliyev və mətbuat siyasəti" mövzusunda çıxış edən* ***"Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar SADIQOV*** *Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyevin nadir şəxsiyyətlərdən olduğunu bildirdi:*

- Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyev qeyri-adi zəka sahibi və təşkilatçılıq bacarığına malik bir şəxsiyyət idi. Təsadüfi deyil ki, Ulu Öndər hələ sovet illərində Azərbaycanı geridə qalmış respublikadan ittifaqın qabaqcılları sırasına çıxarmışdı. Onun keçmiş SSRİ-nin ali rəhbərliyində 30-a yaxın sahəyə məharətlə və yüksək peşəkarlıqla rəhbərlik etməsi, bu gün də MDB məkanında hörmətlə etiraf edilir.

İdeoloji işin də ustası, mahir bilicisi olan Heydər Əliyev xalqı milli məqsədlərə doğru yönəltmək, öz sözünü, ideyalarını, fikirlərini insanlara çatdırmaq üçün daim mətbuata böyük önəm verirdi. Ulu Öndərin hələ "Literaturnaya qazeta"nın 18 noyabr 1981-ci il tarixli nömrəsində dərc olunmuş "Qoy ədalət zəfər çalsın" başlıqlı müsahibəsi ilə bütün SSRİ onun qətiyyətinin, müdrikliyinin, ədalət uğrunda necə mübarizə aparmasının şahidi olmuşdu. O dövr üçün aydın səmadan şimşək kimi çaxan həmin müsahibə həm də qarşıya qoyulan vəzifələrin, Ulu Öndərin gördüyü və görəcəyi işlərin anonsu idi. Onun rəhbərliyi dövründə Azərbaycan qısa müddətdə SSRİ-nin qabaqcıl respublikalarından birinə çevrildi, insanların rifahı yüksəldi. Bütün bu işlərin görülməsində dahi rəhbər mətbuatdan bacarıqla istifadə etdi.

Ümummilli Lider Heydər Əliyev ölkəmizə ikinci rəhbərliyi dövründə də mətbuatla sıx bağlı idi. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə müstəqil milli mətbuatın yenidən formalaşması və təşəkkülü prosesi başladı. Bu çox ağır və çətin bir proses idi və həmin dövrdə bütövlükdə media sferasında hansı proseslərin yaşandığını, mətbuata olan hücumları, yeni senzuraların tətbiq olunmasını yaxşı xatırlayırıq.

Demokratiyanın ən mühüm əlamətlərindən biri kimi hüquqi-demokratik inkişaf yolunu tutan Azərbaycanda isə həqiqi söz və mətbuat azadlığının bərpası çox vacib idi. Ulu Öndər Heydər Əliyev bu mühüm cəhəti nəzərdə tutaraq deyirdi: "…Mətbuat Azərbaycan iqtidarı üçün çox önəmli bir sahədir, çox vacib bir sahədir. Biz demokratiya yolu ilə gedərək, söz azadlığını təmin edərək, bu yolda nöqsanları ardıcıl surətdə aradan qaldırmalıyıq və qaldıracağıq, mətbuata, söz azadlığına bütün imkanları yaradacağıq".

Müdrik dövlət rəhbəri bu vəzifənin tam və uğurla reallaşmasından ötrü bütün zəruri tədbirləri ardıcıllıqla həyata keçirdi. Aparılan islahatlar isə həm də mətbuatın sürətli inkişafına təkan vermiş oldu. Məsələn, özlərini demokrat adlandırsalar da, iqtidarda olduqları qısa dövrdə azad sözə münasibətdə böyük problemlər yaradan, mətbuata əlavə olaraq hərbi senzura nəzarəti qoyan, jurnalistləri döyüb təhqir edən AXC-Müsavat cütlüyü sonadək KİV-i dar çərçivədə saxlamışdı.

Şübhəsiz, möhkəm və müasir qanunvericilik bazası yaratmadan mətbuatın sərbəst fəaliyyətini və sürətli inkişafını da təmin etmək olmazdı. Xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra Ümummilli Lider Heydər Əliyev bu missiyanı layiqincə yerinə yetirdi. Baş müəllifi Heydər Əliyev olan müstəqil Azərbaycan dövlətinin yeni Konstitusiyasında ölkədə mətbuat və söz azadlığının mövcudluğu öz təsdiqini tapdı. Konstitusiyanın 50-ci maddəsində deyilir: "Kütləvi informasiyanın azadlığına təminat verilir".

"Jurnalistlik qeyri-adi, böyük zəhmət, xüsusi bilik tələb edən bir sənətdir. Azərbaycan dövləti jurnalistlərin əməyini daim yüksək qiymətləndirir, kütləvi informasiya vasitələrinin mövcud problemlərini həll etmək üçün əlindən gələni edir və bundan sonra da edəcəkdir" - deyən Ulu Öndər Heydər Əliyev 6 avqust 1998-ci il tarixli fərmanı ilə KİV-ə senzura nəzarətini də ləğv etdi. Bu, bəzilərinin güman etdiyi kimi xaos yaratmadı. Əksinə, vətəndaşlarla məhkəmə çəkişmələrinə düşən qəzetlər və jurnalistlər sözün məsuliyyətini dərk edib qiymətləndirməyi öyrəndilər. Bütövlükdə isə mətbuatın mövzu dairəsi daha da genişləndi, hadisələrə müdaxilə cəsarəti artdı. Bu gün hər bir qələm sahibi Azərbaycan mətbuatının senzura buxovundan qurtarmasını Ulu Öndər Heydər Əliyevin mətbuat azadlığının təminatı sahəsində ən böyük xidmətlərindən biri hesab edir.

Ulu Öndərin tövsiyəsi və iradəsi ilə kütləvi informasiya vasitələri haqqında yeni, daha təkmil bir qanun hazırlanaraq Milli Məclis tərəfindən qəbul edildi. Sonrakı dövrdə zamanın tələblərindən irəli gələn dəyişikliklər aparılaraq kütləvi informasiya vasitələrinin təsisindəki bütün maneə və əngəllər aradan qaldırıldı.

Beləliklə, yalnız Ümummilli Lider Heydər Əliyev xalqın arzusu və tələbi ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra ölkə düzgün məcraya düşərək inkişaf etməyə başladı. Mətbuatın inkişafına və sərbəstləşməsinə yönəlmiş hər konkret və inamlı addımı Ulu Öndər Heydər Əliyevin bütün sahələrdə cəsarətli və uzaqgörən reformator olduğunu da dəfələrlə təsdiq etdi.

Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi illərdə mətbuatla bağlı yaranmış bütün mübahisəli məsələlərdə həmişə mətbuatın mövqeyini müdafiə etmişdir. Məhz Heydər Əliyevin təşəbbüsü ilə mətbuat əlavə dəyər vergisindən azad olunmuş, sözün azadlığından sui-istifadə edərək cinayət törədən bəzi jurnalistlər alicənablıqla əfv edilərək, vaxtından qabaq azadlığa buraxılmışlar.

Ulu Öndər Heydər Əliyev Azərbaycan mətbuatının azadlığının və müstəqilliyinin hüquqi-mənəvi təminatçısı olmaqla yanaşı, onun maddi-texniki bazasının möhkəmlənməsi qayğısına da qalırdı. Bununla bağlı təkcə 2001-ci ildə iki dəfə xüsusi fərman imzalamışdı. "Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması haqqında" 20 iyul 2001-ci il tarixli Prezident fərmanında kütləvi informasiya vasitələri məhsullarının illik satışından redaksiyaların əldə etdikləri mənfəətdən ödədikləri vergidən azad edilmələri, habelə ölkəyə gətirilən qəzet kağızına tətbiq olunan gömrük idxal rüsumunun azaldılması barədə Nazirlər Kabinetinə müvafiq tapşırıq verilmiş və icra olunmuşdur. "Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında" 27 dekabr 2001-ci il tarixli fərmanda isə mətbuatın maddi-texniki və maliyyə bazasının gücləndirilməsi, söz, məlumat və fikir azadlığı üçün daha geniş imkanlar yaradılması məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuş, habelə qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarının ödənilməsi müddətinin uzadılması və onlara dövlət tərəfindən kredit verilməsi məsələləri öz həllini tapmışdır. Sonralar bu borclar bağışlanıldı.

Bu gün Azərbaycan jurnalisti üçün qapalı sahə, qadağan olunmuş mövzu yoxdur. O, hətta mütəmadi şəkildə ölkə Prezidenti ilə görüşə, istədiyi sualı ona ünvanlayıb cavab ala bilir. Bu, keçmişdə də belə olub, indi də belədir. Bu, Ulu Öndərdən qalan qaydadır. Ümummilli Lider Heydər Əliyev özü daim jurnalistlərlə görüşə can atır, buna şərait yaradırdı. Hər dəfə xarici səfərlərə yola düşəndə aeroportda kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşür, onların bütün suallarını cavablandırırdı. Uzunmüddətli uçuşlar zamanı yenə də jurnalistləri "darıxmağa qoymur", elə təyyarədə onlar üçün sual-cavab təşkil edirdi. Geri döndükdə də hökmən hava limanında jurnalistlərin qarşısına çıxır, səfərin gedişi və yekunları barədə müxtəlif suallara cavab verirdi. Müəyyən mədəni-kütləvi tədbirlərdən öncə, yaxud sonra da Heydər Əliyev kamera və qələm sahiblərinin "işləmələri"nə, "ürəklərini boşaltmaları"na imkan yaradırdı. Fəxrlə etiraf etməliyik ki, dünyanın heç bir yerində Ulu Öndər Heydər Əliyev qədər jurnalistlərlə sıx təmasda, sərbəst və mehribanlıq şəraitində fəaliyyət göstərən ikinci bir dövlət başçısı yox idi! Bu, Heydər Əliyevin şəxsiyyət kimi böyüklüyündən, daim "aşkarlıq işığı"nda işləməyə adət etməsindən, mətbuata və azad sözə hörmətindən irəli gəlirdi!

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN





# Heydər Əliyev İli 2023

# idealları və müasir dövr

Daha bir maraqlı məqam. Ümummilli Lider Heydər Əliyev jurnalistlərlə daimi və yaxın təmasda olmaqdan əlavə, dəfələrlə onları Prezident sarayında qəbul edərək bir neçə saat ərzində dinləmiş, mətbuatın problem və çətinliklərini araşdıraraq öyrənmiş, aradan qaldırılması üçün konkret və əməli tədbirlər görmüşdür. Hər iki görüşdən sonra Azərbaycan milli mətbuatında bir canlanma və irəliyə doğru sıçrayış nəzərə çarpmışdır. Ən nəhayət, milli mətbuatımızın inkişaf və problemlərinə belə yaxın diqqət və qayğının nəticəsi olaraq Ulu Öndər Heydər Əliyev 2002-ci ildə "Jurnalistlərin dostu" adına layiq görülmüşdür.

"Bizim ümumi məqsədimiz mətbuata daha çox azadlıq verməkdir. Söz azadlığını daha da geniş təmin etmək və Azərbaycanda demokratiyanı bütün sahələrdə inkişaf etdirməkdən ibarətdir. Bilin, bu, mənim səmimi sözlərimdir. Sözlər deyil, bu, mənim siyasətimin bir hissəsidir" deyən Heydər Əliyev ardıcıl və məqsədyönlü şəkildə gördüyü işlərlə verdiyi bu bəyanata daim sadiq qaldığını dəfələrlə sübut etmişdir.

Dahi rəhbər jurnalist əməyinə çox yüksək qiymət verib. "Jurnalist əməyi qeyri-adi əməkdir, olduqca böyük, zəhmətli əməkdir, çox səylər göstərilməsini, hətta cəsurluq, hünər, fədakarlıq tələb edən əməkdir, öz peşəsinə vurğunluq tələb edən əməkdir" - deyə Ulu Öndər bildirib. Ulu Öndərin bu sözlərini hər zaman fəxarət hissi ilə xatırlayırıq.

Qeyri-adi zəka, böyük dünyagörüşü və zəngin təcrübə sahibi olan Ulu Öndər Heydər Əliyev görüş və söhbətləri zamanı jurnalistləri öyrətməyə, vətənə və xalqa sədaqətli xidmət yollarını da göstərməyə çalışırdı. Daim tövsiyə edirdi ki, hər bir qəzet, teleradio kanalı və ya informasiya agentliyi öz fəaliyyətində Azərbaycan xalqının və dövlətinin milli maraqlarını qorumalı, ona hörmətlə yanaşmalıdır! Bəs milli mənafe nədir və o, mətbuatda necə gözlənilməlidir? Milli mənafe anlayışını aydınlaşdırmaq üçün müstəqil Azərbaycanın ideoloji konsepsiyasına müraciət etmək gərəkdir. Başlıca cizgiləri Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş ideoloji konsepsiyanın üç mühüm prinsipi mövcuddur. Birincisi, dövlətçilikdir. Azərbaycanın müstəqil dövlətçiliyini qoruyub saxlamaq, hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur. Milli vətənpərvərlik də dövlətçilik prinsipinin tərkib hissəsidir.

İkinci prinsip milli-mənəvi dəyərlərdir. Xalqın əsrlər boyu əldə etdiyi, qoruyub saxlayaraq bu günümüzə çatdırdığı milli-mənəvi dəyərlərə dilimiz, adət və ənənələrimiz, bütövlükdə milli mentalitetimiz daxildir.

Ən nəhayət, ümumbəşəri dəyərlərə hörmət hissi də Azərbaycanın milli mənafeyi ilə səsləşən məsələdir. Azərbaycanda hüquqi-demokratik, dünyəvi dövlət qurulub. Azərbaycan beynəlxalq müqavilə və konsepsiyalara qoşulub. İrqi, dini, milli ayrı-seçkiliyi qəbul etmir, müharibənin və zorakılıqların, insan haqlarının pozulmasının əleyhinə çıxır. Bütün bu üç prinsip və ondan irəli gələn vəzifələr ölkənin kütləvi informasiya vasitələrində nəzərə alınmalı, hər bir qələm sahibi tərəfindən gündəlik fəaliyyət normasına çevrilməlidir! Yalnız belə olan halda hər bir qələm sahibi vətənə və xalqa həqiqi xidmət göstərmiş olar!

Azərbaycanda söz və mətbuat azadlığının hansı səviyyədə təmin olunduğunu və necə sürətlə inkişaf etdiyini müəyyənləşdirməkdən ötrü mövcud vəziyyəti sadəcə olaraq müstəqilliyin ilk dövrləri ilə müqayisə etmək yetərlidir. Mətbuatın daxilində müəyyən problemlər olsa da, dövlətlə kütləvi informasiya vasitələri arasında heç bir problem yoxdur! Çünki Azərbaycanın indiki iqtidarı bu sahənin inkişafına daim diqqət və qayğı göstərir, kömək əlini uzadır.

Ölkəmizdə söz və mətbuat azadlığının təminatçısı jurnalistlərin yaxın dostu və hamisi möhtərəm Heydər Əliyev idi! İndi tam əminliklə söyləmək olar: Bu ənənə böyük və qüdrətli dövlət xadimi İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu isə o deməkdir ki, milli mətbuatımız həmişə inkişaf edəcək, çiçəklənəcək, ədalətli və obyektiv bir mətbuat kimi daim milli və dövləti maraqları qoruyaraq xalqın hörmət və məhəbbətini qazanacaqdır!






Bütün vətəndaşların, xüsusən də müxtəlif peşə sahiblərinin Heydər Əliyevə həm də məslək xidmətləri ilə bağlı borcları var. Həkimin, mühəndisin, müəllimin, elm xadiminin… hər birimizin normal fəaliyyət göstərməsi, peşəmizin rişxənd obyektindən cəmiyyət üçün gərəkli işə çevrilməsi üçün ancaq Ümummilli Liderimizə minnətdarıq. Bu kontekstdə biz jurnalistlərin də Heydər Əliyevə borcu, təşəkkürü hüdudsuzdur. Odur ki, 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi hər jurnalistin də ürəyincə olan siyasi hadisədir.

Ümumiyyətlə isə hər bir azərbaycanlı möhtərəm Prezident İlham Əliyevin bununla bağlı verdiyi sərəncamı razılıqla qarşılayır. Əslində, Azərbaycanda hər il "Heydər Əliyev İli" sayıla bilər! Çünki hər il Heydər Əliyevin memarı və qurucusu olduğu müasir Azərbaycan daha da inkişaf edərək irəliyə doğru yeni bir addım atır! Çünki Azərbaycan dönmədən Heydər Əliyev siyasi kursu ilə irəliləyərək yeni qələbələrə nail olur! Çünki hər il Heydər Əliyevin arzu və tövsiyələrinin həyata keçirilməsi sayəsində Azərbaycan iqtisadi və hərbi qüdrətini artırır, siyasi nüfuzunu yüksəldir, Azərbaycan xalqının sosial rifahı və həyat səviyyəsi daha da yüksəlir.

Elə bu uğurlar fonunda gerçək həyatda Heydər Əliyev hər gün xatırlanır, hər gün anılır. Heydər Əliyev daim bizimlədir, daim onun yaratdıqlarından bəhrələnir, qurduğu yeni Azərbaycanda yaşayır, müəyyən etdiyi siyasi kursla dönmədən irəliləyirik. Əminik ki, Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı olan möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə "Heydər Əliyev İli"ndə daha möhtəşəm uğurların şahidi olacağıq.

*"Azərbaycanda biologiya və aqrar elmlərin inkişafında Heydər Əliyevin rolu" mövzusunda çıxış edən* ***AMEA-nın vitse-prezidenti, akademik İradə HÜSEYNOVA*** *vurğuladı ki, 2023-cü təqvim ili Azərbaycan tarixində çox önəmli bir yer tutacaq, "Heydər Əliyev İli" çərçivəsində keçiriləcək hər bir tədbir xalqın yaddaşına mühüm hadisə kimi həkk olunacaqdır. Bu baxımdan konfransın da böyük əhəmiyyət kəsb etməsi şəksizdir:*

- Dünya tarixinin ən nüfuzlu dövlət başçılarının əldə etdikləri nailiyyətlərdə elmə və elm adamlarına verdikləri dəyərin, ən müxtəlif sahələr üzrə elmi biliklərdən istifadənin böyük rolu olmuşdur. Məhz uzaqgörən liderlər aydın şəkildə dərk etmişlər ki, elm dayanıqlı inkişafın əsas hərəkətverici qüvvəsidir, cəmiyyət həyatının heç bir sahəsi elmi biliklərin iştirakı olmadan tərəqqi edə bilməz.

Məlumdur ki, XX əsrdə tarixi bir yol keçmiş Azərbaycan elmi ən yüksək səviyyəsinə 1960-cı illərin sonlarından başlayaraq məhz belə bir liderin - milli və dövlətçilik tariximizin ən görkəmli siması, müstəqil Azərbaycan Respublikasının banisi, elmə hər zaman yüksək dəyər vermiş, elm adamlarına hamilik etmiş Ulu Öndər Heydər Əliyevin hərtərəfli dəstəyi ilə çatmışdır.

Ümummilli Liderin ölkəyə rəhbərlik etdiyi dövrdə Azərbaycan elminin intibahı bütün digər elmlər kimi, biologiya və aqrar elm sahələrini də əhatə etmişdir. Müasir biologiya və aqrar elmlərinin inkişafını isə digər sahələrin, xüsusən kimya, mexanika, informasiya texnologiyaları, fizika və riyaziyyatsız təsəvvür etmək mümkün deyildir. Böyük rəhbərlik və təşkilatçılıq bacarıqları, fitri istedadı, yüksək intellekti, dərin bilikləri və novatorluğu ilə nümunə olan Ulu Öndər Azərbaycan KP MK-nın Birinci katibi seçildiyi ilk günlərdən bu elm sahələrinin hər birinə xüsusi həssaslıqla yanaşmış, elmi müəssisələrin modernləşdirilməsi, maddi-texniki təminatı, kadr hazırlığı və s. bu kimi məsələlərlə şəxsən maraqlanmış, problemlərin həlli üçün siyasi iradə nümayiş etdirmişdir.

Məhz 1970-ci illərin əvvəllərindən başlayaraq Azərbaycan elmi SSRİ-də və dünyada kifayət qədər tanıdılmış, tədqiqat işlərinin səviyyəsi yüksəlmiş, istiqamətləri genişləndirilmiş, elmi müəssisələrdə çalışan hər kəs hərtərəfli qayğı ilə əhatə edilmişdir.

Ulu Öndər özünün uzunmüddətli siyasi kursunu müəyyənləşdirərkən böyük təbiətşünas alim akademik Həsən Əliyevin "Həyəcan təbili" əsərində qaldırdığı problemlərin həllinə, ölkənin ekoloji vəziyyətinin yaxşılaşdırılmasına, ətraf mühitin mühafizəsinə, təbii sərvətlərdən düzgün istifadə məsələlərinə də böyük diqqət yetirmişdir.

Təbiətin Azərbaycana verdiyi unikal imkanlardan və potensialdan da yalnız 1970-ci illərin əvvəllərindən, yəni Heydər Əliyevin respublikaya rəhbərlik etməyə başladığı illərdən etibarən daha geniş və səmərəli istifadə edilməyə başlanmış, canlı təbii ehtiyatların mühafizəsi və bərpası məsələləri ön plana çıxarılmışdır. Bu məqsədlərə nail olmaq üçün inkişafına ilk növbədə ehtiyac olan elmlər sırasında ekologiya, botanika və zoologiya elmlərini qeyd etmək lazımdır. O illərdə elmə ayrılan resursların artırılması, yeni imkanların yaradılması, kadrların düzgün yerləşdirilməsi sayəsində Azərbaycan SSR EA-nın Botanika və Zoologiya institutlarında bütün keçmiş ittifaq üçün əhəmiyyətli sayılan nailiyyətlər qazanılmışdır.

Alimlərimiz Ulu Öndərin çağırışlarına səs verərək nadir və itmək təhlükəsində olan fauna və flora növlərinin, torpaq və su resurslarının, milli sərvətimiz olan təbiət incilərinin öyrənilməsi, bərpası, qorunub saxlanılması, ətraf mühitin mühafizəsi ilə bağlı konseptual ideyalar, dərin elmi mühakimələr irəli sürmüşdülər.

1970-ci illərdə Ulu Öndərin dəstəyi ilə Azərbaycanda biologiya elminin inkişafında akademik Cəlal Əliyevin istiqamətverici rolu xüsusilə diqqətəlayiqdir. Həmin dövrdən başlayaraq bu böyük alimin rəhbərlik etdiyi qrup, laboratoriya və şöbələrdə aparılan kompleks tədqiqat işləri kənd təsərrüfatı bitkilərinin potensial məhsuldarlığının reallaşdırılmasının fizioloji-genetik əsaslarının öyrənilməsinə yönəldilmiş, dünya səviyyəsində ciddi şəkildə qəbul edilən nəticələrə nail olunmuşdur.

Cəlal müəllim 1971-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının Botanika İnstitutunda elmi-tədqiqat qrupu yaratmış, 1974-cü ildə bu qrup Fiziki-kimyəvi Biologiya sektorunun nəzdində Bioenergetikanın molekulyar əsasları laboratoriyasına çevrilmişdir. 1983-cü ildə həmin laboratoriyanın bazasında Məhsuldarlıq proseslərinin molekulyar-genetik əsasları laboratoriyası yaradılmış, 1988-ci ilin sonunda laboratoriya şöbəyə çevrilmişdir. Sonralar dəfələrlə aparılan islahatların və modernləşdirmənin nəticəsi olaraq Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun yaradılması haqqında qərar qəbul edilmiş, institut 2016-cı ildən müstəqil fəaliyyətə başlamışdır.

Burada fundamental və tətbiqi tədqiqatlar, kadr hazırlığı sahələrində əldə edilən nəticələr Ulu Öndərin və cənab Prezidentin Azərbaycan elminin inkişafı siyasətinə real töhfələr hesab edilə bilər.

Dəyərli ənənələri olan Azərbaycan fiziologiya elminin dirçəliş və çiçəklənmə dövrü də 1970-1980-ci illərə təsadüf etmişdir. Akademik Abdulla Qarayevin təşəbbüsü və təşkilatçılığı ilə 1968-ci ildə yaradılmış Fiziologiya İnstitutu məhz 1970-ci illərdə keçmiş SSRİ-nin fiziologiya sahəsində aparıcı institutlarından birinə çevrilmişdi. O illərdə beyin üzrə tədqiqatlara görə SSRİ EA Biologiya Bölməsinin hesabatlarında institutun adı ilk sıralarda çəkilirdi.

1979-cu ildə Azərbaycan EA Rəyasət Heyətinin və Səhiyyə Nazirliyinin birgə qərarı əsasında Görmənin fiziologiyası laboratoriyasının yaradılması ilə institutun elmi fəaliyyətində biotibb yönümlü yeni səhifə açılmışdı. Görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın rəhbərlik etdiyi laboratoriyada görmə orqanının peşə patologiyaları üzrə aparılan tədqiqatlar peşə göz xəstəliklərinin müalicəsinin yeni metodlarının kəşfi ilə nəticələnmişdi. Görmə orqanının peşə patologiyası sahəsində aparılan elmi araşdırmalara görə akademik Zərifə Əliyeva SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüşdü.

Fiziologiya sahəsində ümumittifaq konfrans və iclasların, eləcə də beynəlxalq simpoziumların Azərbaycanda keçirilməsinə qərar verilməsi də Ulu Öndərin Azərbaycan elminin tanıdılmasına diqqətinin göstəricisi sayıla bilər. Bu cür mühüm tədbirlər arasında Kortiko-visseral fiziologiya üzrə 9-cu ümumittifaq konfransı (1971), 16-cı beynəlxalq fiziologiya konqresindəki "Emosiya və visseral funksiyalar" satellit simpoziumu (1972), Laktasiya fiziologiyası və biokimyası üzrə ümumittifaq simpoziumları (1974-1996), "Selen biologiyada" ümumittifaq konfransları (1974, 1976, 1977), "Baş beynin adaptiv funksiyaları" mövzusunda ümumittifaq simpoziumu (1980), "Axtarış fəaliyyəti, motivasiya və yuxu" beynəlxalq simpoziumu (1981) xüsusi yer tutur.

1969-cu ildən sonra Ulu Öndərin Azərbaycanda kənd təsərrüfatının uzun sürən durğunluqdan çıxarılaraq dirçəldilməsi, yeni bitki sortlarının yaradılaraq geniş şəkildə tətbiqi istiqamətində tapşırıqlarının icrasında Kənd Təsərrüfatı Nazirliyinin müvafiq sahə institutları ilə yanaşı, Azərbaycan SSR EA-nın Genetika və Seleksiya İnstitutu əhəmiyyətli rol oynamışdı. Xarakterikdir ki, 1970-ci ildə Birinci katibin tövsiyəsi və dəstəyi ilə həyata keçirilən ilk elmi-təşkilati təyinatlardan biri də instituta tanınmış seleksiyaçı alim və ictimai-siyasi xadim akademik İmam Mustafayevin direktor vəzifəsinə (1970-1985) irəli sürülməsi olmuşdur.

Müstəqillik illərində elmdə gedən islahatlar fonunda akademik Cəlal Əliyevin müvafiq elmin çağırışlarını aydın şəkildə dərk etməsi və uzaqgörənliyi nəticəsində Genetika və Seleksiya İnstitutunun taleyində yeni dönəm başlandı. Bu institutun bazasında ölkədə genetik ehtiyatların toplanması, tədqiqi, səmərəli istifadəsi və Milli Genbankda mühafizəsinin təşkili, ölkə üzrə müvafiq fəaliyyətlərin əlaqələndirilməsi işlərini gücləndirmək məqsədilə 2003-cü ildə Genetik Ehtiyatlar İnstitutu yaradıldı.

Ulu Öndərin qətiyyətli dəstəyi ilə genetika və seleksiya elmi istiqamətlərinin inkişafı xüsusunda bir məsələni - işğaldan azad edilmiş ərazilərə elmin Böyük qayıdışı fonunda Qarabağ Elmi Tədqiqat Bazasının tarixini də xatırlatmaq yerinə düşərdi. İnstitutun tabeliyində olan və ermənilər tərəfindən tam şəkildə talan edilərək məhvə məruz qoyulmuş baza Ulu Öndərin dəstəyi ilə 1970-ci illərdə aqrar sahədə keçmiş ittifaqın ən qabaqcıl elm mərkəzlərindən birinə çevrilmişdi. Həmin illərdə bazada çoxlu sayda yüksəkməhsuldar sort və hibrid formalar yaradılmış, Qarabağ bölgəsi və ətraf rayonların təsərrüfatlarında geniş becərilərək regionda kənd təsərrüfatının inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. 1970-ci illərdə tut bitkisi üzrə SSRİ-Hindistan beynəlxalq simpoziumunun bu bazada təşkil edilməsi də çox şeydən xəbər verir.

Aqrar-sənaye ölkəsi olan Azərbaycanda 1970-ci illərin əvvəllərində xüsusilə güclü inkişafa qədəm qoymuş elm sahələri arasında torpaqşünaslıq elmini də qeyd etmək lazımdır. Bu dövrdə Ulu Öndərin tapşırıqları əsasında Respublikada torpaqların qiymətləndirilməsi, xəritələşdirilməsi, istifadəsi üzrə monoqrafiyalar, kitablar, metodiki göstərişlər nəşr olunmuş, elmi-nəzəri və praktiki əhəmiyyətli dissertasiya işləri müdafiə edilmişdir. 1970-ci illərdə Həsən Əliyevin, Vladimir Volobuyevin, Məmmədəmin Salayevin, Şahalı Həsənovun, Kazım Ələkbərovun və başqalarının əsərləri Azərbaycanda torpaqların qiymətləndirilməsi və yaxşılaşdırılması problemlərinin həllinə və gələcəkdə torpaq islahatlarının aparılmasına xeyli dərəcədə kömək etmişdir.

1970-ci illər Mərkəzi Nəbatat Bağının (o zaman Botanika bağı adlanırdı) da çiçəklənmə dövrü hesab olunur. 1970-ci ildən başlayaraq Abşeronun və Bakı şəhərinin yaşıllaşdırılması üzrə dövlət tədbirləri Botanika bağında ağac və kol bitkilərinin introduksiya işlərinin daha da genişləndirilməsinə səbəb olmuşdu. 1977-ci ildə akademik Həsən Əliyevin rəhbərliyi ilə yaradılmış xüsusi komissiya Bakı şəhər Yaşıllaşdırma Tresti, Milli Elmlər Akademiyasının alimləri, Bakı şəhər Sovetinin nümayəndələri ilə birlikdə bağın inkişafı haqqında tədbirlər planı hazırlamış və akademiya tərəfindən Nazirlər Sovetinə təqdim edilmişdi. AEA Rəyasət Heyətinin "Botanika bağının fəaliyyətinin yaxşılaşdırılması haqqında" 04 fevral 2000-ci il tarixli qərarı ilə Botanika bağı Botanika İnstitutunun strukturundan ayrılaraq Biologiya Elmləri Bölməsinin nəzdində sərbəst elmi-tədqiqat müəssisəsinə çevrilmiş, AEA Rəyasət Heyətinin 22 noyabr 2000-ci il tarixli qərarı ilə adı dəyişdirilərək Azərbaycan Elmlər Akademiyasının Mərkəzi Nəbatat Bağı adlandırılmışdı.

2002-ci ildə Prezident Heydər Əliyevin AMEA-nın Naxçıvan Bölməsinin yaradılması haqqında tarixi sərəncamı Naxçıvan Muxtar Respublikasında elmi potensialın gücləndirilməsi, region üçün xüsusilə vacib olan genişmiqyaslı tədqiqatların aparılması üçün böyük imkanlar yaratdı. Bu sərəncama əsasən, Naxçıvan MR-də flora, fauna və torpaq örtüyünün biomüxtəlifliyinin öyrənilməsi, genefondun qorunması və səmərəli istifadəsini təmin etmək məqsədilə AMEA Naxçıvan Bölməsinin tərkibində Bioresurslar İnstitutu yaradılmış, burada muxtar respublikanın flora və fauna biomüxtəlifliyinin taksonomik spektri hazırlanmış, "Qırmızı kitab"lar nəşr edilmiş, dərman bitkilərinin istifadə imkanları müəyyənləşdirilmişdir. Muxtar respublika florasının 6 fəsiləsinə həsr edilən monoqrafiyalar nəşr etdirilmişdir. Naxçıvan torpaqlarının ekoloji qiymətləndirilməsi aparılmışdır.

Azərbaycan müstəqillik qazandıqdan sonra biomüxtəlifliyin, ətraf mühitin və ekologiyanın mühafizəsi sahəsində dövlət siyasəti məhz Ulu Öndər Heydər Əliyevin Prezidentliyi dövründə formalaşmağa başlamışdır. 2001-ci ildə Azərbaycan Respublikasının Bitki Genetik Ehtiyatları üzrə Milli Proqramı, 2006-cı ildən etibarən "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsi üzrə Milli Strategiya və Fəaliyyət Planı" hazırlanmış, Bitki Genbankı yaradılmışdır.

Ulu Öndərin xalqın çağırışı ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra apardığı dövlət quruculuğu və islahatlar siyasəti cəmiyyət həyatının bütün sahələrini, o cümlədən aqrar bölməni, torpaq tabeçiliyi məsələlərini də əhatə edirdi. Müstəqil Azərbaycanın banisi 23 dekabr 1994-cü ildə kənd təsərrüfatında iqtisadi islahatlara həsr olunmuş respublika müşavirəsində aqrar islahatların vacibliyini bir daha vurğulamış, uğur qazanılmasında elmin roluna diqqət çəkmişdi. Heydər Əliyev kənd təsərrüfatında islahatların yalnız elmi əsaslarla həyata keçirilməsinin vacibliyini bilir, respublikanın aqrar tədqiqatlar sistemində də islahatlar həyata keçirirdi.

Heydər Əliyevin Azərbaycan elmi qarşısında mühüm xidmətlərindən biri də elmin ən müasir və perspektiv sahələrində yüksəkixtisaslı alim kadrların hazırlığı ilə bağlı məsələyə ciddi diqqət yetirməsi olmuşdur. Onun təşəbbüsü və himayəsi nəticəsində 1970-80-ci illərdə 80-dən yuxarı sahəni əhatə edən 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gənc (orta hesabla ildə 800, 1980-ci illərin əvvəllərindən başlayaraq ildə 1000-1400 nəfər) Bakıda imtahanlar verməklə SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində təhsil almağa göndərilmiş, onlara güclü mütəxəssis kimi yetişmək üçün hər cür şərait yaradılmışdı. Bu fakt unikal xarakter daşımaqla, Azərbaycanın gələcəyi üçün güclü kadr potensialının yaradılması demək idi.

Ulu Öndərin bütün sahələrdə olduğu kimi, müdrikliklə müəyyən etdiyi və həyata keçirdiyi elm siyasəti kursu da son 20 ildə möhtərəm Prezident İlham Əliyev tərəfindən layiqli şəkildə davam etdirilmiş, bütün elm sahələrində, eləcə də biologiya və aqrar elmləri üzrə əhəmiyyətli uğurlar qazanılmışdır. Son illərdə müasir dövrün çağırışlarını və ölkədə gedən prosesləri nəzərə almaqla Azərbaycan elmində aparılan dərin islahatlar sayəsində bu uğurların dəfələrlə artacağı şübhəsizdir.

Cənab Prezidentin Azərbaycan elminin müasir dövrün, 4-cü sənaye inqilabının çağırışlarına, ərzaq və bioloji təhlükəsizliyin təmin olunmasına, ümumən ölkənin ehtiyaclarına istiqamətlənməsinə dair, müvafiq elmlərin inkişaf perspektivləri ilə bağlı verdiyi sərəncam və fərmanları, dəyərli tövsiyə və tapşırıqları islahatların bazisi olmaqla yaxın perspektiv üçün Azərbaycanın elm siyasətinin də başlıca strateji istiqamətlərini müəyyən etmişdir.

Hazırda həm dünyada, həm də ölkədə ən aktual problemlərdən olan ərzaq təhlükəsizliyinin təmin edilməsi elmin diqqət mərkəzində olmalıdır. Bununla bağlı olaraq cənab Prezident İlham Əliyev dünyada ərzaq qıtlığı və inflyasiya problemlərinin yaşandığı bir dövrdə Azərbaycanın özünü ərzaqlıq buğda ilə ən azı 70-75 faiz təmin etməsini vəzifə olaraq qarşıya qoymuşdur. Bu vəzifənin icrası üçün isə ən müasir metodların tətbiqi ilə yüksək məhsuldar, keyfiyyətli, stres amillərinin təsirinə davamlı buğda sortları yaradılmalı, suvarma suyu, suvarma sistemləri, gübrələr və bu kimi digər məsələlərin həlli, torpaqlardan istifadənin səmərəliliyinin artırılması üzrə tədqiqatlar intensivləşdirilməlidir.

Bu gün Azərbaycanın elmi ictimaiyyəti Ümummilli Liderin və cənab Prezidentin elmə və alimə göstərdikləri böyük diqqət və qayğıya cavab vermək, ərzaq, ekoloji və bioloji təhlükəsizliyi təmin etmək, elmimizin dünyaya inteqrasiyasını gücləndirmək istiqamətində fəaliyyətlərə tam səfərbər edilmişdir. İnanırıq ki, Azərbaycanın elmi potensialı cənab Prezidentin ətrafında daha sıx birləşərək, qarşıya qoyulan bütün vəzifələrin öhdəsindən ən qısa zamanda uğurla gələ biləcəkdir.

*(Konfransdakı məruzələrin davamı növbəti nömrədə dərc olunacaq.)*

***"Azərbaycan"***

# Siyasi partiyalar haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərinə uyğun olaraq, siyasi partiyanın təsis edilməsi, dövlət qeydiyyatı, fəaliyyətinin yoxlanılması, dayandırılması və bərpası, ləğvi qaydasını, həmçinin siyasi partiyanın fəaliyyətinin təşkili, üzvlük və maddi təminat məsələlərini müəyyən edir.

### 1-ci fəsil
### Ümumi müddəalar

**Maddə 1. Əsas anlayışlar**

1.1. Bu Qanunun məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

1.1.1. siyasi partiya - Azərbaycan Respublikasının vətəndaşları tərəfindən ölkənin siyasi həyatında və vətəndaşların siyasi iradəsinin ifadə olunmasında iştirak etmək məqsədilə bu Qanuna uyğun olaraq təsis edilmiş qeyri-kommersiya hüquqi şəxsi;

1.1.2. siyasi partiyanın nizamnaməsi - siyasi partiyanın ümumi fəaliyyətini tənzimləyən və bu Qanunun 13.2-ci maddəsində nəzərdə tutulmuş məlumatları əks etdirən təsis sənədi;

1.1.3. siyasi partiyanın proqramı - siyasi partiyanın ideoloji fəaliyyətini tənzimləyən və bu Qanunun 13.4-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş məsələləri əks etdirən sənəd;

1.1.4. siyasi partiyanın orqanları - siyasi partiyanın idarəetmə orqanları olan ali orqanı, qurultayarası kollegial orqanı və (və ya) sədri, həmçinin nəzarət orqanı;

1.1.5. siyasi partiyanın struktur qurumları - siyasi partiyada müvafiq istiqamətlər üzrə yaradılmış məşvərətçi qurumlar, siyasi partiyanın qərargahında cari işlərlə məşğul olmaq məqsədilə yaradılmış bölmə (katiblik, aparat və s.), həmçinin yerli təşkilatlar;

1.1.6. siyasi partiyanın qərargahı - siyasi partiyanın idarəetmə orqanlarının yerləşdiyi yer;

1.1.7. siyasi partiyanın üzvü - siyasi partiyaya qəbul olunmuş 18 yaşına çatmış tam fəaliyyət qabiliyyətli Azərbaycan Respublikasının vətəndaşı;

1.1.8. nümayəndə - siyasi partiyanın ali orqanında təmsil olunmaq məqsədilə yerli təşkilat tərəfindən siyasi partiya üzvləri sırasından müəyyən olunan şəxs;

1.1.9. nümayəndəlik norması - yerli təşkilatın nümayəndə sayını müəyyən etmək məqsədilə yerli təşkilat üzrə siyasi partiya üzvlərinin sayına əsasən müəyyən olunan norma;

1.1.10. üzvlük haqqı - siyasi partiyanın üzvləri tərəfindən siyasi partiyanın nizamnaməsinə uyğun olaraq pul şəklində mütəmadi ödənilən vəsait;

1.1.11. dövlət maliyyə yardımı - bu Qanunla nəzərdə tutulmuş qaydada siyasi partiyalara dövlət büdcəsindən ayrılan vəsait;

1.1.12. ianə - siyasi partiya qarşısında hər hansı məqsədə nail olmaq vəzifəsi qoymadan ona Azərbaycan Respublikasının vətəndaşları tərəfindən pul və ya digər əmlak şəklində verilən vəsait, habelə digər formada göstərilən maddi yardım.

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunmuş mənaları ifadə edir.

**Maddə 2. Siyasi partiyalar haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

2.1. Siyasi partiyalar haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir.

2.2. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının, Azərbaycan Respublikası Prezidentinin və bələdiyyə seçkilərinin, həmçinin ümumxalq səsverməsinin (referendumun) keçirilməsində siyasi partiyaların iştirakı Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə tənzimlənir.

**Maddə 3. Siyasi partiyanın fəaliyyətinin dövlət təminatları**

3.1. Hər kəs bərabər şəkildə siyasi partiya yaratmaq və ya mövcud siyasi partiyaya daxil olmaq hüququna malikdir.

3.2. Bu Qanunun 3.1-ci maddəsində nəzərdə tutulmuş hüquq yalnız Azərbaycan Respublikasının Konstitusiyası, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə və bu Qanunla müəyyən edilmiş hallarda məhdudlaşdırıla bilər. Qoyulan məhdudiyyətlər həmin hüququn mahiyyətini dəyişməməlidir, Azərbaycan Respublikasının Konstitusiyasında və "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda nəzərdə tutulan qanuni məqsədə yönəlməli və həmin məqsədə mütənasib olmalıdır.

3.3. Dövlət qeydiyyatından keçmiş bütün siyasi partiyaların sərbəst fəaliyyətinə təminat verilir.

3.4. Dövlət siyasi partiyaların Azərbaycan Respublikasının Konstitusiyasına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq təsis edilməsi və fəaliyyətlərinin həyata keçirilməsi üçün, onların hüquqlarına və qanuni mənafelərinə əməl olunmasına bərabər hüquqi şərait yaradılmasına təminat verir.

3.5. Siyasi partiyaların fəaliyyətinin dövlət tərəfindən hüquqi tənzimlənməsi siyasi plüralizmin təşviqinə xidmət etməlidir.

3.6. Dövlət bu Qanunun 25-ci maddəsi ilə müəyyən edilmiş qaydada dövlət büdcəsinin vəsaiti hesabına siyasi partiyalara maliyyə yardımı göstərir.

3.7. Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, vəzifəli şəxslərin siyasi partiyaların fəaliyyətinə müdaxiləsinə yol verilmir.

3.8. Siyasi partiya hüquqlarının və qanuni mənafelərinin pozulması ilə bağlı inzibati və məhkəmə qaydasında şikayət verə bilər. Siyasi partiya öz üzvünün razılığı ilə onun partiya üzvlüyü ilə bağlı hüquq, azadlıq və qanunla qorunan mənafeyinin müdafiəsi üçün də şikayət edə bilər.

3.9. Azərbaycan Respublikasının Konstitusiyasını və Azərbaycan Respublikasının qanunlarını pozan siyasi partiyaların fəaliyyətinə yalnız məhkəmə qaydasında xitam verilə bilər.

3.10. Siyasi partiyanın dövlət qeydiyyatı, fəaliyyətinin dayandırılması və ləğvi ilə bağlı mübahisələrə apellyasiya məhkəməsi tərəfindən baxılır.

3.11. Hüquqi şəxsi ləğv etmə cinayət-hüquqi tədbiri kimi siyasi partiyaya tətbiq edilmir.

**Maddə 4. Siyasi partiyanın təsis edilməsi və fəaliyyət prinsipləri**

4.1. Siyasi partiyalar könüllülük, üzvlərinin hüquq bərabərliyi, özünüidarə, kollegiallıq, qanunçuluq və aşkarlıq prinsipləri əsasında təsis edilir və fəaliyyət göstərirlər.

4.2. Siyasi partiyalar qanun qarşısında bərabərdirlər.

4.3. Siyasi partiyaların aşağıdakı məqsədlə təsis edilməsinə və fəaliyyətinə yol verilmir:

4.3.1. Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsi, ərazi bütövlüyünün parçalanması, hakimiyyətin zorla ələ keçirilməsi və ya saxlanılması, kütləvi iğtişaşlara, terrorçuluğa açıq çağırışlar edilməsi;

4.3.2. terrorçuluğun, dini ekstremizmin, zorakılığın və qəddarlığın, habelə irqi, dini, mənşə, cinsi, etnik və digər ayrı-seçkiliyin, həmçinin sağlamlığın və ətraf mühitin qorunmasına zidd olan hərəkətlərin təbliği;

4.3.3. irqi, dini və ya etnik düşmənçiliyin salınması.

4.4. Azərbaycan Respublikasının ərazisində xarici dövlətlərin siyasi partiyalarının, habelə onların bölmələrinin və təşkilatlarının təsis edilməsinə və fəaliyyətinə yol verilmir.

4.5. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində, dövlət orqanlarında (qurumlarında), yerli özünüidarəetmə orqanlarında, təhsil müəssisələrində, həmçinin Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq mülkiyyətçinin təşkilati-hüquqi formasından, adından və fəaliyyət növündən asılı olmayaraq yaratdığı hüquqi şəxsdə, onun və xarici hüquqi şəxsin filialında, nümayəndəliyində siyasi partiyaların təsis edilməsi və fəaliyyəti qadağandır.

4.6. Siyasi partiyaların fəaliyyəti onların üzvlərinin Azərbaycan Respublikasının Konstitusiyasında, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında təsbit olunmuş əsas insan və vətəndaş hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yönələ bilməz.

4.7. Siyasi partiyanın dövlət qeydiyyatına alınmadan fəaliyyət göstərməsinə yol verilmir.

4.8. Siyasi partiyanın qərargahı Azərbaycan Respublikasında yerləşməlidir. Siyasi partiya fəaliyyətini Azərbaycan Respublikasının bütün ərazisində həyata keçirə bilər.

4.9. Siyasi partiyanın bütün xalqın adından danışmaq və bütün xalqın adından müraciət etmək hüququ yoxdur.

4.10. Siyasi partiyalar öz hüquqlarından sui-istifadə etməməlidirlər.

4.11. Siyasi partiyaya üzv olmaq kişi və qadınlar üçün eyni şərtlərlə mümkün olmalıdır və onlar üçün bərabər imkanlar yaradılmalıdır.

4.12. Siyasi partiyanın nizamnaməsi həmin partiyanın fəaliyyətində əlilliyi olan şəxslərin iştirakını məhdudlaşdırmamalıdır.

4.13. Siyasi partiyanın fəaliyyətinin dayandırıldığı dövrdə (siyasi partiya tərəfindən məcburi dövlət ödənişlərinin, cərimələrin, mövcud mülki-hüquqi və əmək müqavilələri üzrə ödənişlərin, fəaliyyəti nəticəsində dəymiş ziyanın ödənilməsi, həmçinin bu Qanunun 8.2-ci maddəsində və 8.7-ci maddəsinin birinci cümləsində müəyyən edilmiş hərəkətlər istisna olmaqla) və ya ləğvinin dövlət qeydiyyatına alındığı halda onun hər hansı formada fəaliyyət göstərməsi, o cümlədən partiya orqanlarının (struktur qurumlarının) və üzvlərinin siyasi partiyanın adından çıxış etməsi və ya fəaliyyət göstərməsi, toplantıların keçirilməsi, maliyyə əməliyyatlarının aparılması, yaxud onun fəaliyyətinin qanunsuz təşkilində və ya işində iştirak qadağandır. Siyasi partiyanın səlahiyyət müddəti bitmiş orqanları (struktur qurumları) tərəfindən partiyanın fəaliyyəti ilə əlaqədar hər hansı hərəkətlərin edilməsi, o cümlədən qərarların qəbul edilməsi və ya sənədlərin imzalanması qadağandır.

4.14. Siyasi partiya aşağıdakı subyektlər tərəfindən bu Qanunun pozulmasına görə cavabdehlik daşıyır:

4.14.1. siyasi partiyanın orqanları və struktur qurumları;

4.14.2. siyasi partiyanı təmsil etmək səlahiyyətinə malik olan vəzifəli şəxs;

4.14.3. siyasi partiyanın adından qərarlar qəbul etmək səlahiyyətinə malik olan vəzifəli şəxs;

4.14.4. siyasi partiyanın fəaliyyətinə nəzarət etmək səlahiyyətinə malik olan vəzifəli şəxs;

4.14.5. bu Qanunun 4.14.1-4.14.4-cü maddələrində nəzərdə tutulmuş subyektlər tərəfindən nəzarətin həyata keçirilməməsi nəticəsində siyasi partiyanın adından rəsmi olaraq hərəkət edən üzvü.

### 2-ci fəsil
### Siyasi partiyanın təsis edilməsi, dövlət qeydiyyatı, fəaliyyətinin yoxlanılması, dayandırılması və bərpası, siyasi partiyanın ləğvi

**Maddə 5. Siyasi partiyanın təsis edilməsi**

5.1. Siyasi partiya Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyətli olan azı 50 vətəndaşı (təsisçilər) tərəfindən təsis edilir.

5.2. Siyasi partiyanın təsis edilməsi məqsədilə təsisçilər təsis yığıncağını keçirirlər. Təsisçilərin siyasi partiyanın təsis yığıncağında nümayəndə vasitəsilə iştirakına yol verilmir.

5.3. Təsis yığıncağında siyasi partiyanın nizamnaməsi və proqramı qəbul olunur, təmsilçilik məqsədilə təsisçilər sırasından səlahiyyətli şəxs müəyyən edilir. Bu Qanunun 5.7-ci maddəsinə uyğun olaraq siyasi partiyanın nizamnaməsində və proqramında çatışmazlıqlar aşkarlanarsa təsis yığıncağında həmin sənədlərdə müvafiq dəyişikliklər edilir. Siyasi partiyanın təsis yığıncağının nəticələri protokolla rəsmiləşdirilir. Təsis yığıncağının protokolunda, o cümlədən təsisçilərin və səlahiyyətli şəxsin adı, soyadı, atasının adı, doğulduğu tarix, qeydiyyat ünvanı və əlaqə telefon nömrəsi göstərilir.

5.4. Təsis yığıncağının keçirildiyi tarixdən 30 gün müddətində siyasi partiyanın səlahiyyətli şəxsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) ərizə ilə müraciət edərək təsis yığıncağının protokolunu, partiyanın nizamnaməsini və proqramını təqdim edir. Ərizə siyasi partiyanın səlahiyyətli şəxsi və digər təsisçilər tərəfindən imzalanır və notariat qaydasında təsdiqlənir.

5.5. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ərizənin daxil olduğu tarixdən 30 gün müddətində sənədlərin bu Qanunun 5.1-5.4-cü maddələrinin tələblərinə uyğunluğunu yoxlayır.

5.6. Təqdim edilmiş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, ərizənin daxil olduğu tarixdən 30 gündən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) onların aradan qaldırılması barədə məlumatı siyasi partiyanın səlahiyyətli şəxsinə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir, həmçinin bu Qanunun 4.7-ci maddəsinin tələbinə əməl olunmamasının hüquqi nəticələrini ona izah edir. Bütün çatışmazlıqlar eyni zamanda bildirilməlidir.

5.7. Bu Qanunun 5.6-cı maddəsində nəzərdə tutulmuş məlumat daxil olduqdan sonra siyasi partiyanın səlahiyyətli şəxsi sənədlərdə aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər görür və ərizə ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət edir. Ərizə siyasi partiyanın səlahiyyətli şəxsi tərəfindən imzalanır və notariat qaydasında təsdiqlənir.

5.8. Təqdim edilmiş sənədlərdə çatışmazlıqlar aşkar edilmədikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun 5.5-ci və ya 5.7-ci maddəsində nəzərdə tutulmuş ərizənin daxil olduğu tarixdən 30 gün müddətində bu barədə məlumatı siyasi partiyanın səlahiyyətli şəxsinə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir.

5.9. Bu Qanunun 5.8-ci maddəsində nəzərdə tutulmuş məlumat daxil olduğu tarixdən 180 gün müddətində siyasi partiyanın səlahiyyətli şəxsi siyasi partiya üzvlərinin bu Qanunun 6.1-ci maddəsində nəzərdə tutulmuş sayının təmin edilməsi üçün tədbirlər görür və bu Qanunun 20.10-cu maddəsinə uyğun olaraq üzvlərin reyestrini tərtib edir.

**Maddə 6. Siyasi partiyanın dövlət qeydiyyatı**

6.1. Dövlət qeydiyyatına alınması üçün siyasi partiyanın azı 5000 üzvü olmalıdır.

6.2. Siyasi partiyanın səlahiyyətli şəxsi bu Qanunun 5.9-cu maddəsində müəyyən edilmiş müddət bitəndən sonra 10 gündən gec olmayaraq siyasi partiyanın dövlət qeydiyyatına alınması üçün "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət edir.

6.3. Bu Qanunun 5.9-cu maddəsinə uyğun olaraq reyestrin təqdim edilməməsi və ya bu Qanunun 5.9-cu və 6.2-ci maddələrində müəyyən edilmiş müddətlərə əməl olunmaması siyasi partiyanın təsis edilməsi prosesinin yenidən başlanmasına səbəb olur.

6.4. Siyasi partiya üzvlərinin reyestrində baş vermiş sonrakı dəyişikliklər barədə ildə bir dəfə (yanvar ayının 15-dək) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat təqdim edir.

6.5. Siyasi partiya dövlət qeydiyyatına alındığı tarixdən 3 gün müddətində bu barədə məlumatı mediada dərc etdirir və (və ya) yayımlayır.

6.6. Siyasi partiyanın dövlət qeydiyyatı ilə bağlı (o cümlədən bu Qanunun 30-cu maddəsində nəzərdə tutulmuş halda) digər məsələlər Azərbaycan Respublikasının Mülki Məcəlləsi və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

**Maddə 7. Siyasi partiyanın fəaliyyətinin yoxlanılması**

7.1. Bu Qanunun 28-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) siyasi partiyanın fəaliyyətinin normativ hüquqi aktların və nizamnaməsinin tələblərinə uyğunluğunu yoxlayır. Bu məqsədlə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum):

7.1.1. siyasi partiyanın fəaliyyətinin Azərbaycan Respublikasının normativ hüquqi aktlarına və nizamnaməsinə uyğunluğunu öyrənir;

7.1.2. siyasi partiyanın yaradılması zamanı yol verilmiş Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinin pozulması halları ilə əlaqədar araşdırma aparır;

7.1.3. siyasi partiyaya bu Qanunun 7.4-cü maddəsində nəzərdə tutulmuş qaydada yazılı xəbərdarlıq edir;

7.1.4. bu Qanunun 8-ci və 9-cu maddələrində nəzərdə tutulmuş qaydada siyasi partiyanın fəaliyyətinin dayandırılması və ya onun ləğvi barədə məhkəmədə iddia qaldırır.

7.2. Siyasi partiyanın fəaliyyətinin Azərbaycan Respublikasının normativ hüquqi aktlarına və nizamnaməsinə uyğunluğunun öyrənilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum):

7.2.1. siyasi partiyanın fəaliyyəti ilə bağlı üzvlərindən, həmçinin dövlət orqanlarından (qurumlarından), yerli özünüidarəetmə orqanlarından, hüquqi və fiziki şəxslərdən daxil olmuş müraciətlərə baxır, mediada dərc olunmuş (yayımlanmış) məlumatları nəzərdən keçirir;

7.2.2. dövlət elektron informasiya ehtiyatlarından istifadə etməklə siyasi partiya üzvlərinin reyestrində olan məlumatları ildə azı iki dəfə nəzərdən keçirir;

7.2.3. məsələ ilə bağlı siyasi partiyanın qanuni təmsilçisinin izahatını alır;

7.2.4. Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş digər tədbirlər görür.

7.3. Siyasi partiyanın yaradılması zamanı yol verilmiş normativ hüquqi aktların tələblərinin pozulması hallarının araşdırılması məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum):

7.3.1. məsələ ilə bağlı siyasi partiyanın qanuni təmsilçisinin izahatını alır;

7.3.2. bu Qanunun 6.1-ci maddəsinin tələbinin pozulması halı müəyyən edildikdə dövlət qeydiyyatına alınarkən siyasi partiyada üzv sayının 4500-dən aşağı olması halında həmin siyasi partiyanın dövlət qeydiyyatının ləğvi barədə məhkəmədə iddia qaldırır;

7.3.3. normativ hüquqi aktların pozulmasının aradan qaldırılmalı olan digər halı müəyyən edildikdə siyasi partiyaya yazılı xəbərdarlıq edir.

7.4. Bu Qanunun 7.2-ci maddəsi çərçivəsində görülmüş tədbirlər nəticəsində normativ hüquqi aktların və siyasi partiyanın nizamnaməsinin pozulması halı (bu Qanunun 4.3-cü maddəsinin, həmçinin fəaliyyəti dayandırılmış siyasi partiya tərəfindən bu Qanunun 4.13-cü maddəsinin birinci cümləsinin pozulması halı, habelə dövlət qeydiyyatına alınmış siyasi partiyada üzv sayının 4500-dən aşağı olması halı istisna olmaqla) müəyyən edildikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) siyasi partiyaya yazılı xəbərdarlıq edir.

7.5. Bu Qanunun 7.3.3-cü və 7.4-cü maddələrində nəzərdə tutulmuş xəbərdarlıqda pozuntu halları göstərilir və əsaslandırılır, onların aradan qaldırılması üçün tələblər və zəruri müddət (bu Qanunun 30.1-ci, 30.3-cü və 30.5-ci maddələrində nəzərdə tutulmuş sənədlərin təqdim edilməsi üçün 30 gün) müəyyən edilir, həmçinin pozuntuların aradan qaldırılmamasının hüquqi nəticələri izah edilir. Xəbərdarlıq siyasi partiyaya təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Siyasi partiya göstərilmiş pozuntuları xəbərdarlıqda müəyyən edilmiş müddətdə aradan qaldırır və bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verir.

**Maddə 8. Siyasi partiyanın fəaliyyətinin dayandırılması və bərpası**

8.1. Siyasi partiya fəaliyyətini müvəqqəti dayandıra bilər. Bu barədə qərar (fəaliyyətin dayandırıldığı müddət dəqiq göstərilməklə) siyasi partiyanın qurultayı tərəfindən qəbul olunur.

8.2. Qurultayın keçirildiyi tarixdən 3 gün müddətində siyasi partiya qəbul olunmuş qərarı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir və siyasi partiyanın fəaliyyətinin dayandırılması barədə məlumatı mediada dərc etdirir və (və ya) yayımlayır.

8.3. Siyasi partiya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) bu Qanunun 7.3.3-cü və 7.4-cü maddələrinə uyğun olaraq müəyyən etdiyi pozuntuları xəbərdarlıqda göstərilmiş müddətdə aradan qaldırıb bu barədə məlumat vermədikdə, onun fəaliyyəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) iddiası əsasında apellyasiya məhkəməsinin qərarı ilə 2 aydan 6 ayadək müddətinə dayandırıla bilər. Siyasi partiyanın fəaliyyətinin dayandırılması barədə apellyasiya məhkəməsinin qərarı Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə uyğun olaraq qəbul edilir. Həmin məhkəmə qərarı qüvvəyə mindiyi tarixdən 3 gün müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) siyasi partiyanın fəaliyyətinin dayandırılması barədə məlumatı mediada dərc etdirir və (və ya) yayımlayır.

8.4. Siyasi partiyanın fəaliyyəti bu barədə qurultayın qərarı qəbul edildiyi, yaxud müvafiq məhkəmə qərarı qüvvəyə mindiyi tarixdən dayandırılmış hesab olunur.

8.5. Siyasi partiyanın fəaliyyətinin dayandırıldığı dövrdə onun orqanlarının və struktur qurumlarının nizamnaməsində nəzərdə tutulmuş səlahiyyət müddətlərinin axımı dayandırılır.

8.6. Bu Qanunun 8.1-ci maddəsində nəzərdə tutulmuş halda siyasi partiyanın fəaliyyətinin dayandırıldığı müddət bitdikdən sonra siyasi partiyanın fəaliyyəti bərpa olunmuş hesab olunur.

8.7. Bu Qanunun 8.3-cü maddəsində nəzərdə tutulmuş halda siyasi partiyanın fəaliyyətinin dayandırıldığı müddət bitdikdən sonra siyasi partiya 30 gün müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) bu Qanunun 7.3.3-cü və 7.4-cü maddələrində nəzərdə tutulmuş xəbərdarlığında göstərilmiş pozuntuları aradan qaldırır və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) bu barədə məlumatı təqdim edir. Təqdim edilmiş məlumatda xəbərdarlıqda göstərilmiş pozuntuların tam aradan qaldırılması müəyyən edildikdə, məlumatın daxil olduğu tarixdən 30 gündən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu barədə məlumatı siyasi partiyaya təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir. Həmin məlumat alındığı tarixdən siyasi partiyanın fəaliyyəti bərpa olunmuş hesab olunur.

8.8. Bu Qanunun 8.6-cı və 8.7-ci maddələrinə uyğun olaraq siyasi partiyanın fəaliyyətinin bərpa olunduğu tarixdən 3 gün müddətində siyasi partiya bu barədə məlumatı mediada dərc etdirir və (və ya) yayımlayır.

8.9. Bu Qanunun 8.7-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müddətdə məlumat müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilmədikdə, həmçinin təqdim edilmiş məlumatda xəbərdarlıqda göstərilmiş pozuntuların tam aradan qaldırılmadığı müəyyən edildikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun 9.3-cü maddəsinə uyğun olaraq tədbir görür.

8.10. Hərbi və ya fövqəladə vəziyyətin elan edilməsinə səbəb olmuş halların aradan qaldırılmasına və müəyyən edilmiş tədbirlərin həyata keçirilməsinə mane olan siyasi partiyanın fəaliyyəti hərbi və ya fövqəladə vəziyyət dövrü başa çatanadək dayandırıla bilər. Bununla bağlı məsələlər "Hərbi vəziyyət haqqında" və "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tənzimlənir.

**Maddə 9. Siyasi partiyanın ləğvi**

9.1. Siyasi partiya bu Qanunla və Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş hallarda (bu Qanunun 3.11-ci maddəsi nəzərə alınmaqla) siyasi partiya qurultayının və ya məhkəmənin qərarı əsasında ləğv edilə bilər.

9.2. Siyasi partiyanın ləğvi barədə siyasi partiyanın qurultayının qərarı siyasi partiyanın nizamnaməsində nəzərdə tutulmuş qaydada qəbul edilir.

9.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) aşağıdakı hallarda siyasi partiyanın ləğvi barədə apellyasiya məhkəməsində iddia qaldırır:

9.3.1. siyasi partiya bu Qanunun 4.3-cü maddəsinin tələblərini pozduqda;

9.3.2. bu Qanunun 7.3.2-ci və 8.9-cu maddələrində nəzərdə tutulmuş hallarda;

9.3.3. fəaliyyəti dayandırılmış siyasi partiya bu Qanunun 4.13-cü maddəsinin birinci cümləsinin tələblərini pozduqda;

9.3.4. dövlət qeydiyyatına alınmış siyasi partiyada üzv sayı 4500-dən aşağı olduqda.

9.4. Siyasi partiyanın bu Qanunun 9.3-cü maddəsində nəzərdə tutulmuş hallarda ləğvi siyasi partiyaya qarşı tətbiq edilə biləcək ən son zərurət tədbiri hesab edilir.

9.5. Siyasi partiyanın ləğvi barədə apellyasiya məhkəməsinin qərarı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) iddiası əsasında Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə uyğun olaraq qəbul edilir.

9.6. Siyasi partiyanın ləğvi barədə qeyd hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi tarixdən 3 gün müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) siyasi partiyanın ləğvi barədə məlumatı mediada dərc etdirir və (və ya) yayımlayır.

9.7. Siyasi partiyanın ləğvi ilə bağlı digər məsələlər Azərbaycan Respublikasının Mülki Məcəlləsi və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

### 3-cü fəsil
### Siyasi partiyanın fəaliyyətinin təşkili

**Maddə 10. Siyasi partiyanın adı və rəmzləri**

10.1. Siyasi partiyanın adı olmalı və onun adında "partiya" sözü göstərilməlidir. Siyasi partiyanın adının qısaldılmış forması, həmçinin siyasi partiyanın rəmzləri (bayraq, emblem və s.) ola bilər.

*Ardı 7-ci səh.*

# Siyasi partiyalar haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 6-cı səh.*

10.2. Siyasi partiyanın adı, qısaldılmış adı və rəmzləri dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış və ya ləğv edilmiş hüquqi şəxslərin, o cümlədən digər siyasi partiyanın adından, adının qısaldılmış formasından və rəmzlərindən fərqlənməlidir, qanunla qorunan əmtəə nişanlarını təqlid etməməlidir.

10.3. Siyasi partiyanın adında, qısaldılmış adında və rəmzlərində irqi, dini, mənşə, cinsi, etnik xüsusiyyətlərə istinad olunması, habelə fiziki şəxslərin adlarından istifadə edilməsinə yol verilmir.

10.4. Siyasi partiyanın adı, qısaldılmış adı və rəmzləri bu Qanunun 4.3-cü maddəsində göstərilmiş məqsədlərin təbliğinə xidmət etməməlidir.

10.5. Siyasi partiyanın rəmzləri Azərbaycan Respublikasının və xarici dövlətlərin dövlət rəmzlərindən, habelə beynəlxalq təşkilatların rəmzlərindən fərqlənməlidir.

10.6. Siyasi partiya öz rəmzlərinin təsdiq edilməsi barədə qərarını qəbul etdiyi tarixdən 30 gün müddətində rəmzlərin eskizlərini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir.

10.7. Azərbaycan Respublikasının Dövlət Bayrağı siyasi partiyanın bayrağı ilə birgə qaldırılırsa (asılırsa) və ya yerləşdirilirsə, siyasi partiyanın bayrağının ölçüsü Azərbaycan Respublikası Dövlət Bayrağının ölçüsündən böyük ola bilməz.

**Maddə 11. Siyasi partiyanın fəaliyyət istiqamətləri**

11.1. Siyasi partiya aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

11.1.1. ölkənin siyasi həyatında iştirak edir;

11.1.2. vətəndaşların siyasi iradəsinin ifadə olunmasında, həmçinin ictimai rəyin formalaşdırılmasında iştirak edir;

11.1.3. vətəndaşlar arasında siyasi maarifləndirmə işi aparır;

11.1.4. ümummilli dəyərləri və vətənpərvərliyi təbliğ edir;

11.1.5. üzvlərinin siyasi fəallığına dəstək verir;

11.1.6. üzvlərinin siyasi iradəsini ifadə edir;

11.1.7. seçkilərin, həmçinin ümumxalq səsverməsinin (referendumun) keçirilməsində iştirak edir;

11.1.8. müxtəlif məsələlər ilə bağlı rəy və təkliflərini təqdim etməklə Azərbaycan Respublikasının daxili və xarici siyasətinin formalaşmasına təsir göstərir.

**Maddə 12. Siyasi partiyanın hüquq və vəzifələri**

12.1. Siyasi partiya aşağıdakı hüquqlara malikdir:

12.1.1. məqsədləri və fəaliyyəti barədə informasiyanı sərbəst yaymaq;

12.1.2. ideyalarını, məqsədlərini və proqramını təbliğ etmək;

12.1.3. digər siyasi partiyalarla fəaliyyətin əlaqələndirilməsi, habelə ümumi mənafelərin təmsil və müdafiə edilməsi məqsədilə könüllülük əsasında birləşib ittifaqlar və siyasi bloklar yaratmaq;

12.1.4. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının, Azərbaycan Respublikası Prezidentinin və bələdiyyə seçkilərinin, həmçinin ümumxalq səsverməsinin (referendumun) keçirilməsində iştirakla bağlı Azərbaycan Respublikasının Seçki Məcəlləsində nəzərdə tutulmuş hüquqları həyata keçirmək;

12.1.5. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı iclaslar, görüşlər konfranslar və müşavirələr keçirmək;

12.1.6. "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yığıncaq, mitinq, nümayiş, küçə yürüşü və piket keçirmək;

12.1.7. bu Qanunun 3.8-ci maddəsinə uyğun olaraq özünün və üzvlərinin hüquqlarını və qanuni maraqlarını müdafiə etmək;

12.1.8. siyasi partiyanın nizamnaməsində (proqramında) qeyd olunmuş məqsədlərlə (hədəflərlə) razı olmayan şəxsi üzvlüyə qəbulundan imtina etmək;

12.1.9. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı təşəbbüslə çıxış etmək, o cümlədən dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına müvafiq təkliflər vermək;

12.1.10. hüquqi aktların layihələrini hazırlamaq və aidiyyəti üzrə təqdim etmək, həmçinin dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları tərəfindən hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək, hüquqi aktlarda dəyişikliklər edilməsi, onların şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi ilə bağlı məsələ qaldırmaq;

12.1.11. "Media haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq çap mediasını təsis etmək (çap mediasının iştirakçısı olmaq);

12.1.12. bu Qanunun 12.2-ci maddəsində nəzərdə tutulmuş qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;

12.1.13. bu Qanunun 19-cu maddəsində nəzərdə tutulmuş qaydada beynəlxalq əməkdaşlıq əlaqələri qurmaq;

12.1.14. bu Qanunun 24-cü maddəsində nəzərdə tutulmuş qaydada ianələr qəbul etmək;

12.1.15. qısaldılmış ada, həmçinin emblemə, bayrağa və s. rəmzlərə malik olmaq;

12.1.16. konfranslar, görüşlər, müzakirələr və digər ictimai tədbirlər keçirmək;

12.1.17. Azərbaycan Respublikasının Dövlət Bayrağını keçirdiyi tədbirlər zamanı qaldırmaq (asmaq) və ya yerləşdirmək;

12.1.18. bu Qanuna, həmçinin Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq digər hüquqları həyata keçirmək.

12.2. İctimai-siyasi nəşrlərin, digər təbliğat və təşviqat materialların hazırlanması və satışı istisna olmaqla, siyasi partiya sahibkarlıq fəaliyyətinin digər növləri ilə məşğul ola bilməz. Bu Qanunun 12.2-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş sahibkarlıq fəaliyyətinin növləri ilə məşğul olmaq, həmçinin bu Qanunun 12.1.11-ci maddəsinin məqsədləri üçün siyasi partiya təsərrüfat cəmiyyətləri yarada bilər və ya onlarda iştirak edə bilər.

12.3. Siyasi partiyanın aşağıdakı vəzifələri vardır:

12.3.1. öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, digər normativ hüquqi aktlarına və öz nizamnaməsinə riayət etmək;

12.3.2. üzvlərinin reyestrini aparmaq;

12.3.3. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının, Azərbaycan Respublikası Prezidentinin və bələdiyyə seçkilərinin, həmçinin ümumxalq səsverməsinin (referendumun) keçirilməsində iştirakla bağlı Azərbaycan Respublikasının Seçki Məcəlləsində nəzərdə tutulmuş vəzifələri yerinə yetirmək;

12.3.4. bu Qanunun 27-ci maddəsinə uyğun olaraq mühasibat uçotunu aparmaq, maliyyə hesabatını və maliyyə fəaliyyətinə dair əlavə məlumat və sənədləri aidiyyəti üzrə təqdim etmək;

12.3.5. fiziki və hüquqi şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləmək;

12.3.6. dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, vəzifəli şəxslərin fəaliyyətinə, həmçinin digər şəxslərin sahibkarlıq fəaliyyətinə müdaxilə etməmək;

12.3.7. digər siyasi partiyanın öz siyasi ideyalarını və baxışlarını azad və sərbəst yaymaq hüququna hörmət bəsləmək;

12.3.8. keçirdiyi mərasimlər və digər təntənəli tədbirlər zamanı Azərbaycan Respublikasının Dövlət Bayrağını qaldırarkən və ya asarkən Azərbaycan Respublikası Dövlət Himninin ifa edilməsini təmin etmək;

12.3.9. bu Qanuna, həmçinin Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq digər vəzifələri yerinə yetirmək.

12.4. Siyasi partiyanın ali və qurultayarası kollegial idarəetmə orqanlarının iclaslarının yalnız epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejiminin tətbiqi ilə əlaqədar real vaxt rejimində videokonfrans sistemi vasitəsilə keçirilməsinə yol verilir.

**Maddə 13. Siyasi partiyanın nizamnaməsi və proqramı**

13.1. Siyasi partiyanın hər bir şəxsin tanış olmaq imkanı olan nizamnaməsi və proqramı olmalıdır. Nizamnamə və proqram təsis yığıncağında qəbul edilir. Dövlət qeydiyyatına alınmış siyasi partiyanın nizamnaməsində və proqramında dəyişikliklər, həmçinin yeni nizamnaməsi və proqramı bu Qanunun 13.4-cü maddəsinin ikinci cümləsinə və 14.2.1-ci maddəsinə uyğun olaraq qəbul edilir.

13.2. Siyasi partiyanın nizamnaməsində aşağıdakılar nəzərdə tutulmalıdır:

13.2.1. siyasi partiyanın adı və qısaldılmış adı (olduğu halda);

13.2.2. siyasi partiyanın qərargahının yerləşdiyi yer (hüquqi ünvanı);

13.2.3. siyasi partiyanın məqsədi, fəaliyyət istiqamətləri, hüquq və vəzifələri;

13.2.4. siyasi partiyada üzvlük məsələləri (üzvlüyə qəbul və xitam verilməsi, üzvlərin qeydiyyatı, intizam tənbeh tədbirləri, üzvlük haqlarının ödənilməsi və s.);

13.2.5. siyasi partiya üzvlərinin hüquq və vəzifələri;

13.2.6. siyasi partiya üzvlərinin partiyadaxili şikayət etmək qaydası;

13.2.7. siyasi partiyanın orqanları və struktur qurumları, onların təşkili qaydası və səlahiyyətləri, onların səlahiyyət müddətləri;

13.2.8. partiyadaxili qərarların, o cümlədən nizamnamənin və proqramın qəbulu və onlarda dəyişikliklər edilməsi, siyasi partiyanın fəaliyyətinin dayandırılması, yenidən təşkili və ləğvi barədə qərarın qəbulu qaydası və buna nəzarət formaları;

13.2.9. siyasi partiyanın fəaliyyətinin maddi təminat məsələləri (gəlir, xərclər, əmlak, maliyyə hesabatı, mühasibat uçotu və s.).

13.3. Nizamnamədə siyasi partiyanın fəaliyyəti ilə bağlı bu Qanuna və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına zidd olmayan başqa müddəalar da nəzərdə tutula bilər.

13.4. Siyasi partiyanın proqramında partiyanın fəaliyyətinin prinsipləri, hədəf və vəzifələri, həmçinin hədəf və vəzifələrin yerinə yetirilməsi vasitələri nəzərdə tutulmalıdır. Dövlət qeydiyyatına alınmış siyasi partiyanın proqramında dəyişikliklərin edilməsi, həmçinin yeni proqramın qəbul edilməsi səlahiyyəti siyasi partiyanın nizamnaməsi ilə qurultaya və ya qurultayarası kollegial idarəetmə orqanına verilə bilər.

13.5. Nizamnamədə və proqramda dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, vəzifəli şəxslərin səlahiyyətlərinin mənimsənilməsinə, habelə dövlət nəzarəti və yoxlama funksiyalarının nəzərdə tutulmasına yol verilmir.

13.6. Siyasi partiya dövlət qeydiyyatına alındıqdan sonra nizamnaməsində və proqramında edilmiş dəyişiklikləri "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir.

**Maddə 14. Siyasi partiyanın ali idarəetmə orqanı**

14.1. Siyasi partiyanın ali idarəetmə orqanı siyasi partiyanın qurultayıdır. Qurultay siyasi partiyanın nizamnaməsi ilə müəyyən edilmiş müddətlərdə, lakin 5 ildə bir dəfədən az olmayaraq keçirilir. Siyasi partiyanın növbəti və növbədənkənar qurultayı partiyanın qurultayarası kollegial idarəetmə orqanının (həmin orqan olmadığı halda partiya sədrinin) qərarı ilə çağırılır. Növbədənkənar qurultay səlahiyyətlərinə aid olan məsələlər çərçivəsində nəzarət orqanının, həmçinin partiya üzvlərinin ən azı üçdə iki hissəsinin qurultayarası kollegial idarəetmə orqanına (həmin orqan olmadığı halda partiyanın sədrinə) edilmiş müraciəti əsasında da çağırılır.

14.2. Qurultayın müstəsna səlahiyyətlərinə aşağıdakılar daxildir:

14.2.1. dövlət qeydiyyatına alınmış siyasi partiyanın nizamnaməsində dəyişikliklərin edilməsi, həmçinin yeni nizamnamənin qəbul edilməsi;

14.2.2. siyasi partiyanın qurultayarası kollegial idarəetmə və nəzarət orqanlarının say tərkibinin müəyyənləşdirilməsi, üzvlərinin seçilməsi və səlahiyyətlərinə xitam verilməsi;

14.2.3. siyasi partiya sədrinin seçilməsi və səlahiyyətlərinə xitam verilməsi;

14.2.4. qurultayarası kollegial idarəetmə, nəzarət orqanlarının və siyasi partiya sədrinin hesabatlarının dinlənilməsi;

14.2.5. siyasi partiyanın fəaliyyətinin dayandırılması, yenidən təşkili və ləğvi haqqında qərarın qəbul edilməsi.

14.3. Bu Qanunun 15.2-ci, 15.4-cü, 16.2-ci, 16.4-cü və 17.2-ci maddələri nəzərə alınmaqla, siyasi partiyanın nizamnaməsinə uyğun olaraq qurultayın səlahiyyətlərinə digər məsələlər də aid edilə bilər.

**Maddə 15. Siyasi partiyanın qurultayarası kollegial idarəetmə orqanı**

15.1. Siyasi partiyaya qurultayarası dövrdə ümumi rəhbərliyi həyata keçirmək üçün kollegial idarəetmə orqanı (orqanları) yaradıla bilər. Qurultay qurultayarası kollegial idarəetmə orqanının say tərkibini müəyyənləşdirir, üzvlərini seçir və səlahiyyətlərinə xitam verir.

15.2. Qurultayarası kollegial idarəetmə orqanı:

15.2.1. qurultayarası dövrdə siyasi partiyaya ümumi rəhbərliyi həyata keçirir;

15.2.2. növbəti və növbədənkənar qurultay çağırır;

15.2.3. fəaliyyəti barədə qurultay qarşısında hesabat verir;

15.2.4. digər siyasi partiyalarla ittifaq və siyasi blok yaradılması barədə qərar qəbul edir;

15.2.5. siyasi partiyanın çap mediasının təsis edilməsi və ya onda iştirakı barədə qərar qəbul edir;

15.2.6. siyasi partiyanın nizamnaməsi ilə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində partiyanın əmlakının və vəsaitlərinin idarə edilməsi üzrə qərarlar qəbul edir.

15.3. Bu Qanunun 14.2-ci, 16.2-ci (siyasi partiyada sədr vəzifəsi olduğu halda), 16.4-cü və 17.2-ci maddələri nəzərə alınmaqla, siyasi partiyanın nizamnaməsinə uyğun olaraq qurultayarası kollegial idarəetmə orqanının səlahiyyətlərinə digər məsələlər də aid edilə bilər.

15.4. Siyasi partiyada qurultayarası kollegial idarəetmə orqanı olmadığı halda, bu Qanunun 15.2-ci maddəsində nəzərdə tutulmuş səlahiyyətləri siyasi partiyanın nizamnaməsinə uyğun olaraq partiyanın sədri həyata keçirir.

**Maddə 16. Siyasi partiyanın sədri**

16.1. Siyasi partiyanın fəaliyyətinə cari rəhbərliyi həyata keçirmək üçün idarəetmə orqanı olan sədr seçilə bilər. Sədr partiyanın ali seçkili vəzifəli şəxsi sayılır. Qurultay sədri seçir və səlahiyyətlərinə xitam verir. Siyasi partiyanın nizamnaməsi ilə sədrin səlahiyyət müddəti, həmçinin müavinlərinin olması müəyyən oluna bilər.

16.2. Sədr:

16.2.1. siyasi partiyanın fəaliyyətinə cari rəhbərliyi həyata keçirir, etibarnaməsiz partiyanın adından hərəkət edir;

16.2.2. siyasi partiyanı təmsil edir;

16.2.3. fəaliyyəti barədə qurultay qarşısında hesabat verir;

16.2.4. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq etibarnamələr verir, partiya adından əlaqələr qurur, siyasi partiyanın nizamnaməsi ilə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində partiyanın əmlakı və vəsaitləri üzərində sərəncam verir;

16.2.5. siyasi partiyanın qurultayarası kollegial idarəetmə və nəzarət orqanlarının növbədənkənar iclaslarını çağırır;

16.2.6. özünün, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1.1.3-cü və 49-1.1.5-ci maddələrində göstərilən şəxslərin bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etməsi, həmçinin həmin əqdlə əlaqədar öz maraqlarının xüsusiyyətləri (onun yaranması, həcmi və s.) barədə məlumatı Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1.6-cı maddəsi ilə müəyyən edilmiş qaydada siyasi partiyanın nəzarət orqanına təqdim edir.

16.3. Bu Qanunun 14.2-ci, 15.2-ci (siyasi partiyada qurultayarası kollegial idarəetmə orqanı olduğu halda), 15.4-cü və 17.2-ci maddələri nəzərə alınmaqla, siyasi partiyanın nizamnaməsinə uyğun olaraq sədrin səlahiyyətlərinə digər məsələlər də aid edilə bilər.

16.4. Siyasi partiyada sədr vəzifəsi olmadığı halda, bu Qanunun 16.2-ci maddəsində nəzərdə tutulmuş səlahiyyətləri siyasi partiyanın nizamnaməsinə uyğun olaraq partiyanın qurultayarası kollegial idarəetmə orqanı həyata keçirir.

16.5. Sədr və sədr müavinləri siyasi partiyanın qurultayarası kollegial idarəetmə orqanında və məşvərətçi qurumlarında, o cümlədən onların rəhbərliyində təmsil oluna bilər.

16.6. Sədr səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini müavinlərinə (olduğu halda) həvalə edə bilər.

16.7. Sədr Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49.3-cü maddəsində müəyyən edilmiş vəzifələri yerinə yetirməyə borcludur.

**Maddə 17. Siyasi partiyanın nəzarət orqanı**

17.1. Nəzarət orqanı siyasi partiyanın nəzarət-təftiş kollegial orqanıdır. Qurultay nəzarət orqanının say tərkibini müəyyənləşdirir, üzvlərini seçir və səlahiyyətlərinə xitam verir.

17.2. Nəzarət orqanı:

17.2.1. siyasi partiyanın nizamnaməsinin və proqramının tələblərinin, partiya orqanlarının qərarlarının yerinə yetirilməsinə nəzarəti həyata keçirir;

17.2.2. partiyadaxili nizam-intizam və maliyyə məsələlərinə nəzarəti həyata keçirir;

17.2.3. siyasi partiyanın maliyyə-təsərrüfat fəaliyyətini təftiş edir;

17.2.4. nəzarətin və təftişin nəticələri barədə qurultayarası kollegial idarəetmə orqanına (həmin orqan olmadığı halda partiyanın sədrinə) məlumat verir;

17.2.5. fəaliyyəti barədə qurultay qarşısında hesabat verir;

17.2.6. növbədənkənar qurultayın çağırılması barədə siyasi partiyanın qurultayarası kollegial idarəetmə orqanına (həmin orqan olmadığı halda partiyanın sədrinə) müraciət edir;

17.2.7. siyasi partiya orqanlarının (qurultay istisna olmaqla) və struktur qurumlarının qərarlarının normativ hüquqi aktlara və siyasi partiyanın nizamnaməsinə uyğunluğunu bilavasitə yoxlayır, həmçinin onların hərəkət və ya hərəkətsizliyindən verilən şikayətlərə baxır.

17.3. Bu Qanunun 14.2-ci, 15.2-ci, 15.4-cü, 16.2-ci və 16.4-cü maddələri nəzərə alınmaqla, siyasi partiyanın nizamnaməsinə uyğun olaraq nəzarət orqanının səlahiyyətlərinə digər məsələlər də aid edilə bilər.

17.4. Nəzarət orqanının üzvü siyasi partiyanın digər orqanlarında və struktur qurumlarında təmsil oluna bilməz.

**Maddə 18. Siyasi partiyanın struktur qurumları**

18.1. Siyasi partiyada müvafiq istiqamətlər üzrə məşvərətçi qurumlar, siyasi partiyanın qərargahında cari işlərlə məşğul olmaq məqsədilə ayrıca bölmə (katiblik, aparat və s.), həmçinin yerli təşkilatlar yaradıla bilər.

18.2. Struktur qurumların təşkili qaydası və səlahiyyətləri, onların səlahiyyət müddətləri siyasi partiyanın nizamnaməsi ilə müəyyən edilir.

18.3. Yerli təşkilatın statusu Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq hüquqi şəxsin filialı statusuna bərabər tutulur.

18.4. Yerli təşkilat siyasi partiya tərəfindən Azərbaycan Respublikasının müvafiq inzibati ərazi vahidi üzrə yaradılır.

18.5. Yerli təşkilatın adında onu yaratmış partiyanın adına və yaradıldığı müvafiq inzibati ərazi vahidinin adına istinad olunmalıdır.

18.6. Yerli təşkilatın yuxarı orqanı ümumi yığıncaqdır (konfrans və s.). Ümumi yığıncaqda siyasi partiyanın yerli təşkilatında qeydiyyatda olan üzvlər iştirak edir. Ümumi yığıncaqda yerli təşkilatın fəaliyyətinə dair hesabat dinlənilir, siyasi partiyada müəyyən olunmuş nümayəndəlik normasına uyğun olaraq siyasi partiyanın qurultayına nümayəndələr seçilir və siyasi partiyanın nizamnaməsinə uyğun olaraq digər məsələlər həll edilir.

**Maddə 19. Siyasi partiyanın beynəlxalq əlaqələri**

19.1. Siyasi partiya digər ölkələrin siyasi partiyaları ilə əməkdaşlıq edə, o cümlədən sazişlər bağlaya bilər.

19.2. Siyasi partiya siyasi partiyaların beynəlxalq ittifaqlarına üzv ola bilər.

19.3. Siyasi partiya bu Qanunun 19.1-ci və 19.2-ci maddələrində nəzərdə tutulmuş hallarda müvafiq olaraq sazişin bağlandığı və ya üzvlüyə daxil olduğu tarixdən 30 gün müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) bu barədə məlumat verir.

### 4-cü fəsil
### Siyasi partiyada üzvlük məsələləri

**Maddə 20. Siyasi partiyada üzvlük**

20.1. Bu Qanunun 1.1.7-ci maddəsinin tələblərinə cavab verən şəxs siyasi partiyanın üzvü ola bilər. Şəxs yalnız bir siyasi partiyanın üzvü ola bilər. Dövlət qeydiyyatına alınmış siyasi partiyanın üzvü partiyanın yalnız bir yerli təşkilatında (olduğu halda) qeydiyyatda ola bilər.

20.2. Heç kəs hər hansı siyasi partiyaya daxil olmağa və ya onun üzvlüyündə qalmağa məcbur edilə bilməz.

20.3. Siyasi partiyaya üzvlük irqi, etnik, dini, dil, cinsi, mənşə, əqidə və sosial mənsubiyyətinə görə məhdudlaşdırıla bilməz.

20.4. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər siyasi partiyanın üzvü ola bilməzlər.

20.5. Azərbaycan Respublikası məhkəmələrinin hakimləri, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman), hərbi qulluqçular, həmçinin prokurorluq, ədliyyə, daxili işlər, gömrük, fövqəladə hallar, miqrasiya, xarici işlər, vergi orqanlarının xüsusi rütbəli əməkdaşları, İctimai Televiziya və Radio Yayımları Şirkətinin Yayım şurasının üzvləri, baş direktoru və onun müavinləri, Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin və Hesablama Palatasının üzvləri, din xadimləri, notariuslar siyasi partiyanın üzvü ola bilməzlər və siyasi partiyanın fəaliyyətində iştirak edə bilməzlər. Həmin şəxslər işə (xidmətə) başlamazdan qabaq siyasi partiyanın üzvlüyündən çıxmalıdırlar.

20.6. Bu Qanunun 20.5-ci maddəsində nəzərdə tutulmuş dövlət qulluğunun xüsusi növündə qulluq keçən şəxslər istisna olmaqla, digər dövlət qulluqçuları, həmçinin dövlət adından yaradılaraq müvafiq sahədə dövlət siyasətini həyata keçirən və hakimiyyət səlahiyyətinə (nəzarət, yoxlama, hüquqmüəyyənedici sənədlərin verilməsi və ya məsuliyyət tədbirlərinin tətbiqi) malik olan publik hüquqi şəxslərdə inzibati vəzifə tutan əməkdaşlar siyasi partiyanın üzvü ola bilərlər, lakin qulluq vəzifələrini icra etdiyi vaxtda siyasi partiyanın fəaliyyətində iştirak edə bilməzlər.

20.7. Həmkarlar ittifaqları birliklərinin sədrləri və ya onların müavinləri eyni zamanda siyasi partiyanın orqanında təmsil oluna bilməzlər.

20.8. Siyasi partiyanın bu Qanunun 5.1-ci maddəsində nəzərdə tutulmuş təsisçiləri partiyanın üzvləri hesab olunurlar.

20.9. Şəxsin siyasi partiyadakı üzvlüyünə aşağıdakı hallarda xitam verilir:

20.9.1. şəxs öz ərizəsinə əsasən siyasi partiyanın üzvlüyündən çıxdıqda;

20.9.2. şəxs öldükdə və ya məhkəmənin qərarı ilə ölmüş elan edildikdə;

20.9.3. şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına xitam verildikdə;

20.9.4. şəxs məhkəmənin qərarı ilə məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;

20.9.5. şəxs siyasi partiyadan xaric olunduqda.

20.10. Siyasi partiya üzvlərinin reyestrini (adı, soyadı, atasının adı, doğulduğu tarix, qeydiyyat ünvanı, qeydiyyatda olduğu partiyanın yerli təşkilatı (olduğu halda) və əlaqə telefon nömrəsi göstərilməklə) aparır.

**Maddə 21. Siyasi partiya üzvünün hüquqları**

21.1. Siyasi partiya üzvünün hüquqları bu Qanunun 21.2-ci maddəsi nəzərə alınmaqla onun nizamnaməsi ilə müəyyən edilir. Həmin hüquqlar Azərbaycan Respublikasının Konstitusiyasına və digər normativ hüquqi aktlarına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə zidd ola bilməz.

21.2. Siyasi partiya üzvünün aşağıdakı hüquqları vardır:

21.2.1. siyasi partiyanın nizamnaməsində müəyyən edilmiş qaydada siyasi partiya orqanlarının və struktur qurumlarının təşkilində iştirak etmək, həmçinin onlara seçilmək (təyin edilmək);

21.2.2. siyasi partiyanın orqanlarına və struktur qurumlarına sorğu, təklif, ərizə və şikayət ilə müraciət etmək və öz müraciətinə dair mahiyyəti üzrə cavab almaq, həmçinin onların fəaliyyəti haqqında məlumat almaq;

21.2.3. siyasi partiyanın nizamnaməsində və bu Qanunun 21.5-ci maddəsində nəzərdə tutulmuş qaydada siyasi partiya orqanlarının və struktur qurumlarının hərəkət və ya hərəkətsizliyindən şikayət etmək;

21.2.4. öz iradəsini sərbəst formada ifadə etmək;

21.2.5. siyasi partiyanın üzvlüyündən çıxmaq;

21.2.6. bu Qanuna, həmçinin Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına və siyasi partiyanın nizamnaməsinə uyğun olaraq digər hüquqları həyata keçirmək.

21.3. Şəxsin siyasi partiyadakı üzvlüyü və onun partiyanın fəaliyyətində iştirakı, həmçinin siyasi partiya üzvlüyünün olmaması onun hüquq və azadlıqlarının məhdudlaşdırılmasına (bu Qanunun 20.5-20.7-ci maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla), hər hansı imtiyazın verilməsinə və ya qanunla müəyyən edilmiş vəzifələrin icrasından imtinaya əsas ola bilməz.

21.4. Özü barədə rəsmi məlumatların təqdim edilməsi zamanı şəxsdən siyasi partiyadakı üzvlüyünə və ya üzvlüyünün olmamasına dair məlumatın göstərilməsinin tələb edilməsinə yol verilmir.

21.5. Siyasi partiya ilə üzvləri arasında yaranan mübahisələr partiyanın nizamnaməsində nəzərdə tutulmuş partiyadaxili qaydada həll olunur. Siyasi partiyanın üzvü siyasi partiyanın orqanlarının və struktur qurumlarının fəaliyyəti ilə bağlı, o cümlədən hərəkət və ya hərəkətsizliyindən şikayət etmək üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və məhkəməyə müraciət edə bilər.

**Maddə 22. Siyasi partiya üzvünün vəzifələri**

22.1. Siyasi partiya üzvünün vəzifələri bu Qanunun 22.2-ci maddəsi nəzərə alınmaqla onun nizamnaməsi ilə müəyyən edilir. Həmin vəzifələr Azərbaycan Respublikasının Konstitusiyasına və digər normativ hüquqi aktlarına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə zidd ola bilməz.

*Ardı 8-ci səh.*

# Siyasi partiyalar haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 7-ci səh.*

22.2. Siyasi partiya üzvünün aşağıdakı vəzifələri vardır:

22.2.1. siyasi partiyanın nizamnaməsi və proqramı ilə tanış olmaq;

22.2.2. siyasi partiyanın nizamnaməsində və proqramında göstərilmiş tələblərə əməl etmək;

22.2.3. siyasi partiya orqanlarının və struktur qurumlarının qanuni qərarlarını yerinə yetirmək;

22.2.4. siyasi partiyanın fəaliyyətində iştirak etmək;

22.2.5. üzvlük haqqını ödəmək;

22.2.6. siyasi partiyanın adına, məqsəd və vəzifələrinə xələl gətirən hərəkətlərə yol verməmək;

22.2.7. bu Qanunun 20.10-cu maddəsinə uyğun olaraq aparılan reyestrdə özünə aid olan məlumatlarda baş vermiş dəyişikliklər barədə siyasi partiyaya məlumat vermək;

22.2.8. bu Qanuna, həmçinin Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına və siyasi partiyanın nizamnaməsinə uyğun olaraq digər vəzifələri yerinə yetirmək.

### 5-ci fəsil
### Siyasi partiyanın fəaliyyətinin maddi təminatı

**Maddə 23. Siyasi partiyanın fəaliyyətinin maliyyələşdirilməsi**

23.1. Siyasi partiyanın fəaliyyəti aşağıdakı mənbələr hesabına maliyyələşir:

23.1.1. üzvlük haqqı;

23.1.2. ianə;

23.1.3. dövlət maliyyə yardımı;

23.1.4. bu Qanunun 12.1.11-ci və 12.1.12-ci maddələrində nəzərdə tutulmuş fəaliyyətdən əldə edilən gəlir;

23.1.5. mülki hüquq müqavilələri üzrə, o cümlədən əmlakından istifadə və onun satılmasından, borcun (kreditin) alınmasından əldə edilən vəsait;

23.1.6. hüquq varisliyi və vərəsəlik yolu ilə əldə edilən əmlak;

23.1.7. qanunla qadağan olunmayan digər gəlirlər.

23.2. Siyasi partiyanın aşağıdakılar tərəfindən maliyyələşdirilməsi, o cümlədən aşağıdakılardan ianələr qəbul etməsi qadağandır:

23.2.1. bu Qanunun 23.1.3-cü maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, dövlət orqanları (qurumları);

23.2.2. yerli özünüidarəetmə orqanları və onların tabeliyində olan qurumlar;

23.2.3. digər hüquqi şəxslər, o cümlədən ictimai birliklər və fondlar, dini qurumlar;

23.2.4. beynəlxalq təşkilatlar, xarici dövlətlər və xarici hüquqi şəxslər;

23.2.5. əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;

23.2.6. yetkinlik yaşına çatmamış şəxslər, fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən təsdiq edilmiş şəxslər;

23.2.7. adını, soyadını, atasının adını, doğulduğu tarixi, qeydiyyat ünvanını və əlaqə telefon nömrəsini göstərməyən fiziki şəxslər.

23.3. Üzvün siyasi partiyaya il ərzində ödədiyi üzvlük haqlarının yuxarı həddi minimum əmək haqqının 35 mislindən artıq ola bilməz. Üzvlük haqqının məbləğindən artıq ödənişlər ianə hesab edilir.

23.4. Siyasi partiya üzvlərinin bəzi kateqoriyasına (pensiyaçılar və digər sosial müdafiəyə ehtiyacı olanlara, tələbələr və s.) münasibətdə üzvlük haqlarının ödənilməsində imtiyaz və ya güzəşt müəyyən edə bilər.

23.5. Siyasi partiyanın sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəliri üzvləri arasında bölüşdürülmür və yalnız nizamnaməsi ilə müəyyən edilmiş məqsədlər üçün istifadə edilir.

23.6. Siyasi partiyanın Azərbaycan Respublikasının hüdudlarından kənarda istənilən növ (hər növ maliyyə təşkilatları daxil olmaqla) hesab açması qadağandır.

23.7. Siyasi partiya pul vəsaitini yalnız milli valyutada və nağdsız qaydada bank hesabına köçürmə yolu ilə qəbul edir.

23.8. Siyasi partiyanın aldıqları üzvlük haqları, ianələr və digər əvəzsiz köçürmələr Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq mənfəət vergisindən azad olunur.

**Maddə 24. İanə**

24.1. Siyasi partiya yalnız Azərbaycan Respublikasının vətəndaşlarından ianə qəbul edə bilər.

24.2. Siyasi partiya qəbul etdiyi və ya vəd edilən ianə müqabilində, ianə verən şəxsə və ya hər hansı digər şəxsə birbaşa, yaxud dolayı yolla maddi və sair nemət, hər hansı imtiyaz və ya güzəşt verə bilməz, belə təkliflə çıxış edə və ya belə vəd verə bilməz.

24.3. Siyasi partiyaya ianə verən şəxs verdiyi və verəcəyi ianə müqabilində özü və ya üçüncü şəxslər üçün birbaşa, yaxud dolayı yolla maddi və sair nemət, hər hansı imtiyaz və ya güzəşt tələb edə və ya qəbul edə bilməz, belə təklifə və ya vədə razılıq verə bilməz.

24.4. İanə pul vəsaiti və ya digər əmlak şəklində qəbul edilə bilər. Siyasi partiyanın əldə etdiyi aşağıdakı maddi yardım da ianə hesab olunur:

24.4.1. bazar qiyməti ilə müqayisədə imtiyazlı şərtlərlə verilmiş əmlakın (o cümlədən verilmiş borc (kredit) və s.), görülmüş işin və ya göstərilmiş xidmətin dəyərinin onun bazar qiymətindən aşağı olan hissəsi;

24.4.2. öhdəliyin zamin tərəfindən icrasına görə, həmçinin borcun bağışlanmasına, müddətin keçməsinə və ya öhdəliyin bilavasitə siyasi partiya tərəfindən icra edilməsi ilə bağlı olmayan digər hallara görə onun xitamı nəticəsində əldə olunan pul vəsaiti və ya digər əmlak (onun dəyəri).

24.5. Şəxsin bir və ya bir neçə partiyaya il ərzində verdiyi ianələrin yuxarı həddi minimum əmək haqqının 35 mislindən artıq ola bilməz. Digər əmlak şəklində qəbul edilmiş ianənin dəyəri bazar qiyməti ilə müəyyən edilir.

24.6. Siyasi partiya qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər, həmçinin bu Qanunun 24.4.1-ci və 24.4.2-ci maddələrində nəzərdə tutulmuş hallar barədə məlumatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim edir. Barəsində məlumat təqdim edilməmiş ianə üzrə siyasi partiya tərəfindən bank əməliyyatları və hər hansı digər əməliyyat aparıla bilməz.

24.7. Siyasi partiya bu Qanunun tələblərini pozmaqla qəbul etdiyi ianəni onu qəbul etdiyi gündən və ya ianəni tələbləri pozmaqla qəbul etməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının məlumatının daxil olduğu tarixdən 30 gün müddətində geri qaytarmalı, bu mümkün olmadığı halda onu dövlət büdcəsinə köçürməlidir.

**Maddə 25. Siyasi partiyaya dövlət maliyyə yardımı**

25.1. Siyasi partiyanın fəaliyyətinin bu Qanunun 25.2-ci maddəsinə uyğun olaraq maliyyələşdirilməsi üçün dövlət tərəfindən maddi yardım ayrılır və bu məqsədlə hər il dövlət büdcəsində ayrıca sətirlə göstərilməklə vəsait nəzərdə tutulur.

25.2. Bu Qanunun 25.1-ci maddəsində nəzərdə tutulan vəsait (bundan sonra - vəsait) yeni çağırış Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş seçkilərdə iştirak edərək etibarlı səslər qazanmış siyasi partiyalara qazanılmış etibarlı səslərin sayı barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının məlumatı əsasında Azərbaycan Respublikasının Milli Məclisi səlahiyyətli tərkibdə formalaşdırıldığı gündən etibarən ayrılır və siyasi partiyalar arasında aşağıdakı qaydada bölünərək bu Qanunun 25.7-ci maddəsinə uyğun olaraq rüblər üzrə onların bank hesabına köçürülür:

25.2.1. vəsaitin 40 faizi Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan siyasi partiyalar arasında bərabər bölünür;

25.2.2. vəsaitin 50 faizi Azərbaycan Respublikası Milli Məclisinin say tərkibinə bölünür və bunun nəticəsində alınan məbləğ Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan siyasi partiyalardan seçilmiş deputatların sayına vurulmaqla müəyyən edilmiş məbləğ həmin siyasi partiyalara ayrılır. Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş təkrar və əlavə seçkilər nəticəsində, həmçinin fəaliyyətdə olan deputatların partiya mənsubiyyətinin yaranması (dəyişməsi) ilə əlaqədar, habelə digər səbəblərdən Azərbaycan Respublikasının Milli Məclisində siyasi partiyaları təmsil edən deputatların sayı artdıqda və ya azaldıqda bu vəsaitin həmin siyasi partiyalara ayrılması zamanı da bu maddənin birinci cümləsində nəzərdə tutulmuş qayda tətbiq olunur. Bu maddənin birinci cümləsində siyasi partiyalar üçün nəzərdə tutulmuş vəsaitin müvafiq rüb üzrə istifadə olunmamış hissəsi həmin rübün sonunda Azərbaycan Respublikasının Milli Məclisində siyasi partiyaları təmsil edən deputatların sayına uyğun olaraq proporsional qaydada siyasi partiyalara ayrılır;

25.2.3. vəsaitin 5 faizi Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş təkrar və əlavə seçkilər nəticəsində, həmçinin fəaliyyətdə olan deputatların partiya mənsubiyyətinin yaranması (dəyişməsi) ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan yeni siyasi partiyalara bu Qanunun 25.2.1-ci maddəsinə əsasən aparılmış bölgü nəticəsində hər bir siyasi partiyanın müvafiq rüb üzrə payına düşən həcmdə ayrılır;

25.2.4. vəsaitin 2,5 faizi irəli sürdüyü namizədlər Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş seçkilərdə etibarlı səslər qazanmış, lakin Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunmayan siyasi partiyalar arasında bərabər bölünür;

25.2.5. vəsaitin 2,5 faizi bu Qanunun 25.2.4-cü maddəsində nəzərdə tutulmuş siyasi partiyalar arasında qazanılmış səslərin sayına uyğun olaraq proporsional qaydada bölünür.

25.3. Bu Qanunun 25.2.4-cü və 25.2.5-ci maddələrinə uyğun olaraq siyasi partiyaya ayrılan illik dövlət maliyyə yardımının yuxarı həddi həmin partiyanın bu Qanunun 27-ci maddəsinə əsasən təqdim etdiyi maliyyə hesabatında göstərilən illik daxilolmalarının (dövlət maliyyə yardımı çərçivəsində ayrılmış vəsait nəzərə alınmadan) iki mislindən çox ola bilməz.

25.4. Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş təkrar və əlavə seçkilər nəticəsində Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan yeni siyasi partiyalara bu Qanunun 25.2.3-cü maddəsinə uyğun olaraq ayrılacaq vəsait həmin seçkilərin yekunları Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən təsdiq edildiyi tarixdən sonrakı rübdən hesablanır.

25.5. Fəaliyyətdə olan deputatların partiya mənsubiyyətinin yaranması (dəyişməsi) ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan yeni siyasi partiyalara deputatların sayına görə ayrılacaq vəsait həmin deputatların:

25.5.1. dövlət qeydiyyatından keçmiş siyasi partiyanın üzvü kimi qeydə alındığı tarixdən sonrakı rübdən və ya;

25.5.2. üzv olduğu siyasi partiyanın dövlət qeydiyyatına alındığı tarixdən sonrakı rübdən hesablanır.

25.6. İl ərzində bu Qanunun 25.2.3-cü maddəsinin tətbiqi zamanı vəsait çatışmazlığı yarandıqda həmin çatışmazlıq bu Qanunun 25.1-ci maddəsinə uyğun olaraq dövlət büdcəsindən siyasi partiyalara ayrılmış vəsaitin istifadə edilməmiş hissəsi hesabına, istifadə olunmamış hissə mövcud olmadıqda və ya kifayət etmədikdə isə dövlət büdcəsinin ehtiyat mənbələrindən əlavə maliyyə yardımının ayrılması hesabına aradan qaldırılır.

25.7. Bu Qanunun 25.1-ci maddəsinə uyğun olaraq dövlət büdcəsindən ayrılan vəsait müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bu Qanunun 25-ci maddəsinin tələbləri nəzərə alınmaqla, rüblər üzrə bərabər hissələrlə siyasi partiyanın bank hesabına köçürülür. Siyasi partiyalara dövlət maddi yardımının verilməsi üçün vəsaitin rüblük bölgüsü aparıldıqdan sonra rüb üzrə ayrılan vəsaitin istifadə olunmamış hissəsi (bu Qanunun 25.2.2-ci maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş vəsait istisna olmaqla) bu Qanunun 25.6-cı maddəsi üzrə il ərzində yarana biləcək öhdəliklər nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən hər rübün sonunda Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan siyasi partiyalar arasında bərabər bölünür.

25.8. Siyasi partiyalar Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş son seçkilərdə siyasi partiyalar bloku tərkibində iştirak etdikdə, dövlət büdcəsindən ayrılan vəsait bu Qanunun 25.2-ci maddəsində nəzərdə tutulmuş qaydada hər bir siyasi partiyaya ayrıca verilir.

25.9. Siyasi partiya dövlət büdcəsindən ayrılan vəsaitdən imtina etdikdə həmin vəsait bu Qanunun 25.7-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq istifadə olunur.

**Maddə 26. Siyasi partiyanın əmlakı**

26.1. Siyasi partiyanın mülkiyyətində və istifadəsində onun fəaliyyətini təmin etmək üçün lazım olan qanunla qadağan olunmayan istənilən əmlak ola bilər.

26.2. Siyasi partiyanın əmlakından yalnız nizamnaməsindən və proqramından irəli gələn məqsəd və hədəflərə nail olunması, habelə vəzifələrin həyata keçirilməsi üçün istifadə edilir.

26.3. Siyasi partiyanın üzvləri partiyanın əmlakına münasibətdə hüquqlara malik deyillər.

26.4. Siyasi partiyanın mülkiyyətində sənaye müəssisələri, kooperativlər, həmçinin istehsal müəssisələri (bu Qanunun 12.2-ci maddəsində nəzərə tutulmuş hallarda istisna olmaqla) ola bilməz.

26.5. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) siyasi partiyanın əsaslandırılmış müraciəti əsasında və mövcud imkanlar daxilində onun qərargahla təmin olunması üçün tədbirlər görür.

**Maddə 27. Siyasi partiyanın maliyyə hesabatı**

27.1. Siyasi partiya bu Qanunla müəyyən edilmiş tələbləri nəzərə almaqla "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mühasibat uçotunu aparır və maliyyə hesabatını tərtib edir.

27.2. Siyasi partiya tərəfindən illik maliyyə hesabatı auditor rəyi ilə birlikdə hər il aprel ayının 1-dən gec olmayaraq Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim edilir.

27.3. Maliyyə hesabatında, o cümlədən üzvlük haqqı ödəyən siyasi partiya üzvlərinin sayı, həmçinin siyasi partiyanın qəbul etdiyi ianələrin məbləği qeyd edilir.

27.4. Siyasi partiyanın maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

27.5. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının müraciəti əsasında siyasi partiya maliyyə fəaliyyətinə dair əlavə məlumatları və sənədləri təqdim etməlidir.

27.6. Siyasi partiya illik maliyyə hesabatını auditor rəyi ilə birlikdə mediada dərc etdirir. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası siyasi partiyanın illik maliyyə hesabatını özünün rəsmi internet səhifəsində yerləşdirir.

27.7. Maliyyə hesabatı müvafiq qaydada təqdim edilmədikdə siyasi partiyaya həmin ilin qalan rübləri üzrə dövlət maliyyə yardımı ödənilmir. Qeyd edilən pozuntu növbəti ildə təkrarlandığı halda siyasi partiyaya həmin ilin qalan rübləri üzrə, həmçinin növbəti 1 il ərzində dövlət maliyyə yardımı ödənilmir.

**Maddə 28. Siyasi partiyanın maliyyə fəaliyyətinin yoxlanılması**

28.1. Siyasi partiya tərəfindən dövlət maliyyə yardımının xərclənməsinin yoxlanılması Azərbaycan Respublikasının Hesablama Palatası tərəfindən həyata keçirilir.

28.2. Siyasi partiyanın digər maliyyə fəaliyyətinin yoxlanılması Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən həyata keçirilir.

### 6-cı fəsil
### Yekun müddəalar

**Maddə 29. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərinin pozulmasına görə şəxslər Azərbaycan Respublikasının Mülki Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi və Cinayət Məcəlləsi ilə müəyyən edilmiş hallarda məsuliyyət daşıyırlar.

**Maddə 30. Keçid müddəalar**

30.1. Bu Qanun qüvvəyə minənədək dövlət qeydiyyatına alınmış siyasi partiya bu Qanunun qüvvəyə mindiyi tarixdən 180 gün müddətində üzvlərinin sayının bu Qanunun 6.1-ci maddəsində nəzərdə tutulmuş saya çatdırılması üçün tədbirlər görür və bu Qanunun 20.10-cu maddəsinə uyğun olaraq üzvlərinin reyestrini tərtib edərək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir.

30.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) siyasi partiya üzvlərinin reyestri təqdim olunduğu tarixdən 30 gün müddətində onun bu Qanunun 6.1-ci və 20.10-cu maddələrinin tələblərinə uyğunluğunu yoxlayır. Siyasi partiya üzvlərinin reyestrində çatışmazlıqlar aşkar edildikdə, onun təqdim olunduğu tarixdən 30 gündən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) onların aradan qaldırılması barədə məlumatı siyasi partiyaya təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir. Bütün çatışmazlıqlar eyni zamanda bildirilməlidir.

30.3. Bu Qanunun 30.2-ci maddəsində nəzərdə tutulmuş məlumat daxil olduğu tarixdən 30 gün müddətində siyasi partiya üzvlərinin reyestrində aşkar edilmiş çatışmazlıqları aradan qaldıraraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) reyestri təqdim edir.

30.4. Təqdim edilmiş siyasi partiya üzvlərinin reyestrində çatışmazlıqlar aşkar edilmədikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun 30.2-ci və ya 30.3-cü maddəsinə uyğun olaraq reyestrin təqdim olunduğu tarixdən 30 gün müddətində bu barədə məlumatı siyasi partiyaya təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir.

30.5. Bu Qanunun 30.4-cü maddəsində nəzərdə tutulmuş məlumat daxil olduğu tarixdən 90 gün müddətində siyasi partiya nizamnaməsini və proqramını bu Qanunun tələblərinə uyğunlaşdırır, proqramı olmadığı halda onu qəbul edir və nizamnaməsində və proqramında edilmiş dəyişiklikləri, yaxud yeni nizamnaməni və proqramı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir.

30.6. Bu Qanunun 30.1-ci, 30.3-cü və 30.5-ci maddələrinin tələblərinə əməl olunmadıqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun 7.4-cü və 9.3.4-cü maddələrinə uyğun olaraq tədbir görür.

30.7. Bu Qanunun 25.2.4-cü və 25.2.5-ci maddələrində nəzərdə tutulmuş dövlət maliyyə yardımı bu Qanun qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək seçkilərdə etibarlı səslər qazanmış, lakin Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunmayan siyasi partiyalara ayrılır.

30.8. Bu Qanun qüvvəyə mindiyi gündən "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 11, maddə 387, № 12, maddə 454; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 226; 2001, № 11, maddə 683; 2002, № 8, maddə 463; 2004, № 2, maddə 57, № 5, maddə 321, № 8, maddə 598; 2005, № 4, maddə 278, № 6, maddə 464; 2006, № 3, maddə 225; 2007, № 11, maddələr 1049, 1053; 2010, № 4, maddə 276; 2012, № 5, maddə 414; 2014, № 11, maddə 1332; 2015, № 4, maddə 366; 2017, № 5, maddə 684; 2018, № 6, maddə 1158, № 7 (I kitab), maddələr 1406, 1429; 2020, № 12 (I kitab), maddə 1443) ləğv edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 dekabr 2022-ci il*

---

# "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 693-VIQ nömrəli Qanununun tətbiqi və "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 20 aprel tarixli 346-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 625 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 693-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1."Siyasi partiyalar haqqında" Azərbaycan Respublikası Qanununun 5.4-cü maddəsinin birinci cümləsində, 5.5-ci maddəsində, 5.6-cı və 5.7-ci maddələrinin birinci cümlələrində, 5.8-ci, 6.2-ci, 6.4-cü maddələrində, 7.1-ci maddəsinin birinci abzasının birinci və ikinci cümlələrində, 7.2-ci və 7.3-cü maddələrinin birinci abzaslarında, 7.4-cü maddəsində, 7.5-ci maddəsinin üçüncü cümləsində, 8.2-ci maddəsində, 8.3-cü maddəsinin birinci (hər iki halda) və üçüncü cümlələrində, 8.7-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 8.9-cu maddəsində (hər iki halda), 9.3-cü maddəsinin birinci abzasında, 9.5-ci, 9.6-cı, 10.6-cı, 13.6-cı, 19.3-cü maddələrində, 21.5-ci maddəsinin ikinci cümləsində, 24.6-cı maddəsinin birinci cümləsində, 25.7-ci maddəsinin birinci və ikinci cümlələrində, 26.5-ci, 27.4-cü, 30.1-ci maddələrində, 30.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 30.3-cü, 30.4-cü, 30.5-ci və 30.6-cı maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2.həmin Qanunun 24.6-cı maddəsinin birinci cümləsində və 27.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3.həmin Qanunun 5.4-cü maddəsinin birinci cümləsində, 5.5-ci maddəsində, 5.6-cı və 5.7-ci maddələrinin birinci cümlələrində, 5.8-ci, 6.2-ci, 6.4-cü maddələrində, 7.1-ci maddəsinin birinci abzasının birinci və ikinci cümlələrində, 7.2-ci və 7.3-cü maddələrinin birinci abzaslarında, 7.4-cü maddəsində, 7.5-ci maddəsinin üçüncü cümləsində, 8.2-ci maddəsində, 8.3-cü maddəsinin birinci (hər iki halda) və üçüncü cümlələrində, 8.7-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 8.9-cu maddəsində (hər iki halda), 9.3-cü maddəsinin birinci abzasında, 9.5-ci, 9.6-cı, 10.6-cı, 13.6-cı, 19.3-cü maddələrində, 21.5-ci maddəsinin ikinci cümləsində, 30.1-ci maddəsində, 30.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 30.3-cü, 30.4-cü, 30.5-ci və 30.6-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur;

1.4.həmin Qanunun 25.7-ci maddəsinin birinci və ikinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

1.5.həmin Qanunun 26.5-ci maddəsində "orqan (qurum)" dedikdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanun layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. üç ay müddətində:

2.2.1. həmin Qanunun 24.6-cı maddəsinə uyğun olaraq siyasi partiyaların qəbul etdikləri ianələrin məbləği və ianəni vermiş şəxslər, həmçinin həmin Qanunun 24.4.1-ci və 24.4.2-ci maddələrində nəzərdə tutulmuş hallar barədə məlumatların təqdim edilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2.2. həmin Qanunun 27.4-cü maddəsinə uyğun olaraq, siyasi partiyanın maliyyə hesabatının formasını, məzmununu və təqdim edilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.3. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 20 aprel tarixli 346-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 625 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 418; 2014, № 11, maddə 1380) 2-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 yanvar 2023-cü il*

# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

## Laçın-Xankəndi yolu tarixi günlərə şahidlik edir

### Şaxtalı və qarlı havaya baxmayaraq, azərbaycanlı fəallar sərvətlərimizin keşiyini çəkirlər





Rusiya sülhməramlılarının müvəqqəti nəzarət zonasındakı "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qeyri-qanuni istismarı əleyhinə fəalların etiraz aksiyası artıq bir aydır ki, davam edir. Ötən il dekabrın 12-dən başlayan Laçın-Xankəndi yolunda "Ekoterrora son!", "Təbiəti qoruyaq!", "Mina terroruna son!", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!" kimi şüarlarla müşayiət edilən aksiyaya minlərlə vətənaş qoşulub.

Bu aksiya Azərbaycan ictimaiyyətinin haqlı narazılığının göstəricisi, milli birliyimizin bariz nümunəsidir. Fəallar nəticə əldə olunana qədər aksiyanı davam etdirəcəklərini bəyan edir, sərvətlərimizin keşiyində dayanmağı özlərinə borc bilirlər. Havanın qarlı-şaxtalı olmasına baxmayaraq, iştirakçıların etirazları davam etdirmələri xalqımızın sarsılmaz əzmkarlığından xəbər verir.

#### Sarsılmaz iradənin ifadəsi

Milli Məclisin deputatı Fazil Mustafa aksiyanın bir aydır ki, davam etdirilməsini müsbət qiymətləndirib. Deputat qeyd edib ki, bu cür diplomatik manevrlər faydalıdır. "Fəallarımızın bu legitim aksiyası hesabına xeyli uduş əldə olundu. Xüsusilə də aksiya iştirakçılarının toplaşdığı ərazidən keçən Laçın yolunda hansısa humanitar yükə maneə yaradılmaması, ağır vəziyyətdə olan erməni vətəndaşa kömək edilməsi, eləcə də Rusiya sülhməramlıları ilə münasibətlərin pozulmaması yüksək qiymətləndirilməlidir. Bu, azərbaycanlı fəalların - QHT nümayəndələrinin, ekoloqların və jurnalistlərin fədakarlığı, sınmaz iradəsi nəticəsində baş verdi. Fikrimcə, bu diplomatik manevr elə bundan sonra da ağıllı və düşünülmüş formada davam etdirilməlidir", - deyə deputat bildirib.

F.Mustafa deyib ki, Laçın yoluna nəzarətin Azərbaycana keçməsinin vacibliyini göstərmək üçün bütün mümkün diplomatik üsullardan istifadə edilməlidir: "Biz Laçın yolunda Azətbaycanın nəzarət mexanizminin olmasının vacibliyini qəbul etdirməliyik. Əslində, aksiya nəticəsində bunun faktiki olaraq qəbul edildiyini deyə bilərik. Təsadüfi deyil ki, ermənilər aksiyaya qədər həmin yolla silah-sursat və təbii sərvətlərimizi daşıyırdılarsa, indi bunu edə bilmirlər. Sadəcə olaraq, humanitar yüklərin daşınmasına məhdudiyyət qoyulmadan Laçın yoluna nəzarət imkanlarımız artıq hüquqi cəhətdən də tamamilə bərpa edilməlidir. Bu mənada xarici işlər naziri Ceyhun Bayramovun BMT-yə ünvanlanmış məktubu, Prezident İlham Əliyevin mövzu ilə bağlı qətiyyətli mesajları, eləcə də digər manevrlər vaxtında atılmış diplomatik addımlardır".

#### Aksiyanın məqsədi blokada deyil

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov bildirib ki, Laçın-Xankəndi yolunda fəalların aksiyası ilk gündən əzmkarlıqla davam etdirilir: "Ötən gün Prezident İlham Əliyev də yerli televiziya kanallarına müsahibəsində prosesi və iştirakçıların əzmini yüksək qiymətləndirib. Dövlət başçısı qeyd edib ki, çətin hava şəraitində davam edən aksiyalar Azərbaycan gəncinin nə qədər yüksək keyfiyyətlərə malik olmasını bütün dünyaya göstərir. Amma ekoloji terrora və Azərbaycanın sərvətlərinin talanmasına etiraz olaraq keçirilən aksiyanı erməni və fransız təbliğat maşını fərqli formada təqdim edərək dünya ictimaiyyətində yanlış rəy formalaşdırmağa çalışırlar. Prezident müsahibəsində bu məsələyə də nöqtə qoyaraq bir daha bəyan etdi ki, "bizim məqsədimiz blokada deyil". Həqiqətən də, humanitar məqsədli yüklər gün ərzində Laçın yolundan sərbəst şəkildə buraxılır və aidiyyəti strukturlarımız, eləcə də sülhməramlılar tərəfindən bununla bağlı gündəlik yazılı və vizual qeydiyyat rəsmiləşdirilir. Bütün bunların fonunda blokadadan danışanlar, deməli, Xankəndiyə silah-sursat daşınmasının qarşısının alınmasından, iranlı diversantların və sabitlik üçün digər təhlükəli ünsürlərin bölgəyə gəlişinə son qoyulmasından narahatdırlar. Onlar dolayısı ilə separatçıların, qanunsuz silahlı birləşmələrin və quldur dəstələrinin güclənməsində maraqlıdırlar".

Deputat Qarabağda aşkarlanan 2021-ci il Ermənistan istehsalı olan minaların da məhz Laçın yolu ilə daşındığını xatırladıb. Vurğulayıb ki, bu mənada fəalların aksiyalarını blokada kimi təqdim etməyə çalışanlar, əslində, sülh və insanlıq əleyhinə əməllərin və müharibə cinayətlərinin davamlılığında maraqlıdırlar. Amma Prezident İlham Əliyevin də ifadə etdiyi kimi, ermənilər və onların havadarları heç nə əldə etməyəcəklər.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Milli etirazın təntənəsi

### Vətəndaş cəmiyyəti fəallarının və gənclərimizin Laçın-Xankəndi yolunda keçirdikləri aksiyanın başlanmasının bir ayı tamam oldu

*Əvvəli 1-ci səh.*

#### Haqq mübarizəsi

2022-ci il dekabrın 3-dən etibarən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər törəmə fəsadlarla bağlı sülhməramlı kontingentin komandanlığı ilə danışıqlar aparıblar.

Danışıqlara əsasən, dekabrın 10-da Azərbaycan mütəxəssislərinin faydalı qazıntı yataqlarına, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarına yerində baxışı və müxtəlif istiqamətlər üzrə monitorinqi, əmlakın kadastr uçotunun təşkili, ətraf mühitə, yeraltı və yerüstü su mənbələrinə potensial zərərin və risklərin qiymətləndirilməsi nəzərdə tutulmuşdu. Lakin heyət Rusiya sülhməramlılarının müşayiəti ilə sözügedən yataqların yerləşdiyi ərazilərə gəlsələr də, nəzərdə tutulan ilkin baxış və monitorinqə sülhməramlılar süni əngəl yaradıblar.

Buna görə də dekabrın 12-dən Azərbaycanın ictimaiyyət nümayəndələri Laçın-Xankəndi yolunda etiraz aksiyasına başlayıblar. Bir aydır ki, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycanın Qarabağ iqtisadi rayonunda təbii sərvətlərimizin qeyri-qanuni istismarı, habelə ekoloji vəziyyətin pisləşməsi ilə bağlı ilkin monitorinq məqsədilə dövlət qurumlarının nümayəndələrinin və mütəxəssislərin əraziyə girişinə maneçilik törədilməsi səbəbindən əksəriyyətini gənclər təşkil edən vətəndaş cəmiyyəti nümayəndələri və ekoloqlar etiraz aksiyası keçirirlər.

"Ekoterrora son!", "Mina terroruna son", "Ermənilər beynəlxalq konvensiyalara riayət etmirlər!", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!" kimi şüarlar səsləndirərək gecə-gündüz qara, şaxtaya baxmadan aksiyalarını davam etdirən ekofəallarımız haqlı tələbləri yerinə yetirilənə qədər bu etirazlarından çəkinməyəcəklərini qətiyyətlə nümayiş etdirirlər. Xalqımız isə ötən il dekabrın 12-dən millətimizin ümumi etirazının ifadəçilərinə, vətən sevdalı gənclərimizə, ictimaiyyət nümayəndələrinə yaxından dəstək nümayiş etdirir.

#### Qanunsuz istismar dayandırıldı

Vətəndaş cəmiyyətimizin üzvlərinin dekabrın 12-dən Laçın-Xankəndi yolunda keçirdikləri etiraz aksiyası qısa müddət ərzində öz nəticəsini verməyə başladı. Belə ki, dekabrın sonlarına doğru, Azərbaycanın Qarabağ bölgəsində qızıl və mis-molibden yataqlarını qanunsuz istismar edən "Base Metals" şirkəti fəaliyyətini dayandırması ilə bağlı məlumat yaydı.












Məlumatda azərbaycanlı ekofəalların Laçın-Xankəndi yolunda keçirdiyi aksiya ilə əlaqədar şirkət rəhbərliyinin mədən fəaliyyətlərini müvəqqəti dayandırdığı və ekoloji ekspertizanın keçirilməsi üçün beynəlxalq təşkilatlara müraciət etmək qərarına gəldiyi öz əksini tapmışdı. Qeyd olunmuşdu ki, BMT-nin müvafiq strukturlarına və digər aidiyyəti təşkilatlara qısa müddətdə ekspertizanın təşkil edilməsi üçün müraciət edilib.

Aksiyanın qətiyyətli tələblərindən biri də bu yoldan hərbi məqsədlər, minaların, silah-sursatın və talan olunan təbii sərvətlərin daşınması məqsədilə istifadə edilməsinə son qoyulmasıdır. Çünki üçtərəfli Bəyanatda da Laçın yolunun yalnız humanitar məqsədlər üçün istifadə edilməli olduğu razılaşdırılıb.

Ermənistan isə hər zaman olduğu kimi, yenə də riyakarlıq edərək, Azərbaycan ictimaiyyətinin haqlı narazılığını nümayiş etdirdiyi dinc etiraz aksiyası barədə, guya, Laçın yolunun bağlanması, bölgədə humanitar fəlakət yaşanması kimi qərəzli, böhtan və yalan xarakterli məlumatlar yayır.

Lakin Laçın-Xankəndi yolundan hər gün xeyli sayda humanitar yükləri daşıyan avtomobillərin sərbəst keçidi bu iddiaların yalan olmasını bir daha təsdiq edir. Bu həm də onu göstərir ki, ötən il dekabrın 12-dən ekofəalların və könüllülərin iştirakı ilə keçirilən dinc etiraz aksiyası sayəsində Laçın yolundan öz təyinatı üzrə, yalnız humanitar məqsədlərlə istifadə edilməsinə nail olunub. Başqa sözlə, daha Laçın yolundan Ermənistanın hərbi məqsədlər üçün istifadəsinə, Azərbaycana qarşı təxribatlar törətməsinə imkan verilmir.

#### Fransanın BMT rüsvayçılığı

Yeri gəlmişkən, Vətən müharibəsində Azərbaycanın qalib gəlməsini hələ də həzm edə bilməyən bəzi ermənipərəst ölkələr, xüsusilə də Fransa ekofəallarımızın Laçın-Xankəndi yolunda keçirdiyi dinc aksiyanı erməni yalanlarına uyğun, "Laçın yolunun bağlanması", "humanitar fəlakət" yaşanması kimi təqdim etməyə çalışır. Hətta bu riyakar ölkə bununla bağlı Azərbaycan əleyhinə qətnamə qəbul etdirməyə də çalışdı. Ötən il dekabrın 20-21-də Fransa və Ermənistan Laçın yolundakı vəziyyətlə bağlı BMT Təhlükəsizlik Şurasının (TŞ) iclasının çağırılmasını istədilər və bu qlobal ali qurum ermənilərin müraciəti və Fransanın istəyi ilə iclas keçirdi. Müzakirələr nəticəsində Laçın-Xankəndi yolundakı vəziyyəti "humanitar fəlakət" kimi təqdim edən ermənipərəst mətn hazırlansa da, Fransa istəyinə çata bilmədi, qərəzli və ədalətsiz qətnamə qəbul edilmədi.

Prezident İlham Əliyevin qətiyyətli və düşünülmüş siyasətinin nəticəsi olaraq Fransa BMT TŞ-də rüsvayçı məğlubiyyətə uğradıldı. Fransa-Ermənistan cütlüyünün Azərbaycana qarşı hazırladığı qərəzli mətn ölkəmizin haqlı mövqeyini dəstəkləyən ölkələr tərəfindən rədd edildi.

#### Ədalətli tələblərimiz tam Zəfər çalacaq

Reallıq budur ki, erməni sakinlərin Laçın-Xankəndi yolundan istifadə etməklə sərbəst hərəkətinə heç bir maneə yoxdur. Yanvarın 10-da yerli televiziya kanallarına müsahibə verən Prezident İlham Əliyev də söylədi ki, məqsədimiz blokada deyil. "Ona görə bu, sadəcə olaraq, növbəti anti-Azərbaycan şousudur, mən buna başqa ad verə bilmərəm. Ermənilər və onların havadarları hesab edirlər ki, bizə qarşı bundan istifadə etməklə nə isə əldə edəcəklər. Heç nə əldə etməyəcəklər", - deyə dövlət başçısı bildirib. Dövlət başçısı onu da qeyd edib ki, bizim tələblərimiz tam ədalətlidir. Monitorinq, təftiş, qanunsuz istismarın dayandırılması tələb edilir və biz buna nail olacağıq.

Azərbaycan ehtiyac olacağı təqdirdə ölkəmizin Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərə yardım göstərəcəyini dəfələrlə bildirib. Bu yaxınlarda bir erməniyə yardım edilməsi də buna əyani sübutdur. "Mən demişəm, bir daha demək istəyirəm ki, orada Azərbaycan bayrağı altında yaşamaq istəyənlər üçün şərait yaradılacaq. Azərbaycan vətəndaşları kimi, onların hüquqları da, onların təhlükəsizliyi də təmin olunacaq", - deyən dövlət başçısı bildirib ki, bu hadisə onu göstərir ki, biz onların nəinki hüquqlarını və təhlükəsizliyini təmin edəcəyik, onlar daha yaxşı yaşayacaqlar.

Bütün bunlar bir daha göstərir ki, Cənubi Qafqazda sülhün, əmin-amanlığın, təhlükəsizliyin baş ünvanı Azərbaycandır. Ölkəmizdə yaşayan ermənilərin də təhlükəsizliyinin, hüquqlarının təmini ilə yanaşı, yaxşı yaşamalarına şərait yaradılacaq. Eyni zamanda Azərbaycan vətəndaşı olmaq istəməyənlər üçün də yollar bağlanmayacaq. Necə ki, Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsi zamanı bildirdi: "...Gedə bilərlər, ya özləri gedə bilərlər, heç kim onlara maneçilik yaratmayacaq, ya da sülhməramlıların yük maşınlarının tenti altında gedə bilərlər, avtobusla da gedə bilərlər. Yol açıqdır".

Azərbaycan hər zaman ədalətli və haqlı mövqeyini təmin etməyi bacarır, istər hərbi, istərsə də siyasi-diplomatik yolla və Vətən müharibəsi bunun bariz sübutudur. Ötən bir ayda Laçın-Xankəndi yolunda əzmlə davam edən aksiya göstərir ki, vətən eşqi tükənməzdir. Milli mənafelərimizin bərpası naminə Azərbaycan vətəndaş cəmiyyətinin bir yumruq kimi birləşərək qalxdığı etiraz aksiyası da tələblərimizin yerinə yetirilməsi, haqqın və ədalətin qalib gəlməsi ilə nəticələnəcək. Bu vətəndaş həmrəyliyi bizi bütün tələblərimizin yerinə yetirildiyi qalibiyyətə daşıyacaq.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Xankəndidəki ermənilər ümid edirlər: "İlham Əliyevin sayəsində xoş gün görə bilərik"

**Qarabağda qalan ermənilərin taleyinin müəyyənləşdirdiyi yeganə tərəfin Azərbaycan olacağı bu gün Ermənistanın özündə, erməni dairələrində də açıq etiraf olunur.**

Prezident İlham Əliyevin "..Mən demişəm, bir daha demək istəyirəm ki, orada Azərbaycan bayrağı altında yaşamaq istəyənlər üçün şərait yaradılacaq... Ona görə kim bizim vətəndaş olmaq istəmirsə, yol bağlı deyil, açıqdır. Gedə bilərlər, ya özləri gedə bilərlər, heç kim onlara maneçilik yaratmayacaq, ya da sülhməramlıların yük maşınlarının tenti altında gedə bilərlər, avtobusla da gedə bilərlər. Yol açıqdır" - fikirləri geniş müzakirə predmetinə çevrilib.

Azərbaycan Prezidentinin fikirləri Xankəndidə ajiotaja səbəb olub, Ermənistanda böyük şok və xof yaradıb. Xankəndidə yaşayan erməni sosial şəbəkə istifadəçilərinin statusları, şərhləri və mövqelərindən görünür ki, onlar özlərinin xilas yolunu Azərbaycan vətəndaşlığında görürlər. Daha aydın görürlər ki, onların rifahı, ümumiyyətlə, varlıqları Azərbaycandan asılıdır.

İrina Babayan adlı biri instaqramda Prezident İlham Əliyevin açıqlamalarının yer aldığı xəbərə maraqlı bir şərhlə diqqət çəkib: "Acı reallıq olsa da, qəbul edək ki, aclıq Stepanakertdə (red.Xankəndi) bu ay çox hiss olunur. Vardanyanın aktyorluğuna yalnız Moskvada inanırlar. İlham Əliyev xilas formulunu açıq şəkildə deyir. İstəyiriksə, vətəndaşlığı qəbul etməliyik. 30 ildə itirdiklərimizin hesabatını kim verəcək?"

Manvel Minosyan adlı istifadəçinin "VKontakte" sosial şəbəkəsində Prezident İlham Əliyevin şəklini paylaşaraq "Acı gerçəklik: Bizi baş nazirimizdən daha çox düşünən, Ermənistanı işıqlı günə çıxarmağın yollarını göstərən şəxsiyyət" yazması maraqlı rəylərlə qarşılanıb. Vazgen Aşotyan adlı istifadəçinin bu fotoya şərhi çoxlu bəyənmə toplayıb: "İndi başa düşürük ki, illərimizi boşa vermişik. Armenin yazdığında həqiqət çoxdur. Yalançı vədlər, Qarabağ müharibəsinin yaratdığı problemlər bizi çox geri salıb. İndi gözümüz açılır, reallıqları görürük. Məni qınayan varsa, keçsin qarşıma. Vətəndaşlıqdan başqa çarəmiz yoxdur. Acından ölürük, Yerevana getməyə qohumlarımız da yoxdur. Burada doğulmuşuq, burada da qalacağıq. İlham Əliyevin sayəsində xoş gün görə bilərik".

Feysbuk sosial şəbəkəsində Azərbaycan Prezidentinin son çıxışı ilə paylaşılan xəbərə münasibət bildirən, profil səhifəsində Xankəndidə bank sektorunda çalışdığı yazılan Varan Qriqoryan adlı istifadəçi isə qeyd edir ki, müharibədən sonra çox düzgün addımlar atmalıyıq: "Müharibədən sonra yaranan iqtisadi böhran Stepanakertdə (red.Xankəndi) insanları acınacaqlı vəziyyətlə üz-üzə qoyub. Evlərini satanlar, hətta intihar edənlər də olub. Xalqın taleyi Yerevandakıları maraqlandırmır. İlham Əliyevin vətəndaşlıq çağırışına "hə" deyirəm. Xilas reseptimiz İlham Əliyevdədir".

Tviter sosial şəbəkəsində rəy bildirən Simon Qriqoryan adlı istifadəçi isə yazır: "Vardanyan kimi işbazların əlində qalmışıq. Babam deyirdi ki, türklərlə (red.azərbaycanlılar) çox yaxşı münasibətlərimiz olub. Bu gün uşaqlarım niyə acından ölməlidir? Ailəmiz adından deyirəm ki, Azərbaycan vətəndaşı olmağa razıyıq. Qarabağda ağır məğlubiyyətə uğradıq susduq. İndi yeməyə çörək tapmırıq, niyə zülmə məruz qalırıq?"

Feysbuk sosial şəbəkə istifadəçisi Daniel Mkrtçyan isə qeyd edir ki, Qarabağdakı erməni xalqına iş lazımdır: "Bu gün Stepanakertdə (red.Xankəndi) işsizlik və bahalaşma Ermənistanın başlıca problemi olan demoqrafik böhranı daha da dərinləşdirir. Son günlərdə Stepanakerti tərk edənlərin sayı artmaqdadır. Nəticədə yaxın gələcəkdə şəhərin tamamilə boşalması təhlükəsi ilə üz-üzə qalması reallaşa bilər. İlham Əliyev yenə çıxış yolunu açıqladı. Gəlin, vətəndaşlığı qəbul edin".

Süsan Qasparyan adlı instaqram istifadəçisi Azərbaycan Prezidentinin fikirlərinin yer aldığı xəbər paylaşımına belə şərh verib: "Ermənistan ölüb, ağlayanı yoxdur. İki milləti bir-birinə düşmən edən Rusiyadır. İndi də Putin yağ-bal içərisində bəslədiyi Vardanyan adında birini göndərib ki, "Artsax"da (Qarabağ-red.) otursun. Müharibədən, ölümitimdən bezmişik. Rusiya yenə sülhün deyil, müharibənin tərəfdarı olduğunu göstərir. İlham Əliyevin son bəyanatlarını izlədim, sevinmədim desəm, yalançı olaram. Deyir ki, vətəndaşlığı qəbul edin, adam kimi yaşayın. Boş yerə həyatımızın məhv olmasını istəmirik. Belə yaşayış olmaz. Biz ermənilər yekdil qərar verməliyik. Ya Bakını, ya da Yerevanı seçməliyik".

Göründüyü kimi, indi seçim Qarabağın erməni əhalisindədir. Ermənistan rəhbərliyi separatçı dəstələrin vasitəsilə əhaliyə qarşı qorxu, xof siyasətini davam etdirərsə, onda Azərbaycan Ordusu tərəfindən daha sərt zərbələrə məruz qalacaq. Bu, İrəvan üçün həm də əlavə yeni problemlər deməkdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

İŞİMİZ, GÜZƏRANIMIZ

# Hədəfdə Avropaya qaz ixracının artırılmasıdır

## Prezident İlham ƏLİYEV: "Bunun üçün hasilata investisiya qoyulmalı, qaz kəmərləri genişləndirilməlidir"

**2023-cü ilin ilk günləri artıq arxada qalır. Prezident İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına verdiyi müsahibədə dediyi kimi, biz bu ilin də uğurla başa çatacağına ümidliyik və ümidimizin səbəbləri var: "Çünki Azərbaycanın postmüharibə dövründə göstərdiyi mövqe və beynəlxalq miqyasda əldə etdiyi uğurlar bunu deməyə əsas verir."**



2022-ci il Azərbaycanın tarixinə mühüm hadisələrlə daxil oldu. Dünya postpandemiya dövrünə uyğunlaşmağa başladığı bir zamanda bütün çətinliklərə baxmayaraq, Azərbaycan özünün sosial-iqtisadi islahatlarını davam etdirdi, yeniliklərə, uğurlara imza atdı. O cümlədən enerji sektorunda böyük irəliləyişlər oldu, yeni layihələrə başlandı, əhəmiyyətli müqavilələr imzalandı və s.Təsadüfi deyil ki, bu məsələlər dövlət başçısının müsahibəsində də özünəməxsus yer tutub.

Məlumdur ki, keçən il Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə xeyli kömək göstərdi. İyulun 18-də Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayenin Bakıya səfəri də məhz bu dəstəyin gələcək perspektivlərinə xidmət edirdi. Həmin məqsədlə Azərbaycanla Avropa İttifaqı arasında energetika sahəsində strateji tərəfdaşlıq haqqında memorandum imzalandı. Dövlət başçısı müsahibəsində bunun Azərbaycanın neft-qaz sahəsinin inkişafında əlamətdar hadisə olduğunu qeyd etmişdir: "Əlbəttə, Avropa Komissiyasının prezidentinin səfəri Avropa Komissiyasının və şəxsən xanım Ursula Fon der Lyayenin bu məsələyə ayırdığı diqqətə dəlalət edir. Son illərdə enerji təhlükəsizliyi məsələləri dünya gündəliyində əsas yerlərdən birini tutub. Bu o deməkdir ki, həmin məsələ daim beynəlxalq təşkilatların, ən nüfuzlu müxtəlif beynəlxalq forumların gündəliyində olub və Azərbaycanın neft-qaz sənayesi layihələrini necə reallaşdırması həmişə tərəfdaşlarımızın böyük hörmətini qazanıb".

Hazırda memorandumun icrası uğurla davam edir. Ölkəmiz 2021-ci ildə Avropaya 8 milyard kubmetrdən bir qədər çox qaz tədarük etmişdisə, bu il 12 milyard kubmetrə yaxın olacaq. Bütövlükdə cari ildə 24 milyard kubmetrə yaxın mavi yanacaq ixracı gözlənilir. Buna görə də Azərbaycan qaz bazarında, o cümlədən Avropa bazarında ciddi aktora çevrilir. Artıq TANAP-ın (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) buraxıcılıq qabiliyyətinin ikiqat artırılması gündəmə gəlib. Bunun üçün təbii ki, əlavə tədbirlər tələb olunur. Prezident İlham Əliyev bu barədə demişdir:" Əlbəttə, bundan ötrü tərəfdaşlarımızla məsləhətləşmələr aparılır. TANAP layihəsinə gəldikdə, burada işlər asandır, çünki biz bu layihənin əsas iştirakçısı - şeyeholderiyik və əsas maliyyə yükü bizim üzərimizə düşəcək. TAP layihəsində bizim payımız 20 faizdir, buna görə orada, əlbəttə, konsensusa nail olmaq məsələləri üzərində daha çox işləməli olacağıq. Biz neft-qaz sahəsinə aid layihələrə həmişə strateji baxımdan yanaşmışıq, çünki başa düşürdük ki, qaz kəmərləri və neft kəmərləri reallaşdırılmasa, biz öz resurslarımızla sanki qapalı məkanda qalacağıq."

"Cənub qaz dəhlizi"nin tam istifadəyə verilməsi Avropa İttifaqı ölkələrinə qaz ixrac etməyimizə imkan yaratdı. İxracın əsas bazası hələ ki "Şahdəniz" yatağıdır. Lakin perspektiv yataqlar da var. Xatırladaq ki, Azərbaycanın 2,6 trilyon kubmetr təsdiq edilmiş ehtiyatları məlumdur. Bundan çox da ola bilər. Çünki neft yataqlarında qazma işləri davam etdikcə, ilkin qiymətləndirmələrlə müqayisədə ehtiyatların həcminin daha çox olduğu ortaya çıxmışdır. Texnologiyalar inkişaf etdikcə hasilat imkanlarının artacağı da şübhəsizdir. Odur ki, 2,6 trilyon kubmetr qaz potensialının təsdiqlənmiş minimal həcmidir. Başqa sözlə, Azərbaycanın qaz sahəsi azı 100 il beynəlxalq bazarlara öz ehtiyatlarını tədarük etməyə qadirdir.

Prezidentimiz müsahibəsində bunları qeyd edərək bildirmişdir: "Qaz kəmərlərinin hamısının inşa edilməsini nəzərə alsaq, təbii ki, Avropa İttifaqı ilə biz tədarükün artırılmasını hədəfləmişik. Lakin bundan ötrü, əlbəttə, hasilata investisiya qoyulması zəruridir və biz bunu edirik, bundan ötrü mövcud qaz kəmərlərinin genişləndirilməsi zəruridir. Ona görə ki, həm TANAP, həm də TAP kəmərləri bizim kontrakt bağladığımız həcmlər üçün nəzərdə tutulub. Biz belə qısa perspektivdə Avropaya tədarükün iki dəfə artırılmasına ehtiyac olacağını nəzərə almamışıq. Yəni xanım Ursula Fon der Lyayen ilə imzalanmış sənəddə məhz bu məqam nəzərdə tutulur."

Gələn ay Bakıda "Cənub Qaz Dəhlizi"nin Məşvərət Şurasının növbəti toplantısı keçiriləcək. Burada yeni mövzular müzakirə olunacaq və iştirak edən ölkələrin sayı da artacaq. Çünki ölkəmizdən qaz almaq istəyən ölkələrin də sayı artır.

Xatırladaq ki, bu, Məşvərət Şurasının sayca 9-cu toplantısı olacaq. 2021-ci ildə 7-ci iclasın koronavirus pandemiyası səbəbindən onlayn formada olduğunu çıxmaq şərtilə, 2015-ci ildən bəri şuranın bütün toplantıları Bakıda keçirilib. Bu da "Cənub qaz dəhlizi"nin təşəbbüsçüsünün və aparıcı qüvvəsinin Azərbaycan olduğunu təsdiqləməklə yanası, Prezident İlham Əliyevin dünyadakı nüfuzunu bir daha göstərir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Dünya Bankı 2023-2024-cü illərdə Azərbaycanda ÜDM artımı üzrə proqnozunu açıqlayıb

Azərbaycanda 2023-cü ildə ÜDM artımının 2,8 faiz səviyyəsində (daha əvvəl proqnozlaşdırıldığından 0,6 faiz daha çox) olacağı proqnozlaşdırılır.




"Trend"in çərşənbə günü Dünya Bankının (DB) "Global Economic Prospects" hesabatına istinadən bildirdiyinə görə, 2024-cü ildə Azərbaycanda ÜDM artımı 2,6 faiz təşkil edəcək. Beləliklə, DB 2023-2024-cü illərdə Azərbaycanda ÜDM-in orta illik artım tempini 2,7 faiz səviyyəsində proqnozlaşdırır.

Qeyd edək ki, DB 2022-ci ildə Azərbaycanda ÜDM artımını 4,2 faiz səviyyəsində qiymətləndirmişdi.

"2023-cü ildə Cənubi Qafqaz ölkələrində ÜDM artımı 3,3 faiz, 2022-ci ildəki 6,5 faiz artımdan sonra 2024-cü ildə isə 3,5 faiz təşkil edəcək. Proqnozlaşdırılan ləngimə 2021-22-ci illərdə əhəmiyyətli dərəcədə bərpadan sonrakı dinamikanın zəifləməsini, avrozonada zəifləmiş artım templərinin təsirini, Ermənistan və Azərbaycan sərhədində gərginliyin qalmasını və Cənubi Qafqazın ən yaxın iqtisadi tərəfdaşlarından biri olan Rusiyada istehsalın davamlı azaldılmasını əks etdirir", - deyə DB qeyd edir.

**Ötən ilin yekunları**

# Əmək, məşğulluq və sosial müdafiə üzrə elektron xidmətlərə 9,9 milyon müraciət ünvanlanıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət sahələri üzrə əhaliyə təqdim olunan elektron xidmətlərə 2022-ci ildə 9,9 milyon müraciət qeydə alınıb.



Ötən il "e-təyinat"lar davam edib, 231 min pensiya, müavinət, təqaüd təyinatı "e-infrastruktur" üzərindən proaktiv qaydada həyata keçirilib, "e-qayda"da 212 min fərdi şəxsi hesab açılıb.

1997-ci il avqustun 2-dək hərbi xidmətdə olarkən aldığı xəsarət nəticəsində əlilliyi müəyyən edilmiş şəxslər və onlardan vəfat edənlərin vərəsələrinə birdəfəlik ödəmələrin təyinatı "e-sistem" üzərindən aparılır. Son bir ildə bu istiqamətdə proaktiv qaydada 17,7 min təyinat həyata keçirilib.

Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "e-sistemləri"nin 50-dən çox qurumun informasiya bazaları ilə inteqrasiyası həyata keçirilir. Həmin qurumlar tərəfindən 2022-ci ildə nazirliyin informasiya bazalarına edilən sorğu sayı 209 milyon, servislər üzərindən mübadilə sayı 17,8 milyon olub.

# Ötən il 33 gəmi təmir olunub

Ötən il "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Zığ Gəmi Təmiri və Tikintisi Zavodunda (ZGTTZ) ümumilikdə 33 müxtəlif tipli gəmi təmir olunub.

ASCO-dan "Trend"ə verilən məlumata görə, gəmilərdən 13-ü əsaslı, 12-si tərsanə, 8-i cari təmir edilib. Bunlardan 26-sı ASCO-nun Dəniz Nəqliyyatı Donanmasına, 5-i Xəzər Dəniz Neft Donanmasına, 2-si isə kənar təşkilatlara aid olub.

Təmir prosesi ASCO-nun yüksəkixtisaslı mütəxəssislərinin iştirakı ilə beynəlxalq konvensiyanın tələblərinə uyğun həyata keçirilib.

# İdxal olunan əsas vəsaitlər ƏDV-dən azad edilib

Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərin bir hissəsi investisiya mühtinin cəlbediciliyinin artırılması məqsədini hədəfləyir.

Məlum olduğu kimi, Vergi Məcəlləsinə əsasən, sənaye, yaxud texnologiyalar parkının rezidentləri və investisiya təşviqi sənədini alan vergiödəyiciləri tərəfindən istehsal sahələrinin tikintisi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi və istehsal məqsədilə idxal edilən texnika, texnoloji avadanlıqlar və qurğular idxal zamanı ödənilən ƏDV-dən azaddır. Lakin bu kateqoriyaya daxil olmayan vergiödəyiciləri eyni əməliyyatlara görə gömrük orqanlarına böyük həcmdə vergi ödəməli idilər ki, bu da onların maliyyə vəziyyətində çətinliklərə səbəb olurdu. Sözügedən halların aradan qaldırılması, ölkədə investisiya qoyuluşlarının stimullaşdırılması məqsədilə qanunvericiliyə edilmiş son dəyişikliklərlə idxal olunan əsas vəsaitlər ƏDV-dən azad edilib. Siyahısı Nazirlər Kabineti tərəfindən təsdiq olunacaq əsas vəsaitlərin idxalı müddətsiz olaraq ƏDV-yə cəlb edilməyəcək.

Bu təşviqlər ölkə iqtisadiyyatı üçün prioritet hesab edilən sahələr üzrə idxal edilən əsas vəsaitləri, o cümlədən emal və istehsal avadanlıqları və digər əsas vəsaitlərin idxalını əhatə edəcək. Bununla da dövriyyə vəsaitlərinə qənaət edilməsi yolu ilə müvafiq sahələr üzrə iqtisadi artıma nail olunacağı proqnozlaşdırılır.

**Ötən ilin yekunları**

# Sənaye zonalarına sahibkarların marağı artır

İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan sənaye zonalarında 28 sahibkarlıq subyektinə (sənaye parklarında 23, sənaye məhəllələrində 5) rezident statusu verilib.



Qeydiyyata alınmış rezidentlər tərəfindən ümumilikdə 171 milyon manat investisiyanın yatırılması, 2400-dən çox iş yerinin yaradılması nəzərdə tutulur.

Bu rezidentlər tərəfindən sənaye zonalarında müxtəlif tonnajlı yük və xüsusi təyinatlı avtomobillərin, elektrik paylayıcı avadanlıqların və elektrik yuvalarının, müxtəlif tikinti kimyəvilərin, elektrik avtomat və sayğacların, yumşaq polimer qablaşdırma məhsullarının, havalandırma, yanğınsöndürmə avadanlıqları və müxtəlif metal məmulatların, dam örtüklərinin, avtomatlaşdırma və telemexanika sistemlərinin, divar kağızlarının və s. istehsalı layihələri həyata keçiriləcək.

Qeyd edək ki, İqtisadi Zonaların İnkişafı Agentliyi 6 sənaye parkının (Sumqayıt Kimya, Pirallahı, Mingəçevir, Qaradağ, Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları), 4 sənaye məhəlləsinin (Hacıqabul, Masallı, Neftçala və Sabirabad sənaye məhəllələri), 51 aqroparkın və Peşə Təhsil Mərkəzinin idarəedici təşkilatıdır.

# Neft ucuzlaşıb

AZƏRTAC xəbər verir ki, dünya birjalarında neft qiymətləri ucuzlaşıb.

Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "brent" markalı neftin bir barelinin qiyməti 0,64 dollar azalaraq 79,46, Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "light" markalı neftin bir barelinin qiyməti isə 0,69 dollar ucuzlaşaraq 74,43 dollar olub.

# Postmüharibə dövründə 122 min şəhid ailəsi üzvü və müharibə iştirakçısına müxtəlif xidmətlər göstərilib

## 102 min şəxsə aylıq sosial ödəniş, 16,8 min şəxs üzrə birdəfəlik ödəmə təyin olunub

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun tarixi Zəfər qazandığı 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə şəhidlərimizin ailə üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək tədbirləri həyata keçirilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan bu sosial dəstək paketi çərçivəsində:

- 102 min şəxsə 114 min aylıq sosial ödəniş, 16,8 min şəxs üzrə birdəfəlik ödəmə təyin olunub, 3,1 min şəxsə sığorta ödənişi verilib;
- 2021-ci ilin əvvəlindən şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar əlilliyi olanların, Milli Qəhrəmanların təqaüdləri, 2022-ci ilin əvvəlindən sosial müavinətlər orta hesabla 60 faiz artırılıb;
- Şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminat proqramı 5 dəfə genişlənib və onlara 4 500 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 324 avtomobil təqdim edilib;
- Şəhid ailələri üzvləri, müharibə iştirakçılarından ibarət 11 min nəfərə 36,7 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib;
- Müharibə ilə əlaqədar əlilliyi olan 1,8 min şəxs 30,7 min ədəd reabilitasiya vasitəsi, 387 nəfər 403 ədəd yüksək texnologiyalı müasir protezlə təmin edilib;
- Şəhid ailələri üzvləri və müharibə iştirakçılarından ibarət 16,5 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 9,5 min şəxs özünüməşğulluq proqramına cəlb olunub;
- Vahid əlaqələndirmə mərkəzlərində şəhid ailələri üzvləri və müharibə iştirakçılarından ibarət 71,7 min şəxsə xidmətlər göstərilib və s.

Ümumilikdə postmüharibə dövründə qeyd olunan sosial dəstək paketi 122 min şəxsi əhatə edərək, onlara dəstək yönümlü 264 min xidmət göstərilib.



# Qarın fəsadları aradan qaldırılır







Bakı Şəhər İcra Hakimiyyətinin kommunal strukturları və aidiyyəti qurumlar xüsusi gücləndirilmiş iş rejimində yağan qarı küçə, prospekt və piyada səkiləri, avtobus dayanacaqları və metro stansiyalarının qarşısından təmizləyiblər.





Şaxtalı hava şəraitində qarın təmizlənməsi və xüsusi təyinatlı texnika vasitəsi ilə yollara duz və kimyəvi maddələrin səpilməsi həyata keçirilib.

Yollarla yanaşı, vətəndaşların daha çox istifadə etdikləri yerlər - ictimai-iaşə, təhsil, səhiyyə və digər müəssisələrin ətrafı da təmizlənir. Təmizləmə işlərində həmin müəssisələrin əməkdaşları da yaxından iştirak edirlər. Səhər saatlarından intensivləşən işlər gecə ərzində də davam etdirilib. Bakı şəhər və rayon icra hakimiyyətlərinin rəhbər nümayəndələri ərazilərdə olub və aparılan işləri nəzarətdə saxlayıblar. Təmizləmə işləri mərkəzlə yanaşı, Bakıətrafı qəsəbə və yaşayış massivlərində də aparılır.

***"Azərbaycan"***

# Qarlı hava bir sıra problemlər yaratdı

Qışın sərt üzü özünü göstərir. Regionlara və Bakıya yağan qar, əlbəttə ki, xoş təəssürat yaratsa da, özü ilə müəyyən çətinliklər də gətirib. Belə ki, yolların buz bağlaması bəzi fəsadların yaranmasına da səbəb olub. Respublika yollarında ölüm və xəsarətlə nəticələnən yol-nəqliyyat hadisələri baş verib.

Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin (DYP) məlumatına əsasən, Bakıda yağan qar səbəbindən 50-dən artıq yol-nəqliyyat hadisəsi baş verib.

TƏBİB-in məlumatına görə, kəskin hava şəraiti ilə əlaqədar yıxılma səbəbilə Bakı Şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına 49 müraciət daxil olub. Müraciətlər əsasən diz, çanaq, bilək, topuq, çiyin və əl nahiyələrinin travmaları ilə bağlı olub.

Qarlı, buzlu-şaxtalı hava şəraiti səbəbilə avtomobil qəzalarının, piyada xəsarətlərinin sayının artmaması üçün vətəndaşlara mövcud hava və yol şəraitini düzgün qiymətləndirmələri, nasaz nəqliyyat vasitələri ilə yola çıxmamaları, sürət həddini minimuma salmaları və hətta zərurət olmadığı təqdirdə şəxsi nəqliyyat vasitələrindən istifadə etməmələri tövsiyə olunur.

Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov deyir ki, ölkəmizdə qarlı havalarda baş verən yol qəzalarının üç əsas səbəbi var: "Onların birincisi, yol hərəkəti iştirakçılarının, sürücü və ya piyadaların biləkdən yol hərəkəti qaydalarını pozmalarıdır. İkincisi, yol infrastrukturunun müvafiq qaydalara uyğun olmaması, qaranlıq, nişanlanmayan və hərəkət üçün yararlı olmayan bəzi yolların mövcudluğudur. Üçüncü səbəb isə nasaz avtomobillərdir. Bu səbəbləri aradan qaldırmaq istiqamətində işlər aparılmalıdır".

E.Cəfərov bildirir ki, bu sahədə müvafiq işlər görülür: "Qar yağmazdan 1-2 həftə əvvəl avtonəqliyyat üzrə ekspertlər Baş Dövlət Yol Polis İdarəsi ilə birgə qışa hazırlıq tədbirləri keçirmiş, şəhərin bəzi küçələrində sürücülərlə iş aparmışdır. Buna baxmayaraq, görürük ki, bəzi sürücülər hələ də qarlı havalarda nasaz avtomobillərlə yola çıxırlar. Bəzən maarifləndirmə işləri də məsuliyyətsiz sürücülərin köməyinə gəlmir".

Ekspert qeyd edir ki, qarlı havalarda yola çıxan sürücülər məsuliyyətli olmalıdırlar: "Sürücülük bacarıqları zəif, təcrübəsi az olanlar belə havalarda avtomobillə yola çıxmamalıdırlar. Sürücü nəqliyyat vasitəsinin qarlı hava şəraitinə uyğunluğuna, tələblərə cavab verməsinə, avtomobillərin qış şinləri olmasına xüsusi diqqət yetirməlidir. Yay şinləri ilə qarlı havada avtomobil idarə etmək olmaz. Avtomobilin şüşəsilənlərinin, faralarının işləməsi də vacibdir. Təəssüf ki, bu sadə məsələlərə bəzi sürücülər diqqət yetirmirlər. Bununla da həm öz, həm də digər yol hərəkəti iştirakçılarının həyatı üçün təhlükə yaradırlar".

E.Cəfərov piyadaları da diqqətli olmağa çağırır: "Piyadalar bilməlidirlər ki, qarlı hava şəraitində yollar sürüşkən olur. Bu hallarda avtomobili anındaca dayandırmaq həmişə mümkün olmur. Piyadalar sürücülərin səriştəliliyinə güvənmədən özləri özlərini qorumalıdırlar. Onlar hətta nizamlanan piyada xətlərini keçərkən belə çox diqqətli olmalıdırlar".

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# ADA Universiteti Misirin Diplomatik Araşdırmalar İnstitutu ilə əməkdaşlıq edəcək

ADA Universiteti ilin ilk anlaşma memorandumunu yanvarın 11-də Misirin Diplomatik Araşdırmalar İnstitutu ilə imzalayıb.



Bu barədə AZƏRTAC-a ADA Universitetindən bildirilib. Sənədi ADA Universitetinin prorektoru, eləcə də İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadə və Misirin Diplomatik Araşdırmalar İnstitutunun direktoru Valid Haqqaq imzalayıblar. Sənədə əsasən, tərəflər konfranslar, mühazirələr və ya "dəyirmi masa" müzakirələri də daxil olmaqla müxtəlif birgə tədbirlər təşkil edəcək və qarşılıqlı maraq doğuran sahələrdə təcrübə və bilik mübadiləsi həyata keçirəcəklər.

Fariz İsmayılzadə ADA Universitetinin beynəlxalq müstəvidə tərəfdaşlarının sayının durmadan artdığını vurğulayaraq tərəflər arasında əməkdaşlığın 5 prioritet istiqamətindən bəhs edib. Bildirib ki, həmin prioritetlər sırasında diplomatlar üçün təlim proqramlarının, eləcə də müxtəlif aktual mövzular barədə yay məktəbləri və genişmiqyaslı tədbirlərin təşkilini, birgə analitik araşdırmaların aparılmasını və "Bakı dialoqları" jurnalında dərc olunacaq məqalələrin yazılması kimi fərqli istiqamətləri qeyd etmək mümkündür.

Valid Haqqaq akademik əməkdaşlığın genişlənməsində tələbələrin də vacib roluna toxunaraq bildirib ki, sözügedən sənəd hər iki ölkənin təmsil olunduğu region barədə məlumatlılığın da artırılmasına fayda verəcək.

# Əlilliyi olan hərbçilər futbol meydançasında oynayacaqlar



Şanlı Zəfərimizin qəhrəmanları olan, müharibədə əzalarını itirmiş qəhrəman hərbçilərimiz Prezident İlham Əliyevin göstərişi əsasında qısa müddətdə yüksəktexnologiyalı son nəsil protezlərlə təmin olunublar.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, həmin protezlər aktivliyi və funksionallığı ilə onların sərbəst və inamlı şəkildə hərəkət etmələrinə, hətta futbol oynaya bilməsinə belə imkan verir.

Yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsində yaralanaraq əlil olmuş 379 hərbçinin ən müasir protezlərlə təmin edildiyini bildirərək deyib: "Cəmi iki il keçməsinə baxmayaraq, İkinci Qarabağ müharibəsinə aid olan bu proqram tam yerinə yetirilib. Bu proqramın icrası mətbuatda da işıqlandırılıb. Hər kəs görə bilir ki, bizim qazilərimiz hətta futbol oynaya bilirlər".

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi müharibədə yaralanaraq əzalarını itirmiş, lakin ən müasir protezlərlə təmin edilərək yenidən fəal həyata davam edən igid hərbçilərimizin iştirakı ilə bir müddət əvvəl keçirilən futbol yarısından videoçarx hazırlayıb.

# İşğaldan azad olunmuş ərazilərdə işləyən mütəxəssislərə bəzi güzəştlər nəzərdə tutulub

Əmək Məcəlləsinə dəyişikliklərdə "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində işləyən mütəxəssis" anlayışı əlavə edilib.

AZƏRTAC Dövlət Vergi Xidmətinə istinadla xəbər verir ki, bu sözləri DVX-nin idarə rəisi Nigar Vahabzadə deyib.

Bildirilib ki, həmin ərazilərdə işləyən mütəxəssis - peşə, orta ixtisas və ali təhsil haqqında dövlət sənədi və son 60 ay ərzində ən azı 24 ay əmək stajı olan və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində əmək müqaviləsi (kontraktı) əsasında işləyən şəxsdir.

Həmçinin Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssislərin əmək müqaviləsi bağladıqları işəgötürən (o cümlədən hüquqi şəxs olduqda onun Vergi Məcəlləsinin 33.2-ci maddəsinə uyğun olaraq vergi uçotuna alınmış filialı, nümayəndəliyi) işğaldan azad edilmiş ərazilərdə vergi uçotunda olduqda, əmək müqaviləsi üzrə iş yeri və həmin ərazilərdə məskunlaşdıqda Vergi Məcəlləsində və Azərbaycan Respublikasının digər qanunlarında nəzərdə tutulan güzəştlərdən və imtiyazlardan istifadə etmək hüququna malikdirlər. Qeyd olunan şərtlərin hamısının birgə mövcudluğu mütləqdir: "Bunlarla yanaşı, işğaldan azad edilmiş ərazilərdə işləyən mütəxəssislərə əsas və əlavə məzuniyyətlərin müddətindən asılı olmayaraq, 5 təqvim günü müddətində əlavə məzuniyyət verilməsi nəzərdə tutulur.

Qanunvericilikdə dəyişikliklər işğaldan azad edilmiş ərazilərin milli iqtisadiyyata sürətli inteqrasiyasına, orada vətəndaşlara layiqli yaşayış şəraitinin yaradılması istiqamətində görüləcək işlərə böyük töhfə verəcək", - deyə N.Vahabzadə vurğulayıb.

# Fransada yeni tətillər başlayır

Fransa həmkarlar ittifaqları hökumətin pensiya sistemində islahat elan etməsindən sonra səfərbərliyə başlayıb. İslahat nəticəsində pensiya yaşı 62-dən 64-ə qaldırılır.




Baş nazir Elizabet Bornun dediyinə görə, bu tədbirlər sistemin yaşamasını təmin etmək üçün zəruridir və 2030-cu ilə qədər mərhələli şəkildə tətbiq ediləcək.

Həmkarlar ittifaqları uzun müddətdir ki, pensiya yaşının 64 və ya 65-ə qaldırılmasına qarşı mübarizə aparacaqları barədə xəbərdarlıq edirlər. Bununla əlaqədar CFDT Həmkarlar İttifaqının baş katibi Loran Berjer deyir: "Hökumətin islahat barədə elanından sonra bütün həmkarlar ittifaqları ümumi peşələrarası səfərbərlik cavabı hazırlamaq üçün dərhal bir araya gəliblər. Bu, 19 yanvar 2023-cü il tarixdə tətil və nümayişlərin ilk günü şəklində olacaq."

Həmkarlar ittifaqları hökumətin pensiya islahatı layihəsini qəti şəkildə rədd edir və bildirirlər ki, 19 yanvar səfərbərliyi hökuməti təslim olmağa məcbur etmək məqsədi daşıyan bir sıra aksiyaların yalnız başlanğıcı olacaq. Onlar deyirlər ki, yeniliklər bütün işçilərə, xüsusən də erkən işə başlayanlara və ya fiziki əməklə məşğul olanlara ağır zərbə vuracaq. Bununla belə, hökumətin başlatdığı pensiya islahatı işəgötürənlər və mühafizəkar qüvvələr tərəfindən dəstəklənir.

Xatırladaq ki, ötən şənbə günündən etibarən Parisdə "sarı jiletlilər"in təşkil etdiyi etiraz aksiyaları bərpa olunub. Etirazçılar Fransada qiymətlərin sürətlə qalxdığını bildirir və bunun qarşısını almaqdan ötrü hökumətdən lazımi tədbirlər görməyi tələb edirlər.

Nümayiş iştirakçıları iqtisadi tələblərlə yanaşı, prezident Emmanuel Makronun səriştəsiz daxili və xarici siyasətinə qarşı da şüarlar səsləndiriblər.

Yerli KİV-in xəbərinə görə, fransalı "sarı jiletlilər" yenidən döyüşmək həvəsindədirlər: yanvarın 7-də onlar hökumətə vəd etdikləri "isti bahardan" əvvəl Eyfel qülləsinin yaxınlığındakı Bretey meydanından başlayaraq Parisin sol sahilinin böyük hissəsi boyunca 14-cü dairədəki Danfer-Roşro meydanına qədər bir növ isinmə xarakterli yürüş keçiriblər.

Parisin mərkəzində ölümcül olmayan silahlardan yenidən atəş səsləri eşidilib, dəyənəklər havada uçub, gözyaşardıcı qazdan istifadə edilib.

"Sarı jiletlilər" son aylarda hakimiyyət və korporasiyalarla təkbaşına vuruşan bütün narazıları birləşdirməyə çalışırlar.

Ölkəni əvvəlcə neftçilərin tətili iflic etmisdi, indi isə həkimlər daha yüksək maaş istəyirlər. Ötən ilin noyabrından bəri tibb işçiləri həm də səhiyyəyə daha çox vəsaitin ayrılmasını tələb ediblər.

"Sarı jiletlilər" bütün bu insanlara şəxsi maraqları üçün deyil, ümumi maraqlar üçün mübarizə aparmağı təklif edirlər. Çünki səpələnmiş etirazlara hakimiyyət, sadəcə olaraq, məhəl qoymur.

Onlar indiki kimi nümayişlərin hər həftəsonu keçiriləcəyini vəd edirlər. Onlar bildirirlər ki, yazda hakimiyyət narazıları eşitməli olacaq.

"Sarı jiletlilər" Fransada son illərin ən böyük etiraz hərəkatlarından biridir. 2018-ci ildə kortəbii olaraq yaranıb. Daha sonra payızda fəallar yolları bağlayıb və aksiyaların təşkili əsasən sosial şəbəkələr vasitəsilə həyata keçirilib.

Aksiyaların əksəriyyəti şənbə günləri baş tutub və şüarlar tədricən hökumət əleyhinə çağırışlara çevrilib. Belə ki, iqtisadi tələblər və yanacağın ucuzlaşması ilə yanaşı, fəallar prezident Emmanuel Makronun istefasını tələb ediblər. Parisdə və digər böyük şəhərlərdə mitinqlər tez-tez zorakılıq və dağıntılarla müşayiət olunub.

Etirazçıların tələbləri inflyasiya ilə mübarizə, əhaliyə dəstək üçün yeni tədbirlər və pensiya islahatlarından imtinadır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Azad edilmiş ərazilərdə çalışanlar sosial sığorta haqlarını 100 faiz geri alacaqlar

İşğaldan azad edilmiş ərazilərdə istər iqtisadi, istərsə də insan resurslarının səmərəli idarə edilməsi, müasir bilik və bacarıqlara malik mütəxəssislərin işə cəlb olunması məqsədilə bir sıra qanunvericilik aktlarına dəyişikliklər edilib. Artıq həmin ərazilərdə fəaliyyət göstərən sahibkarlar ödədikləri məcburi dövlət sosial sığorta haqlarını dövlət büdcəsi hesabına subsidiya vasitəsilə geri ala biləcəklər.

AZƏRTAC Dövlət Vergi Xidmətinə istinadla xəbər verir ki, bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin idarə rəisi Nigar Vahabzadə bildirib.

DVX rəsmisi qeyd edib ki, dövlət başçısı "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2021-ci ildə Sərəncam imzalayıb. Sərəncamın icrası ilə bağlı "Sosial sığorta haqqında", "Dövlət rüsumu haqqında" və "Sosial müavinətlər haqqında" qanunlarda, Miqrasiya Məcəlləsində və Əmək Məcəlləsində dəyişikliklər edilib. Burada əsas məqsəd işğaldan azad edilmiş ərazilərdə sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün əlverişli şəraitin yaradılması, sığortaedənlərin xərclərinin minimum səviyyəyə endirilməsi, müasir bilik və bacarıqlara malik mütəxəssislərin həmin ərazilərə cəlb olunmasıdır.

Onun sözlərinə görə, "Sosial sığorta haqqında" qanuna edilmiş dəyişikliyə əsasən, rüb ərzində sığortaedənin vəsaiti hesabına muzdlu işdən gəlir əldə edən sığortaolunanların xeyrinə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının məbləği 10 il müddətində dövlət büdcəsindən: 2023-cü il yanvarın 1-dən 2026-cı il yanvarın 1-dək - 100 faiz; 2026-cı il yanvarın 1-dən 2029-cu il yanvarın 1-dək - 80 faiz; 2029-cu il yanvarın 1-dən 2031-ci il yanvarın 1-dək - 60 faiz və 2031-ci il yanvarın 1-dən 2033-cü il yanvarın 1-dək - 40 faiz miqdarında subsidiyalaşdırılacaq: "Muzdlu işçisi olan sahibkarlarla yanaşı, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin özlərinə görə ödədiyi məcburi dövlət sosial sığorta haqlarının 100 faizi miqdarında subsidiyalaşdırılması nəzərdə tutulur. Həmçinin "Sosial sığorta haqqında" qanunun 14.5.1-1-ci maddəsində qeyd edilən fəaliyyət növləri ilə fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan fiziki şəxslər tərəfindən "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz" və "Fərqlənmə nişanı" alınarkən ödənilmiş məcburi dövlət sosial sığorta haqqı 10 il müddətinə 100 faiz subsidiyalaşdırılacaq".

# Havaların kəskin soyuması bir sıra problemlər yaradıb

"Azərenerji" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, son günlər havaların kəskin soyuması, nəticədə çovğunla müşahidə edilən qar yağması və buzlaşma ilə əlaqədar ölkənin əsasən dağlıq istiqamətlərində, o cümlədən işğaldan azad edilən bəzi rayonların elektrik veriliş xətlərində müəyyən problemlər ortaya çıxıb.

Xızı, Qəbələ, Ağsu, Yardımlı rayonları ilə yanaşı, "Kəlbəcər" xəttinin Daşkəsən istiqamətindəki Alaxançallı kəndində, Qubadlı-Laçın xəttinin Güləbird və Şuşa xəttinin Böyük Tağlar kəndlərindən keçən buzlaşmış hissələrində də problemlər yaranıb. Bu və digər ərazilərin elektrik enerjisi ilə təmin olunmaları üçün "Azərenerji" ASC bütün imkanlarını səfərbər edib.

Qeyd olunmalıdır ki, kəskin hava şəraiti işin intensiv aparılmasına mane olur, qarın qalınlığı bəzi ərazilərə texnikanın çıxarılmasını çətinləşdirir. Buna baxmayaraq, problemin həlli istiqamətində ciddi addımlar atılıb və atılır.

# "Azərişıq" kəskin hava şəraitində abonentləri işıqsız qoymadı

"Azərişıq" ASC Lerikin ucqar dağ kəndləri olan Hücü və Dico kəndlərində elektrik enerjisini bərpa edib.

Yanvarın 11-də güclü qar yağması nəticəsində Lerik rayonunun Hücü və Dico kəndlərinə gedən elektrik naqillərində qəza baş verib və elektrik enerjisinin verilişində fasilə yaranıb.

Qarlı, şaxtalı havada dağlıq ərazidə yerləşən kəndlərə avtomobillə hərəkət etmək mümkün olmayıb. Bu səbəbdən "Azərişıq" əməkdaşları mal-material təchizatı ilə birlikdə 8 km-lik yolu piyada qət edərək baş vermiş qəzanı aradan qaldırıblar.

Qeyd edək ki, Hücü kəndinin 8, Dico kəndinin 25 abonenti var.

# "Qədim alimlər türk xalqları haqqında" kitabı ABŞ-də nəşr olunub

Türkologiya sahəsində zəngin akademik təcrübəsi olan, ABŞ-nin Berneli Universitetinin keçmiş qonaq professoru, bir sıra kitabların müəllifi, dünyanın nüfuzlu universitetlərində, o cümlədən Stenford və Kaliforniya universitetlərində mühazirələr oxumuş, məruzə və çıxışlar etmiş tanınmış türkoloq A.Sanduçinin "Qədim alimlər türk xalqları haqqında" kitabı ABŞ-də "World Scholarly Press" tərəfindən iki cilddə nəşr olunub.

Bu barədə AZƏRTAC-a "Türkologiya" jurnalının məsul katibi Aysel Qəribli məlumat verib. Monoqrafiya "Ön söz", səkkiz fəsil və biblioqrafiyadan ibarətdir. "Ön söz"də "türk" etnonimi, eləcə də ən qədim dövrlərdən başlayaraq türklərin daşımış olduğu müxtəlif adlar barədə yığcam məlumat verilir. Əsərdə latın əsaslı müasir türk əlifbası beynəlxalq ingilis əlifbası ilə müqayisədə təqdim edilir. Bu da əsərdə sıx-sıx verilmiş türk sözlərinin oxucuya, xüsusilə müxtəlifdilli mütəxəssislərə mümkün qədər düzgün fonetik tərkibdə çatdırılması məqsədi daşıyır.

Çoxsaylı, çoxdilli və son dərəcə zəngin mənbələrə əsaslanmış tədqiqatçı mükəmməl elmi-metodoloji quruluşu ilə seçilən monoqrafiyasında türklər (və türkologiya) üçün artıq müəyyənləşmiş, mübahisə doğurmayan məsələlərdən bəhs etməklə yanaşı, olduqca mübahisəli, polemik problemlərə geniş yer verir.

Birinci fəsildə türklərin Bibliyaya görə tarixşünaslığı araşdırılır. İkinci fəsildə bu qədim etnosun tanrıları, ana yurdları və ilkin tayfa diferensiasiyası barədə təsəvvür yaradılır, üçüncü fəsil isə türk tayfalarının qədim əlaqələrinə, etnik inteqrasiya məsələlərinə həsr olunub.

Türk və İran tarixşünaslığında tamamilə əks-mövqelərdən yanaşılmış Midiya məsələsini A.Sanduçi məhz bir türkoloq olaraq həll edərək əsərin dördüncü fəslində göstərir ki, midiyalılar türkmənşəli olublar. Müəllif eyni fikri sonrakı, beşinci fəsildə skiflər, saklar, parfiyalılar, baktriyalılar, hunlar, sarmatlar və başqa xalqlar haqqında da deyir və bu zaman, təbii ki, qədim müəlliflərin mötəbər mülahizələrinə istinad edir.

"Qədim alimlər türk xalqları haqqında" kitabının altıncı fəsli qədim türklərin əlifba və yazı mədəniyyətindən bəhs edir. Yeddinci fəsildə isə, doğrudan da, türk tarixinin unikal hadisəsi olub əsərdə də ətraflı təhlil edildiyi kimi, ictimai-siyasi (dövlətçilik), dini-ideoloji (mənəvi), iqtisadi-təsərrüfat və s. sahələrə nüfuz etmiş türk damğalarından söhbət açılır. Nəhayət, səkkizinci fəsildə qədim Amerika türklərindən bəhs olunur ki, bu mövzu son dövrlərdə türkologiyada xüsusi aktuallıq qazanıb.

A.Sanduçinin zəngin linqvistik, arxeoloji, etnoqrafik və s. materialların yer aldığı "Qədim alimlər türk xalqları haqqında" əsəri, heç şübhəsiz, türk xalqları tarixi ilə maraqlanan hər kəs üçün dəyərli töhfədir.




## OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*

## "Azərtransservis" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə!

14 fevral 2023-cü il tarixdə saat 10:00-da Bakı şəhəri, Binəqədi rayonu, Dərnəgül qəsəbəsi, 3105-ci məhəllədə yerləşən "Azərtransservis" ASC-nin baş ofisində cəmiyyətin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi üzrə materiallarla tanış olmaq və əlavə məlumat almaq üçün "Azərtransservis" ASC-nin baş ofisinə, həmçinin **azertransservis@gmail.com** e-mail ünvanına müraciət etmək olar.

***"Azərtransservis" ASC***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti gəmiləri üçün istilik detektor testerlərinin satın alınması məqsədi ilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 18 yanvar 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Useynov küçəsi 2, AZ1003**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1164**

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərova əzizi

**SEHRAN MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Bakı Şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərova dayısı

**SEHRAN MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İcbari Sığorta Bürosunun icraçı direktoru Rəşad Əhmədov və büronun kollektivi Azərbaycan Sığortaçılar Assosiasiyasının icraçı direktoru Elmar Mirsalayevə atası

**MÜBARİZ MİRSALAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətindən Zakir Quliyev Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərova dayısı

**SEHRAN MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Aviasiya Akademiyasının prorektoru Şəmsəddin Axundov və M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan Apellyasiya Məhkəməsinin sədri Lerik Rayon Məhkəməsinin sədri Atabəy Kiçibəyova əzizi

**RAHİD KİÇİBƏYOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru professor Gülçöhrə Məmmədova Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzov və akademiyanın kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texnologiya Universitetinin rektor əvəzi Yaşar Ömərov və universitetin kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AMEA İqtisadiyyat İnstitutundan professor Tofiq Hüseynov Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Savəddin Hüseynova atası

**ZAKİR HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev və universitetin kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) İqtisadiyyat kafedrasının müdiri, dosent Suqra Hümbətova və kafedranın əməkdaşları Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıtdan Zakir Fərəcov Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Mühəndislik Universitetinin rektoru professor Havar Məmmədov və universitetin prorektorları Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Bakı Şəhəri üzrə Baş Maliyyə İdarəsinin rəisi Təbriz Həsənov Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Səbzəliyevlər ailəsi Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" Nəşriyyatı, IV mərtəbə*




www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4714**
**Sifariş 37**

**Qiyməti 40 qəpik**